RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 199 (9654) 13 sentyabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Qafqazın ən güclüsü

### Birgə hərbi təlimlər ordumuzun döyüş qabiliyyətini daha da yüksəldir



Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi islahatlar onu deməyə əsas verir ki, bu gün Silahlı Qüvvələrimiz vahid proqram əsasında inkişaf etdirilir. Prezidentin söylədiyi kimi, görülən işlərə, aparılan islahatların real nəticəsinə əsasən deyə bilərik ki, hazırda Azərbaycan Silahlı Qüvvələri müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş ordumuzdan daha da güclüdür. Yəni Cənubi Qafqazda ən güclü ordu Azərbaycana məxsusdur.

Hazırda Azərbaycan Ordusunun şəxsi heyətinin peşəkarlığının daha da artırılması üçün müxtəlif tədbirlər planı əsasında hərbçilərimiz daxildə və xaricdə təşkil olunan təlimlərə qatılırlar.

Ötən il Azərbaycan Ordusunda 143 taktiki-xüsusi, 261 taktiki, 8 taktiki uçuş, 7 gəmi-döyüş, 4 komanda-qərargah səfərbərlik təlimi, komando başlanğıc və snayper hazırlığı kursları keçirilib. Eləcə də hərbi qulluqçularımız Azərbaycanda və digər ölkələrdə keçirilən 21 beynəlxalq təlimdə iştirak ediblər.

Bu ilin döyüş hazırlığı planına müvafiq olaraq Azərbaycan Ordusunda hərbi qulluqçuların fərdi bacarıqlarının təkmilləşdirilməsi, eləcə də bölmələrin döyüş qabiliyyətinin daha da artırılması məqsədilə təlim və məşğələlər davam etdirilir.

Müdafiə Nazirliyi rəhbərliyinin iştirakı ilə Azərbaycan Ordusunun bütün birlik və birləşmələrində müxtəlif səviyyəli irimiqyaslı əməliyyat-taktiki təlimlərin keçirilməsi həm ordumuzun qüdrətini nümayiş etdirir, həm də döyüş qabiliyyətini, gücünü daha da artırır.

❖ ❖ ❖

Eyni zamanda dost və qardaş ölkələrlə imzalanmış sənədlərə əsasən birgə təlimlər də keçirilir. Bu cür təlimlərin keçirilməsi birgə fəaliyyətlərin planlaşdırılması və qarşılıqlı təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu təlimlərdə ssenariyə uyğun olaraq hərbçilər müxtəlif təlim döyüş tapşırıqlarını yerinə yetirirlər. Müasir döyüş üsullarından istifadə etməklə artilleriya, aviasiya və digər qoşun növlərinin hərbi əməliyyatlarda tətbiqi, çaylar üzərindən keçid açmaq məqsədilə panton körpülərin salınması, şərti düşmənin dərinliyinə desant endirilməsi üzrə müxtəlif tapşırıqlar icra olunur. Birgə təlimdə əsas diqqət qoşunların qarşılıqlı əlaqədə fəaliyyətlərinə, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılmasına yönəldilir.

Təsdiq olunmuş plana əsasən bu il iyun ayında Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə ölkəmizdə "Qafqaz Qartalı - 2024" birgə təlimi keçirilib. Təlimin planına uyğun olaraq, hərbçilər müxtəlif döyüş tapşırıqlarını icra ediblər. Belə ki, ərazinin qorunma xüsusiyyətləri və maskalanma vasitələrindən istifadə etməklə xüsusi təyinatlılar şərti düşmənin yerləşmə məntəqəsinə qəfil basqın icra ediblər. Düşmənin komanda-idarəetmə məntəqələri, rabitə mərkəzləri sıradan çıxarılıb, eləcə də canlı qüvvəsi zərərsizləşdirilib. Təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib. "Qafqaz Qartalı-2024" beynəlxalq təlimində Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi təyinatlıları qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməyi bacarıb, təlim dostluq, yoldaşlıq və qardaşlıq şəraitində keçirilib.

→ 5

## Kiçik və orta biznesin böyük məsuliyyəti

### Bu gün iqtisadiyyatın "yaşıl"laşması daha çox KOB-dan asılıdır

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar, iqlim dəyişmələri və artan tələbat bu gün "yaşıl iqtisadiyyat"ın inkişafının vacibliyini gündəmə gətirib. Çünki "yaşıl iqtisadiyyat"ın genişləndirilməsi, onun müasir tələblər səviyyəsində inkişafı istiqamətlərində həyata keçirilən tədbirlər böyük əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. "Yaşıl artım"a nail olmaq üçün Azərbaycanda ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Bu, o deməkdir ki, Azərbaycanın "yaşıl artım" ölkəsinə çevrilməsi yalnız arzu deyil, tezliklə həyata keçəcək reallıqdır.

COP29-un ən əsas mövzusu iqlimin maliyyələşdirilməsidir. Bu məsələdə özəl sektorun rolu danılmazdır və illər keçdikcə də həmin rol böyüyür. KOB sektorunda "yaşıl siyasət və strategiya"ların geniş tətbiqi üçün kifayət qədər potensialın olduğunu hər kəs bilir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov tədbirdə çıxış edərkən deyib: "KOB-ların "yaşıl transformasiya" sahəsində qarşılaşdığı problemlər universal xarakter daşıyır. Bu baxımdan, hazırkı tədbirin yaratdığı imkandan faydalanaraq qlobal təşəbbüs irəli sürmək istərdik. Bu təşəbbüs KOB-ların "yaşıl iqlim" keçidi üçün Bakı Koalisiya Bəyannaməsində əks olunub".

→ 7

## Qərbi azərbaycanlılar əzəli yurd yerlərinə qayıtmalıdırlar

Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımlarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatdırılmışdır. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə müstəsna olaraq ermənilər yaşayırlar.



Qərbi Azərbaycan İcması 1988-1991-ci illərdə indiki Ermənistandan qovulmuş 50 mindən çox ailənin yarıdan çoxuna dəymiş ziyanı hesablamış, hazırda bu işlər dəqiqliyi ilə davam etdirilir. İcma yerlərdə ictimaiyyət nümayəndələri ilə keçirilən görüşlərdə Ermənistandan zorla qovulmuş soydaşlarımızın hər bir ailə üzvü və sənədləri ilə maraqlanır, Qayıdış Konsepsiyasının qayda və tövsiyələri ilə onları tanış edirlər. İndiyədək həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130-dan çox kəndin siyahısı hazırlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması üzərində ciddi iş aparır. Dədə-baba yurdlarından didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək məsələsini qarşıya qoyan Qərbi Azərbaycan İcması o yerlərdəki tarixi mədəni abidələrin, məhəllələrin taleyi ilə maraqlanır, həm də vaxtilə elindən-obasından zorla köçürülmüş, deportasiyaya məruz qalmış ailələrin nümayəndələri ilə görüşür, tarixin gizli və qaranlıq səhifələrinə aydınlıq gətirir.

→ 9

## Meqalayihələr, üstəgəl 111 milyon dollarlıq sosial dəstək

Geniş sosial sərmayə proqramları insanlara əhəmiyyətli faydalar gətirir, onların həyatının daha da yaxşılaşdırılmasına dəstək verir. Sosial sərmayələr yerli potensialın yaradılması, təhsil və idmanın inkişafı, sahibkarlıq, ətraf mühit, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldilib.

Cari ilin birinci yarısında BP və əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları belə sosial investisiya proqramlarına Azərbaycanda təqribən 0,5 milyon dollar vəsait sərf ediblər. Söhbət hazırda davam edən 16 təhsil proqramı, yerli bacarıqların yaradılmasını və sahibkarlığın inkişafını dəstəkləyən üç layihə və ətraf mühit üzrə bir təşəbbüsdən gedir. Bundan əlavə, BP ayrıca bir şirkət kimi öz adından ölkəmizdə sponsorluq etdiyi sosial layihələrə ilin birinci yarısında 0,9 milyon dollardan artıq vəsait xərcləyib. 2023-cü ildə BP və tərəfdaşları birgə belə sosial investisiya layihələrinə Azərbaycanda 2 milyon dollardan artıq vəsait yönəldiblər.

→ 8

## 8-ci dəfə

### Pilotlar yarışa, bolidlər isə trekə hazırdırlar



Paytaxtımız Bakı sayca 8-ci dəfə möhtəşəm bir tədbirə - "Formula-1" Azərbaycan Qran-prisinə evsahibliyi edir. Sürətsevərlər planetin ən güclü 10 komandası və 21 pilotunun əzmkar mübarizəsinin şahidi olacaqlar. Yarışın keçiriləcəyi Bakı Şəhər Halqası bəzi xüsusiyyətlərinə görə digər "Formula-1" treklərindən seçilir. Şəhərin müasirliyi ilə tarixiliyini özündə birləşdirən Bakı Şəhər Halqası şəhər trekidir və digərləri ilə müqayisədə burada maksimal sürətin qeydə alınacağı gözlənilir.

→ 10

## Öz gözündə tiri görməyən Avropa İttifaqı

### Azərbaycan bundan sonra da Qərbin bəlli dairələrinin niyyətlərini ürəklərində qoyacaq



Azərbaycanın uğurları Qərbin yuxusunu çoxdan qaçırıb. Belə ki, nailiyyətlərimiz, inkişafımız həmişə Qərb dövlətlərinin və siyasi dairələrinin qısqanclığına səbəb olub. Hələ Vətən müharibəsinə qədər Qərbdə mənzillənmiş təşkilatların, o cümlədən qeyri-hökumət qurumlarının ölkəmizə qarşı məkrli fəaliyyətlərini izləmişik. Erməni lobbisinin, dünya erməniliyinin maraqlarına xidmət edən həmin təşkilatların işi-gücü ölkəmizə qarşı qarayaxma kampaniyasının aparılmasından ibarət olub. Onlar bu məqsədlə Azərbaycan üçün adi kağız parçası qədər dəyəri olmayan sənədlər qəbul etməkdən tutmuş qərəzli hesabatların hazırlanmasına, mətbuatda yazıların dərcinə qədər məkrli fəaliyyət həyata keçiriblər. Azərbaycana qarşı bu riyakarlıq xüsusən beynəlxalq tədbirlər ərəfəsində daha çox özünü göstərib.

Vətən müharibəsində ölkəmizin qələbəsini və torpaqlarımızın işğaldan azad olunmasını, o cümlədən ərazilərimizdə erməni separatizminə son qoyulmasını həzm edə bilməyən antiazərbaycançı şəbəkə öz məkrli fəaliyyətini hazırda yeni fazaya yüksəldib.

→ 6

## İrəvan sülh prosesini pozmaq üçün riyakarlıq edir

Azərbaycan tərəfinin sülhlə bağlı qərarlı mövqeyi bu istiqamətdə müəyyən irəliləyişlərin əldə olunmasına birbaşa imkan yaradır. Onu da qeyd edək ki, iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyası işinə start verilməsi, eyni zamanda bu ilin ilk aylarından etibarən bir neçə dəfə Ermənistan və Azərbaycan rəsmilərinin ikitərəfli danışıqlar aparması tezliklə sülh müqaviləsinin bağlanacağı ilə bağlı fikir formalaşdırmışdı. Amma Cənubi Qafqazda hadisələrin barış məcrasında inkişafı nə bölgədə gözləri olan qərəzli Qərb təsisatlarını, nə də Azərbaycana qarşı ərazi iddiası güdən Ermənistanı qane edir. Buna görə də əllərindən gələn hər cür çirkinliyi, riyakarlığı edirlər ki, sülhə mane olsunlar.

Regionda davamlı sülhə bu qədər yaxınlaşıldığı bir məqamda Ermənistan rəsmilərinin ortaya atdığı və heç bir hüquqi əsası olmayan absurd iddialarından biri də guya Azərbaycanın Konstitusiya aktında Ermənistana qarşı ərazi iddialarının olması ilə bağlıdır.

→ 6

# Azərbaycan ilə Əlcəzair arasında regional və qlobal məsələlər müzakirə olunub



Sentyabrın 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Zəkiyyə İğılı qəbul edib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, görüşdə Azərbaycan ilə Əlcəzair arasında mövcud əməkdaşlıq gündəliyinin inkişaf perspektivləri, habelə regional və qlobal məsələlər müzakirə olunub.

Ceyhun Bayramov təyinatı münasibətilə səfir Zəkiyyə İğılı ürəkdən təbrik edib, ona diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Cari ilin ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlamətdar olduğunu qeyd edən nazir bu illər ərzində əməkdaşlığımızın inkişafında qarşılıqlı səfərlərin, habelə intensiv siyasi dialoqun əhəmiyyətli rol oynadığını diqqətə çatdırıb. Bir sıra istiqamətlər, o cümlədən iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, humanitar və sair sahələr üzrə əməkdaşlığın inkişafı üçün perspektivlərin mövcud olduğu, bu xüsusda imkanların müzakirəsi istiqamətində siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlığın bundan sonra da davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Ceyhun Bayramov həmçinin qarşı tərəfi 44 günlük Vətən müharibəsindən sonra bölgədə mövcud vəziyyət, postmünaqişə dövrünün reallığı və çağırışları, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, o cümlədən Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh gündəliyi barədə ətraflı məlumatlandırıb. İstər keçmiş münaqişə, istərsə də postmünaqişə dövründə beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə ərazi bütövlüyü və suverenliyimizə göstərilən dəstəyə görə Əlcəzair tərəfinə təşəkkür edilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Heydər Əliyev Fondunun Vatikanda Müqəddəs Yubiley İlinə töhfəsi

Vatikan şəhəri dövləti üzrə qubernatorluq ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında (Basilica of Saint Paul Outside the Walls) bərpa işlərinə dair müqavilə imzalanıb.







Sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa imzalayıblar.

AZƏRTAC xəbər verir ki, Vatikana səfər çərçivəsində eyni zamanda Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa və bir sıra digər rəsmi şəxslər ilə görüş keçirilib.

Görüşdə Azərbaycanla Müqəddəs Taxt-Tac arasında əlaqələr, Heydər Əliyev Fondu ilə birgə layihələr müzakirə olunub.

Qeyd edək ki, ötən müddətdə Heydər Əliyev Fondu Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin bərpasına, mədəni irsin qorunması sahəsində işlərə öz töhfəsini verib.

Daha sonra Azərbaycan nümayəndə heyəti Müqəddəs Pavel Bazilikasını ziyarət edib.

Müqəddəs Pavel Bazilikası Vatikanın ən böyük abidələrindəndir və 1980-ci ildən UNESCO-nun Ümumdünya İrs Siyahısına daxildir. 2025-ci ildə Vatikanda hər 25 ildən bir təşkil olunan Müqəddəs Yubiley İli çərçivəsində 30 milyondan çox katolik zəvvarın bu kilsəni ziyarət etməsi gözlənilir. Bərpa işləri ilk növbədə 2025-ci ildə keçiriləcək Müqəddəs Yubiley İli zamanı ziyarətçilərin bu dini ocağa təhlükəsiz girişinin təmin edilməsi məqsədilə aparılır.

# Azərbaycanın və Lüksemburqun XİN rəhbərləri beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər





Sentyabrın 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Lüksemburq Böyük Hersoqluğunun xarici işlər və xarici ticarət naziri Xavier Bettel arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığında iki ölkə arasında əməkdaşlıq məsələləri, habelə regional və beynəlxalq təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Tərəflər Azərbaycan və Lüksemburq arasında mövcud münasibətlərin inkişafı, qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsində bu kimi təmasların əhəmiyyətli rolu olduğunu diqqətə çatdırıb.

Ceyhun Bayramov həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin gedişatı, hazırkı vəziyyəti barədə ətraflı məlumatlandırıb.

Ermənistan qanunvericiliyində ölkəmizə qarşı davam edən ərazi iddialarının, habelə bu ölkənin sürətli hərbiləşməsinin bölgədə dayanıqlı sülh quruculuğu prosesinə təhdid törədən əsas amillər olduğu vurğulanıb.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın və Türkiyənin məhkəmə orqanları arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yeni imkanlar mövcuddur

Ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Ali Məhkəməsinin sədri Ömər Kərkəzin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycan Ali Məhkəməsinin sədri görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, görüşdən əvvəl qonaqlar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri düzüb, əklil qoyub, Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ümummilli Liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları ziyarət olunub. Şəhidlərin məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Sonra qonaqlar Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr ediblər.

Daha sonra nümayəndə heyəti Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyub, şəhidlik kitabəsinin üstünə gül dəstələri düzüblər.

Türkiyə Ali Məhkəməsinin sədri Xatirə kitabına ürək sözlərini yazıb.

Ali Məhkəmədə keçirilən görüş zamanı sədr İnam Kərimov öncə Ömər Kərkəzi qardaş Türkiyənin Ali Məhkəməsinin sədri seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Xalqlarımızın qardaşlığı və həmrəyliyi sayəsində iki ölkə arasında bütün sahələrdə əlaqələrin yeni mərhələyə qədəm qoyduğu və daim inkişaf etdiyi vurğulanıb.

Bildirilib ki, hər iki ölkənin məhkəmə orqanları arasında da əməkdaşlığın daha da gücləndirilməsi üçün yeni imkanlar mövcuddur.

Görüşdə ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, həmçinin Azərbaycan Respublikası Ali Məhkəməsinin fəaliyyəti barədə geniş məlumat verilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Ömər Kərkəz iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını vurğulayaraq, əlaqələrin daha da möhkəmləndirilməsi üçün səylərin artırılmasının vacibliyini diqqətə çatdırıb.

Görüşdə hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirlər və məhkəmə-hüquq təcrübəsi ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Sonra qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olub, onun tarixini əks etdirən muzeyə baxıblar.

Görüşdə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı da iştirak edib.

# Baş prokuror Türkiyə Ali Məhkəməsinin sədri ilə görüşüb



Sentyabrın 11-də baş prokuror Kamran Əliyev ölkəmizə işgüzar səfərə gələn Türkiyə Ali Məhkəməsinin sədri Ömər Kərkəzin rəhbərlik etdiyi geniştərkibli nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan baş prokuror Ömər Kərkəzi qardaş ölkənin Ali Məhkəməsinin sədri vəzifəsinə seçilməyi münasibətilə təbrik edib.

Tarixən milli kökləro söykənən münasibətlərimizin bütün sahələrdə dinamik inkişaf etdiyi bildirilərək, hər iki dövlətin prezidentləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri və apardıqları uzaqgörən xarici siyasət nəticəsində əlaqələrimizin etibarlı strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyi qeyd edilib.

Kamran Əliyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqəti ilə Qarabağda aparılan geniş bərpa-quruculuq işlərinin aparıldığını, o cümlədən bu ilin iyun ayında Xankəndi Şəhər Prokurorluğunun təntənəli açılış mərasiminin keçirildiyini bildirərək, bu addımın işğaldan azad olunan ərazilərdə qanunçuluğun təminatına verilən önəmin göstəricisi olduğunu qeyd edib.

Baş prokuror bu ilin payızında ölkəmizin mötəbər beynəlxalq tədbirlərə, o cümlədən COP29 və Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransına evsahibliyi edəcəyini bildirib.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Ömər Kərkəz ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirərək qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da yüksələn xətlə davam edəcəyinə əminliyini ifadə edib.

Görüşdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı iştirak edib.

# XİN: Fransanın Azərbaycanın məhkəmə prosedurlarını heçə sayması qəbuledilməzdir

Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Fransa vətəndaşı Teo Klerkə qarşı guya ayrı-seçkilik edilərək onun barəsində məhkəmə tərəfindən "haqsız qərar verilməsi" barədə bəyanatı, özünü "hüquqi dövlət" adlandıran Fransanın bununla Azərbaycanın məhkəmə prosedurlarını heçə sayması qəbuledilməzdir. Fransa tərəfindən səsləndirilən iradların heç bir əsası yoxdur.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə məsələ ilə bağlı açıqlamasında bildirib. XİN rəsmisinin sözlərinə görə, dövlət əmlakına qəsdən ziyan vuran Fransa vətəndaşına, həmçinin digər şəxslərlə bağlı verilən hökm məhkəmənin səlahiyyətindədir və Fransa tərəfinin bu qərarı sual altına almağa ixtiyarı yoxdur. "Fransa vətəndaşı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin əmlakı qəsdən məhvetmə və ya zədələmə maddəsi ilə azadlıqdan məhrum olunub. Qeyd edək ki, bu kimi əməllərə görə Teo Klerk əvvəllər Fransada da cəzalandırılıb və ona cərimə tətbiq olunub. Ümumilikdə istintaqın və məhkəmənin gəldiyi qənaətə görə, Fransa vətəndaşı cinayətin törədilməsində xüsusi təşəbbüskarlığı və fəallığı ilə seçilib. Həmçinin məhkəmə istintaqı zamanı onun verdiyi ifadələrin işin obyektiv halları ilə uyğunluq təşkil etmədiyi də məlum olub. Eyni əmələ görə əvvəllər müəyyən məbləğdə cərimə edilsə də, Azərbaycan Respublikasında bu xarakterli əməllərin qeyri-qanuniliyindən məlumatsız olması ilə bağlı Teo Klerkin məhkəməyə verdiyi qeyri-səmimi ifadələri, o cümlədən törətdiyi əməldən peşman olmamasını onun digər iki şəxslə müqayisədə cəzasının daha ağır olması şərtləndirən amillər kimi sadalamaq mümkündür", - deyə o əlavə edib.

A.Hacızadə deyib ki, Azərbaycanda məhkəmə hakimiyyətinə və insan hüquqlarına dair iddia səsləndirən, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Fransanın beynəlxalq hüquq pozuntuları, neokolonial siyasəti, irqçilik, diskriminasiya, islamofobiya, insan hüquqlarının məhdudlaşdırılması kimi fəaliyyətləri hər kəsə məlumdur. Buna görə də Fransanın bu fəaliyyətindən dərs çıxarması daha faydalı olardı.

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

2024-cü il 1 sentyabr tarixində keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə partiyanın rəhbərliyini və bütün üzvlərini Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanın demokratik, hüquqi, müstəqil və firavan dövlətçiliyin inkişafı, ədalətli, azad və bərabərhüquqlu cəmiyyət quruculuğu hədəflərinə nail olmaq üçün səy göstərən Yeni Azərbaycan Partiyası son 30 ildə ölkənin siyasi sistemində mühüm aparıcı qüvvə olmuşdur. İnanırıq ki, Yeni Azərbaycan Partiyası bundan sonra da inkişaf edəcək, Azərbaycanın ictimai-siyasi həyatında öz rolunu və təsirini saxlayacaq, eyni zamanda ölkənin regionda və dünyada mövqeyinin və nüfuzunun daha da yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

Vyetnam Kommunist Partiyası Yeni Azərbaycan Partiyası ilə əlaqələrin inkişafına hər zaman önəm verir. Vyetnam ilə Azərbaycan arasında ənənəvi dostluq və çoxşaxəli əməkdaşlığın təşviqinə mühüm töhfə verən partiyalararası əlaqələr Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında 2023-cü ilin noyabrında imzalanmış əməkdaşlıq sazişi əsasında daim möhkəmlənir və inkişaf edir. Ümid edirik ki, partiyalarımız Vyetnam və Azərbaycan xalqlarının mənafeyi naminə əməkdaşlığı bundan sonra da gücləndirməkdə davam edəcəklər.

Fürsətdən istifadə edərək sizlərə möhkəm cansağlığı və şərəfli işinizdə uğurlar, Yeni Azərbaycan Partiyasına yeni nailiyyətlər, Azərbaycan xalqına xoşbəxtlik və rifah arzu edirəm.

*Hörmətlə,*

***Le Hoay ÇUNQ,***
***Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi Katibliyinin üzvü, Mərkəzi Komitənin Xarici əlaqələr şöbəsinin müdiri***

# Beynəlxalq konfransda Ermənistanın ərazilərimizdə həyata keçirdiyi mina terroru barədə məlumat verilib

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva İtaliyanın Latsio vilayətində keçirilən "Hüquqların təminatçısı kimi Ombudsmanın rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Konfransında iştirak edib.




AZƏRTAC xəbər verir ki, dünya ölkələrində heç bir ayrı-seçkilik olmadan insan hüquqlarına hörməti təşviq etmək məqsədilə keçirilən tədbirə 50-dən çox ölkənin ombudsman və milli insan hüquqları institutlarının rəhbərləri, həmçinin nümayəndələri qatılıblar.

Konfransda "Qlobal böhranlar zamanı insan hüquqları. Ombudsmanın rolu" adlı sessiyada çıxış edən ombudsman S.Əliyeva hazırda dünyanın həm insan hüquqlarına, həm də ətraf mühitə təsir göstərən mühüm qlobal problemlərlə üzləşdiyini bildirib.

İqlim dəyişikliyi kontekstində insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinin ombudsmanın, milli insan hüquqları institutlarının fəaliyyətində prioritet məsələlərdən birinə çevrildiyini bildirən S.Əliyeva Azərbaycanın Ombudsman təsisatı tərəfindən müvafiq sahədə çoxsaylı tədbirlərin təşkil olunduğunu diqqətə çatdırıb.

Torpaqlarımızın otuz ilə yaxın müddət ərzində Ermənistan tərəfindən işğala məruz qaldığını qeyd edən müvəkkil həmin ərazilərdə ətraf mühitə, bioloji müxtəlifliyə ziyan vurulduğunu, ekosidin törədildiyini bildirib.

Ermənistanın ərazilərimizdə həyata keçirdiyi mina terrorundan bəhs edən ombudsman həmin minaların vətəndaşların həyatına və sağlamlığına təhdid yaratdığını, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına təhlükəsiz qayıdışına, bölgədə aparılan bərpa-quruculuq işlərinə maneə törətdiyini vurğulayıb. Eyni zamanda qeyd edilib ki, mina partlayışları regionda ekoloji tarazlığın pozulması ilə də nəticələnir.

S.Əliyeva Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii sərvətlərdən daha səmərəli istifadə istiqamətində müxtəlif dövlət proqramlarının, strategiyaların və milli fəaliyyət planlarının həyata keçirildiyini diqqətə çatdırıb. Bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub.

Cari il ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyini xatırladan S.Əliyeva tədbirin yüksək səviyyədə təşkili istiqamətində hazırlıq işlərinin həyata keçirildiyini söyləyib.

# Bakıda mənzilə silahlı basqında və polis əməkdaşlarına müqavimət göstərməkdə təqsirləndirilən şəxs həbs olunub

Bakıda mənzilə silahlı basqında və polis əməkdaşlarına müqavimət göstərməkdə təqsirləndirilən şəxs həbs olunub. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin yaydığı birgə məlumatda bildirilib.

Belə ki, sentyabrın 9-da saat 21 radələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan Rauf İsmayılovun yaşadığı Bakı şəhərinin Binəqədi rayonunda yerləşən mənzilə naməlum şəxslər silahlı basqın edərək külli miqdarda pul tələb ediblər.

Zərərçəkmişin övladının mənzildə quraşdırılmış müşahidə kamerası vasitəsilə görüntüləri izləyərək "102 Xidməti - Zəng Mərkəzi"nə verdiyi məlumat əsasında hadisə yerinə gələn polis əməkdaşlarına silahlı müqavimət göstərilib, polis əməkdaşları tərəfindən görülən cavab tədbirləri ilə silahlı basqında iştirak edən şəxslərdən 1972-ci il təvəllüdlü, əvvəllər dəfələrlə məhkum olunmuş Eldəniz Şükürov zərərsizləşdirilməklə məhv edilib, digər şəxs isə hadisə yerindən yayınıb.

Hadisə ilə əlaqədar Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb.

Bildirilib ki, prokurorluq və polis əməkdaşlarından ibarət peşəkar istintaq-əməliyyat qrupu tərəfindən dindirmə, axtarış, baxış və sair təxirəsalınmaz istintaq hərəkətləri yerinə yetirilib, basqında istifadə olunan 1 ədəd "Makarov" markalı tapança, giliz, əl-barmaq izləri və sair predmetlər maddi sübut qismində götürülüb.

Həyata keçirilən intensiv istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin digər iştirakçısı, 1994-cü il təvəllüdlü Orxan Abdullayevin şəxsiyyəti müəyyənləşdirilib.

Orxan Abdullayevin külli miqdarda gəlir əldə etmək məqsədilə Eldəniz Şükürovla qabaqcadan əlbir olub sahibkar Rauf İsmayılovun yaşadığı mənzilə silahlı basqın edib külli miqdarda pul vəsaiti tələb olunmasında iştirak etməsinə, hadisə yerinə gələn polis əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq zor tətbiq etməklə onlara müqavimət göstərməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Orxan Abdullayev Cinayət Məcəlləsinin 181.3.2 (külli miqdarda əmlak əldə etmək məqsədilə quldurluq), 228.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah əldəetmə, saxlama, daşıma və ya gəzdirmə) və 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddələrində nəzərdə tutulan ittiham elan edilməklə təqsirləndirilən şəxs qismində cəlb edilib, müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə ibtidai istintaq davam etməklə, cinayətə aidiyyəti olan bütün şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunması istiqamətində kompleks istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# *COP29:* Azərbaycan, BƏƏ və Braziliyanın mədəniyyət nazirləri Sankt-Peterburqda görüşüblər

Sentyabrın 12-də COP28 Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), COP29 Azərbaycan və COP30 Braziliya sədrliklərinin mədəniyyət nazirləri Rusiyanın Sankt-Peterburq şəhərində üçtərəfli görüş keçiriblər.



Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, əsas məqsəd COP29 çərçivəsində keçiriləcək mədəniyyət nazirlərinin İkinci Yüksək Səviyyəli Görüşünün proqram və formatını müəyyən etmək olub. Görüşdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, BƏƏ-nin mədəniyyət naziri Səlim bin Xalid əl-Qassimi və Braziliyanın mədəniyyət naziri Marqaret Menezes iştirak ediblər.

Şarm Əl-Şeyxdə keçirilmiş COP27 tədbirindən bəri beynəlxalq gündəlikdə mədəniyyətin iqlim fəaliyyətindəki rolu aktuallıq qazanmağa başlayıb. Qeyd edək ki, ötən il Dubayda keçirilən COP28 tədbiri zamanı BƏƏ və Braziliya sədrlikləri ilə "Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Əmirliklər Bəyannaməsi" qəbul olunub. Bu çərçivədə 30-dan çox nazir və hökumət nümayəndəsini, həmçinin beynəlxalq təşkilatların rəhbər və nümayəndələrini bir araya gətirərək mədəniyyətin transformativ iqlim fəaliyyətindəki rolunu əhatə edən mədəniyyət nazirlərinin Birinci Yüksək Səviyyəli Görüşü keçirilib.

Azərbaycan da öz növbəsində bu məsələni hər zaman xüsusi diqqətdə saxlayıb və qlobal səviyyədə müzakirə olunması istiqamətində davamlı işlər aparmaqdadır. Mayın 1-dən 3-dək keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu zamanı dünyanın aparıcı iqlim və irs üzrə ekspertlərinin iştirakı ilə baş tutmuş xüsusi plenar sessiyanı buna nümunə kimi göstərmək olar.

Hər iki nazir Azərbaycan tərəfinə bu məsələləri daim diqqətdə saxladığına və beynəlxalq müstəvidə təbliğ etdiyinə görə təşəkkürlərini bildirib.

COP29 tədbirinin hazırlıq işləri ilə də tanış olan Braziliya və BƏƏ-nin mədəniyyət nazirləri hazırlıq işlərini yüksək qiymətləndirib, Bakıda keçiriləcək COP29-un ən yaddaqalan tədbir olacağına əmin olduqlarını ifadə ediblər.

Eyni zamanda görüş zamanı nazirlər COP29 çərçivəsində keçirilməsi nəzərdə tutulan əlavə tədbir, təşəbbüs, o cümlədən konsert və şou poqramlar barədə də fikir mübadiləsi aparıblar.

# *EPF Koalisiyası:* Ermənistanın qanunsuz dağ-mədən sənayesi fəaliyyəti Cənubi Qafqazın ekologiyasını zəhərləyir

Sentyabrın 12-də Bakıda "Environmental Protection First" (EPF) Koalisiyasının üzvləri Ermənistanın qanunsuz dağ-mədən sənayesi fəaliyyətinin Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın ekologiyasını zəhərləməsi ilə bağlı brifinq keçiriblər.



AZƏRTAC xəbər verir ki, brifinqdə çıxış edən EPF Koalisiyasının həmtəsisçisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov əvvəlcə koalisiyanın yaradılması məqsədlərindən söz açıb. Xatırladıb ki, EPF Koalisiyası 2023-cü ilin yayında ölkədə fəaliyyət göstərən dörd qeyri-hökumət təşkilatı tərəfindən təsis edilib. Koalisiya 2023-cü ilin iyun ayında Ermənistanın xarici investorların dəstəyi ilə Azərbaycanın tarixi torpaqları olan Arazdəyən ərazisində metallurgiya zavodunu tikmək barədə bəyanat verməsindən sonra yaradılıb.

"Buna etiraz əlaməti olaraq, Azərbaycanda ətraf mühit sahəsində fəaliyyət göstərən QHT-lər bəyanat və etirazlarını səsləndirdilər. Sonra bu məsələni ciddi nəzarətə götürdük və prosesi izləməyə başladıq. Bu məqsədlə də koalisiya yaratdıq. Daha sonra bu sahə üzrə ixtisaslaşmış müstəqil ekspertləri də prosesə cəlb etdik. Mütəmadi olaraq səsləndirdiyimiz etiraz bəyanatları nəticəsində zavodun tikintisinin dayandırılmasına qərar verildi", - deyən A.Məmmədov bildirib ki, 2023-cü ildə "Azərkosmos" tərəfindən Ermənistanın Azərbaycanla şərti sərhədində yerləşən 20-dən çox dağ-mədən sənayesi müəssisəsinin fəaliyyətinin kosmik təsvirləri təqdim edilib. Kosmik təsvirlərdə 1990-cı illərin sonlarından və son üç ilə yaxın müddətdə həmin ərazilərdəki dəyişiklik, torpaqların vizual təsviri əks olunurdu. Təsvirlərdən də görünürdü ki, dağ-mədən sahəsində fəaliyyət göstərən sənaye müəssisələrinin olduqları yerlərin ərazisi genişlənib. Həmçinin xəritələrdə torpaqların rənginin dəyişməsi, çirklənməsi müşahidə edilirdi. Bununla bağlı Azərbaycanda akkreditasiya olunmuş diplomatik nümayəndələrin iştirakı ilə geniş təqdimat keçirilib.

Onun sözlərinə görə, 2024-cü ilin əvvəlində Ermənistanda fəaliyyət göstərən bir neçə QHT tarixi torpağımızda - Amuldağ yatağı olan ərazidə yeni yataqların istismarı ilə bağlı Ermənistan hökumətinin qərarına etiraz edib. EPF Koalisiyası da Ermənistanda yatağın istismarına etiraz edən QHT-lərlə həmrəy olduğunu bildirib. Buna görə də həmin QHT-ləri Ermənistanda Azərbaycana casusluq etməkdə günahlandırıblar.

A.Məmmədov həmçinin əlavə edib ki, 2024-cü ilin mayında EPF Koalisiyasının üzvü olan Azərbaycan Kartoqraflar Cəmiyyəti erməni, ingilis və Azərbaycan dillərində hazırladığı Ermənistanın dağ-mədən sənayesi xəritəsini ictimaiyyətə təqdim edib: "Ermənistan Espo Konvensiyasının üzvüdür. Konvensiyaya qoşulan ölkələrin hər birinin transsərhəd kontekstində ətraf mühitin qiymətləndirilməsi ilə bağlı öhdəliyi var. Əgər bir ölkə qonşu dövlətin sərhədinə yaxın ərazidə sənaye və iqtisadi fəaliyyət həyata keçirərsə, bununla bağlı mütləq şəkildə həm öz ölkəsinin, həm də qonşu dövlətin ictimaiyyətinə və hökumətinə hesabat təqdim etməlidir. Lakin Ermənistan tərəfindən bizim bu çağırışlarımıza məhəl qoyulmur. Bütün fəaliyyətlərə və etirazlara baxmayaraq, Ermənistan hökuməti hələ də xarici investorların Ermənistan ərazisində dağ-mədən fəaliyyətlərinə yatırım etməsinə imkan yaradır və ətraf mühitə təsirin qiymətləndirilməsi hesabatlarının nə Ermənistan ictimaiyyətinə, nə də qonşu ölkələrə təqdim olunmasını tələb edir. Konvensiyanın tələbinə uyğun olaraq, Ermənistan azərbaycanlı ekspertlərin də bu ərazilərdə monitorinq keçirməsinə şərait yaratmalıdır. Biz öz şərti sərhəddə olan ərazimizdə həyata keçirilən fəaliyyətin əhalinin sağlamlığına necə təsir edib-etməyəcəyinin monitorinqini aparmalıyıq. Həmçinin müstəqil şirkət və ekspertlər tərəfindən hər hansı hesabat hazırlanarsa, onlar mütləq şəkildə Azərbaycana təqdim olunmalıdır".

Azərbaycan vətəndaş cəmiyyətləri tərəfindən fəaliyyətin gücləndirildiyini vurğulayan həmtəsisçi, bu məsələlərin bütün beynəlxalq tribunalarda qaldırıldığını da vurğulayıb.

"Ermənistanın Cənubi Qafqaz regionuna vurduğu zərərin miqyasını dünya ictimaiyyətinin diqqətinə çatdırırıq. Azərbaycan vətəndaş cəmiyyətlərinin nümayəndələri bu məsələdə geri çəkilmək niyyətində deyil və sonadək mübarizəmizi davam etdirəcəyik. Həmin şirkətlərin də hesabat yaymasını qəti şəkildə tələb edirik. Məlumdur ki, filizdən metal əldə edilməsi üçün müxtəlif kimyəvi maddələrdən, o cümlədən sianiddən istifadə olunur. Bu maddənin utiliziya olunub-olunmadığı barədə heç bir məlumat yoxdur. Həmin kimyəvi maddənin hara axıdıldığı məlum deyil. Bilirsiniz ki, axıntılar yeraltı su laylarını da çirkləndirir. Həmin yeraltı su layları transsərhəd ərazilərdə yaşayan Azərbaycan vətəndaşlarına artezian quyusundan, ümumiyyətlə, yeraltı sulardan istifadə etdikdə həyatları üçün risk yaradır. Həmçinin qeyd edim ki, Ermənistan minalar vasitəsilə də ərazilərimizə kifayət qədər zərbə vurub. Bu da köçkünlərin öz torpaqlarına vaxtında qayıtması imkanlarını məhdudlaşdırır. Ona görə də mina təhlükəsi neytrallaşdırılmalıdır", - deyə A.Məmmədov diqqətə çatdırıb.

Daha sonra çıxış edən Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun sədri Sabit Bağırov bildirib ki, onların məqsədi Ermənistanın dağ-mədən müəssisələrinin fəaliyyətini araşdırmaq və bu fəaliyyətin ətraf mühitə vurduğu ziyanları dəyərləndirməkdir.

S.Bağırov qeyd edib ki, Ermənistan Mədən Sənayesində Şəffaflıq Təşkilatının üzvüdür və iki ildən bir mədən sənayesinin fəaliyyətinə dair hesabatlar dərc olunur: "Ermənistanda 940-dan çox müxtəlif mədən fəaliyyət göstərir. Onlardan 46-sı ağır metal sənayesi ilə məşğuldur. Həmin 46 mədəndə 26 şirkət fəaliyyət göstərir. 26 şirkətdən 12-si Sünik bölgəsində işləyir. Qızıl, gümüş, mis, qurğuşun metallar orada istehsal olunur. Bu metalların hazırlanması zamanı zəhərli kimyəvi maddələrdən istifadə edilir, nəticədə bu metalların tullantıları xüsusi anbarlara axıdılır. Tullantılar yeraltı sulara, çaylara axıdılır ki, bu da çaylar üçün risklər yaradır. Həmin anbarlar mütəmadi şəkildə monitorinq edilməlidir. Tullantıların axıdılması nəticəsində iki əsas çay olan Bərgüşad və Oxçuçaya da böyük risklər yaranır. Oxçuçaya tullantıların axıdılması ilə bağlı faktları müşahidə etmişik".

Sonda çıxış edən EPF Koalisiyasının eksperti Leyla Əliyeva fəaliyyətinin Ermənistan qanunvericiliyinin beynəlxalq tələblərə nə dərəcədə cavab verdiyini araşdırmaqdan ibarət olduğunu vurğulayıb. Bildirib ki, bu məqsədlə də Ermənistanın ekologiya sahəsində 16 qanunvericilik aktı nəzərdən keçirilib: "Həmçinin müvafiq olaraq 14 beynəlxalq konvensiyaya nəzər salınıb. Bu qanunlar ətraf mühitin hər bir sahəsini əhatə edən qanunlardır. Son illər ərzində Ermənistan mövcud qanunvericiliyini beynəlxalq standartlara uyğunlaşdırmağa çalışır. Ancaq bununla belə qanunların icrası sahəsində çox böyük boşluqlar var. Bu boşluqlar da ekoloji cəhətdən böyük fəsadlara gətirib çıxara bilər. Ona görə də Ermənistanda mövcud qanunların effektiv icra və nəzarət mexanizmi gücləndirilməlidir. Lazım olarsa, qonşu ölkələrin ekspertləri də bu prosesdə iştirak etməlidirlər. Ermənistan həmçinin Transsərhəd Su Axınları Konvensiyasına qoşulmalıdır. Qonşu dövlətin bu konvensiyaya qoşulmaması da Azərbaycan üçün mənfi təsirlərə gətirib çıxarır".

Ekspert qeyd edib ki, Ermənistan Azərbaycanla ekoloji sahədə tam şəffaf və konstruktiv şəkildə əlaqə qurmalıdır. "Ermənistan Qarabağda meşə təsərrüfatına ziyan vurduğu kimi, öz ərazilərində də meşə təsərrüfatının qorunmasına diqqət etməli, uzunmüddətli planlar həyata keçirməlidir. Bundan əlavə, tullantıların idarə edilməsi sahəsində də Ermənistanda çox böyük boşluqlar mövcuddur", - deyə o əlavə edib.

# Vəzifəli şəxsin qərarına təsir göstərmək adı ilə vətəndaşdan pul almaqda təqsirləndirilən vəkil həbs edilib

Bakı şəhərində yerləşən "Kamandar Nəsibov və partnyorları" vəkil bürosunun vəkili Rzayev Babək Vahid oğlunun qanunsuz əməlləri barədə toplanmış materiallar əsasında Naxçıvan Muxtar Respublikası Prokurorluğunda cinayət işi başlanılıb.

AZƏRTAC Azərbaycan Respublikasının Baş Prokurorluğunun və Vəkillər Kollegiyasının birgə məlumatına əsasən xəbər verir ki, istintaq tədbirləri ilə vəkil Babək Rzayevin muxtar respublikada müvafiq məhkəmənin icraatında olan cinayət işi üzrə özünün həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək müvafiq vəzifəli şəxsin qərarına təsir etmək imkanına malik olmasını vətəndaşlara bildirməklə 2024-cü ilin iyun ayı ərzində müxtəlif məbləğlərdə müqavilədən kənar pul vəsaitini tələb edib almasına əsaslı şübhələr əldə edilib. İş üzrə toplanmış sübutlar əsasında Babək Rzayev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə - nüfuz alveri) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində müstəntiqin vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Həmçinin Vəkillər Kollegiyası tərəfindən vəkil barəsində qanunvericilikdə nəzərdə tutulmuş qaydada araşdırma aparılır və onun davranışına hüquqi qiymət veriləcək.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətin törədilməsində hər hansı şəkildə iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



**Sentyabrın 12-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb.

Maraqlı subyektlərin də qatıldıqları iclasda əvvəlcə müraciətlərlə bağlı ərizəçilərin özlərinin bilavasitə iştirakı ilə aparılan hərtərəfli, obyektiv və şəffaf araşdırma prosesi barədə ətraflı məlumat verilib.

Ardınca komissiya üzvlərinin geniş müzakirəsinin nəticəsi olaraq, vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin edilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada, operativ şəkildə baxılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Mərkəzi Seçki Komissiyasının iclasında həmçinin cari məsələlərə baxılıb.

## QƏRAR № 41/203

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 sentyabr 2024-cü il tarixli 68 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 33 saylı Xətai birinci seçki dairəsi üzrə Respublikaçı Alternativ (Real) Partiyasından qeydə alınmış namizəd Cəfərov Natiq Mehman oğlu 2024-cü il sentyabrın 9-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 37/123 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini, dairə seçki komissiyasına verdiyi şikayətdə göstərilən pozuntulara əsasən seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız sayılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Ərizəçi araşdırmada özü və ya səlahiyyətli nümayəndəsinin iştirak edəcəyini bildirsə də, araşdırmaya gəlməmişlər. Şikayətçinin komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Namizəd tərəfindən dairə seçki komissiyasına təqdim olunmuş müraciətdə, əsasən seçki məntəqələrində səsvermə günü müşahidəçilərin səsvermə prosesini, barmaqların görünməyən mürəkkəblə işarələnməməsini, səsvermə bülleteninin seçicilər tərəfindən seçki qutusuna atılmasını normal izləyə bilməmələri, seçki dairəsinin 11, 18, 23 və 37 saylı seçki məntəqələrində məntəqə seçki komissiyasının yekun protokolunun müşahidəçilərə imzalanmadan və möhür vurulmadan verilməsi, 10 saylı seçki məntəqəsində 17 yaşlı şəxsin səs verməsi, 21 saylı seçki məntəqəsində seçki qutusuna birdən artıq səsvermə bülleteninin atıldığı, bülletenlərin sol küncünün əvvəlcədən kəsilmiş olduğu, 24 saylı seçki məntəqəsində iki seçicinin birlikdə səsvermə kabinəsinə daxil olması, həmçinin bir seçicinin şəxsiyyət vəsiqəsi olmadan səsvermədə iştirak etməsi, 26 saylı seçki məntəqəsində iki nəfərin iki dəfə səs verməsi, 20 və 38 saylı seçki məntəqələrində səsvermədə iştirak edən seçicilərin statistikasında fərqlərin olduğu göstərilmişdir.

Araşdırmanın nəticəsi olaraq dairə seçki komissiyasının hazırda namizəd tərəfindən mübahisələndirilən 7 sentyabr 2024-cü il tarixli 37/123 nömrəli qərarı ilə müraciət əsassız olduğundan təmin edilməmişdir.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, səsvermə günü 33 saylı Xətai birinci seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia olunan qanun pozuntuları ilə bağlı namizəd tərəfindən seçki dairəsinin 40 seçki məntəqəsində qanun pozuntularının olduğunu göstərsə də, yalnız 7 seçki məntəqəsi üzrə seçki günü tərtib edilən aktlar təqdim edilmişdir. Araşdırma prosesində müəyyən edilmişdir ki, 1 sentyabr 2024-cü ildə səsvermə başlandığı andan başa çatanadək, həmçinin səslər sayılarkən və məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolu tərtib edilərkən məntəqə seçki komissiyalarına və dairə seçki komissiyasına namizəd və ya namizədi irəli sürmüş partiyanın təyin etdiyi müşahidəçilər tərəfindən seçki hüquqlarının pozulması ilə bağlı heç bir yazılı müraciət edilməmişdir.

Müraciətin araşdırılması ilə bağlı dairə seçki komissiyasından araşdırma materialları alınaraq təkrar araşdırılmış və müəyyən edilmişdir ki, dairə seçki komissiyası tərəfindən seçki günü pozuntuların baş verməsi iddia edilən məntəqə seçki komissiyalarında müşahidə aparmış müxtəlif siyasi partiyaları təmsil edən və ya öz təşəbbüsü ilə qeydiyyatdan keçmiş müşahidəçilərdən alınmış izahatlardan və həmin müşahidəçilər tərəfindən tərtib edilmiş aktlara əsasən iddia edilən pozuntuların baş verməsi öz təsdiqini tapmamışdır. Əksinə, seçicilərin sərbəst şəkildə öz iradələrini ifadə edərək səsvermədə iştirak etdikləri, bütün seçki subyektlərinə, o cümlədən müşahidəçilərə lazımi şərait yaradıldığı müəyyən edilmişdir. Belə ki, seçki günü seçki dairəsi ərazisində müşahidə aparmış müxtəlif siyasi maraqları təmsil edən müşahidəçilər, Ş.İ.Əhmədov, C.R.Kərimov, K.Ə.Mayılov, E.E.Sadıxov (ADP), M.A.Allahverdiyev, M.N.Əliyev, P.Ə.Əliyev, H.Ə.Haşımov (Ağ Partiyası), Ş.E.Dostiyev, Ş.Ə.Əzimova, M.N.Manafov (AVP), T.D.Dəmirova, F.N.Ağazadə, X.Ə.Əhmədova (MCP), E.M.Əmiraslanov, N.B.Bayramov (VHP), həmçinin 10 saylı seçki məntəqəsində müşahidəçi kimi iştirak etmiş 24 müşahidəçi, 11 saylı seçki məntəqəsində 17 müşahidəçi, 18 saylı seçki məntəqəsində 8 müşahidəçi, 20 saylı seçki məntəqəsində 13 müşahidəçi, 21 saylı seçki məntəqəsində 16 müşahidəçi, 23 saylı seçki məntəqəsində 14 müşahidəçi, 24 saylı seçki məntəqəsində 17 müşahidəçi, 26 saylı seçki məntəqəsində 14 müşahidəçi, 37 saylı seçki məntəqəsində 13 müşahidəçinin seçki günü tərtib etdikləri aktlarda səsvermə prosesinin qanunauyğun və şəffaf keçdiyi, səslərin sayılması və protokolların tərtib edilməsinin Seçki Məcəlləsinin tələblərinə uyğun həyata keçirildiyi, səsvermənin nəticələrinə dair protokolun surətini hər hansı maneə olmadan aldıqlarını öz imzaları ilə təsdiq etmişlər.

Şikayətçi tərəfindən araşdırmaya təqdim olunmuş 5 seçki məntəqəsi üzrə 10 video görüntüyə baxış keçirilmiş və həmin video görüntülərdə pozuntu halları müşahidə olunmamışdır. Seçki dairəsinin 1 saylı, 24 saylı və 25 saylı seçki məntəqələrində səsvermə kabinəsindan iki şəxsin çıxmasını əks etdirən video görüntü ilə bağlı qeyd edilməsi zəruridir ki, dairə seçki komissiyasının qərarında da qeyd edildiyi kimi, həmin halda Seçki Məcəlləsinin 104.9-cu maddəsinin tələbinə uyğun olaraq seçki bülletenini müstəqil yazıb doldurmaq imkanı olmayan seçicinin müraciəti əsasında ona kömək etmək üçün dəvət edilmiş şəxsin soyadı və adı seçici siyahısında qeyd edilməklə ehtiyacı olan seçiciyə kömək göstərilmişdir. Həmin video görüntülərdə səsvermə kabinəsindən çıxan seçicinin seçki qutusuna yaxınlaşaraq bir ədəd bülleteni qutuya atdığı müşahidə olunur.

Yuxarıda göstərilənlərə əsasən dairə seçki komissiyası tərəfindən şikayətlə bağlı aparılmış araşdırmanın nəticələrinə məcmu halda qiymət veriləərək, təkrar araşdırma ilə namizəd N.Cəfərovun müraciəti üzrə dairə seçki komissiyasının düzgün nəticəyə gəldiyi müəyyən edilir.

Beləliklə, araşdırma ilə namizəd N.Cəfərovun müraciətinin təmin edilməsi üçün hüquqi əsaslar olmadığından müraciət təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci və 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 33 saylı Xətai birinci seçki dairəsi üzrə Respublikaçı Alternativ (Real) Partiyasından qeydə alınmış namizəd Cəfərov Natiq Mehman oğlunun 9 sentyabr 2024-cü il tarixli 68 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin seçki dairəsi dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 37/123 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*12.09.2024*

## QƏRAR № 41/204

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 sentyabr 2024-cü il tarixli 87 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 90 saylı Ağsu seçki dairəsi üzrə qeydə alınmış namizəd Bədəlov Zabit Mübariz oğlu 2024-cü il sentyabrın 12-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi üzrə bəzi seçki məntəqələrində pozuntuların baş verdiyini iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 90 saylı Ağsu seçki dairəsi üzrə qeydə alınmış namizəd Bədəlov Zabit Mübariz oğlunun 2024-cü il 12 sentyabr tarixli 87 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*12.09.2024*

## QƏRAR № 41/205

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 sentyabr 2024-cü il tarixli 65 saylı müraciətinə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə Müsavat Partiyasından qeydə alınmış namizəd Bulud Ərzulla Əşrəf oğlu 9 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 22/80 saylı Qərarını mübahisələndirmiş, seçki dairəsinin bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Müraciət etmiş deputatlığa qeydə alınmış namizəd Ə.Ə.Bulud müraciətində səsvermə günü 31 saylı Suraxanı ikinci seçki dairəsinin 4, 5, 6, 7, 9, 12, 32 və 38 saylı seçki məntəqələrində səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verildiyini, adları seçici siyahılarında olmayan seçicilərin səs verməsini, bir şəxsin bir neçə dəfə səs verməsinə şəraitin yaradılmasını, seçki bülletenlərinin topa şəkildə seçki qutularına atıldığını, mübahisələndirilən qərarın əsaslandırılmadığını iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişdir. Ərizəçi müraciətə mübahisələndirilən seçki məntəqələri üzrə 13 akt və elektron məlumat daşıyıcısı əlavə etmişdir.

İddia edilən pozuntularla əlaqədar olaraq namizəd Ə.Ə.Buludun şikayəti 31 saylı Suraxanı ikinci seçki dairəsinin dairə seçki komissiyası tərəfindən araşdırılmış, dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 22/80 saylı Qərarı ilə müraciət əsassız hesab ediləərək təmin olunmamışdır.

Ərizəçinin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirak etmək huququ izah olunmuş, onun araşdırmada iştirakı təmin edilmiş, ərizəçi komissiyanın iclasında iştirakdan imtina etmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Ə.Ə.Buludun müraciətinin təkrar araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia olunan qanun pozuntuları ilə əlaqədar sosial şəbəkələrdə yerləşdirilmiş görüntülər və namizəd tərəfindən təqdim olunmuş digər materialları da əhatə etmişdir.

Mərkəzi Seçki Komissiyasında şikayətçi, Müsavat Partiyasından qeydə alınmış namizəd Ə.Ə.Buludun iştirakı ilə aparılmış tam, hərtərəfli, obyektiv araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınmış digər namizəd tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır. Təqdim edilmiş video görüntülərin araşdırılması zamanı seçki məntəqələrində seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edilməmişdir.

Araşdırma prosesində müəyyən edilmişdir ki, namizəd Ə.Ə.Buludun səsvermə günü baş verdiyi iddia edilən qanun pozuntuları ilə əlaqədar müraciətinə dairə seçki komissiyası qanunla nəzərdə tutulmuş qaydada və müddətdə baxmış, o cümlədən maddi və prosesual hüquq normalarını düzgün tətbiq etməklə əsaslandırılmış qərar qəbul etmişdir.

Qeyd edilənlər əsas götürülərək, ərizəçinin müraciəti əsassız olduğundan təmin edilməməli və dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 22/80 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə Müsavat Partiyasından qeydə alınmış namizəd Bulud Ərzulla Əşrəf oğlunun 9 sentyabr 2024-cü il tarixli 65 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 22/80 saylı Qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*12.09.2024*

## QƏRAR № 41/206

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 85 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 42 saylı Sumqayıt birinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Mayılova Şəfəq Nofəl qızı və Quliyeva Ulduz İsmixan qızı 2024-cü il sentyabrın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək, səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, dairə seçki komissiyasının 6 sentyabr 2024-cü il tarixli 31/98 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 42 saylı Sumqayıt birinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Mayılova Şəfəq Nofəl qızı və Quliyeva Ulduz İsmixan qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 85 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxslərə geri göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*12.09.2024*

# Qafqazın ən güclüsü

## Birgə hərbi təlimlər ordumuzun döyüş qabiliyyətini daha da yüksəldir

**Qafqazda ən güclü orduya malik ölkə olan Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra da Silahlı Qüvvələrinin yüksək modernləşməsi istiqamətində mühüm addımlar atır. Bəşər tarixində ilk "smart müharibə" aparan dövlət kimi dünya hərb salnaməsinə adını yazdıran Azərbaycan bu gün də Silahlı Qüvvələrinin gücünə güc qatmaqdadır.**



Müharibədən keçən 4 il ərzində aparılan islahatlar və yeni silahlı birləşmələrin yaradılması, silahlar və müasir texnika ilə təchizat, ən nəhayət, hərbi təlimlər döyüş qabiliyyətini daha da yüksəldir.

Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. Planlı və ardıcıl şəkildə görülmüş işlər Silahlı Qüvələrimizi dünyanın ən güclü 50 ordusu sırasına yüksəldib.

### Modernləşmə çox vacib şərtlərdən biridir

Ümumiyyətlə, peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir. Bunun üçün uzun illər, bəzən onilliklər tələb olunur. Zamanın reallıqları təsdiq edir ki, modernləşmə çox vacib şərtlərdən biridir.

Vətən savaşında böyük döyüş təcrübəsi toplayan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində bu gün mühüm işlər görülür.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi islahatlar onu deməyə əsas verir ki, bu gün Silahlı Qüvvələrimiz vahid proqram əsasında inkişaf etdirilir. Prezidentin söylədiyi kimi, görülən işlərə, aparılan islahatların real nəticəsinə əsasən deyə bilərik ki, hazırda Azərbaycan Silahlı Qüvvələri müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş ordumuzdan daha da güclüdür. Yəni Cənubi Qafqazda ən güclü ordu Azərbaycana məxsusdur.

Hazırda Azərbaycan Ordusunun şəxsi heyətinin peşəkarlığının daha da artırılması üçün müxtəlif tədbirlər planı əsasında hərbçilərimiz daxildə və xaricdə təşkil olunan təlimlərə qatılırlar.

Ötən il Azərbaycan Ordusunda 143 taktiki-xüsusi, 261 taktiki, 8 taktiki uçuş, 7 gəmi-döyüş, 4 komanda-qərargah səfərbərlik təlimi, komando başlanğıc və snayper hazırlığı kursları keçirilib. Eləcə də hərbi qulluqçularımız Azərbaycanda və digər ölkələrdə keçirilən 21 beynəlxalq təlimdə iştirak ediblər.

Bu ilin döyüş hazırlığı planına müvafiq olaraq Azərbaycan Ordusunda hərbi qulluqçuların fərdi bacarıqlarının təkmilləşdirilməsi, eləcə də bölmələrin döyüş qabiliyyətinin daha da artırılması məqsədilə təlim və məşğələlər davam etdirilir.

Müdafiə Nazirliyi rəhbərliyinin iştirakı ilə Azərbaycan Ordusunun bütün birlik və birləşmələrində müxtəlif səviyyəli irimiqyaslı əməliyyat-taktiki təlimlərin keçirilməsi həm ordumuzun qüdrətini nümayiş etdirir, həm də döyüş qabiliyyətini, gücünü daha da artırır.
















### Təlimlər ordunun gücünə güc qatır

Bu gün Azərbaycan Ordusu Qafqazda ən müasir ordu hesab olunur. MDB çərçivəsində Azərbaycan ən güclü hava hücumundan müdafiə qüvvələrinə malik ölkələrdən sayılır.

Eyni zamanda dost və qardaş ölkələrlə imzalanmış sənədlərə əsasən, birgə təlimlər də keçirilir. Bu cür təlimlərin keçirilməsi birgə fəaliyyətlərin planlaşdırılması və qarşılıqlı təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu təlimlərdə ssenariyə uyğun olaraq hərbçilər müxtəlif təlim döyüş tapşırıqlarını yerinə yetirirlər. Müasir döyüş üsullarından istifadə etməklə artilleriya, aviasiya və digər qoşun növlərinin hərbi əməliyyatlarda tətbiqi, çaylar üzərindən keçid açmaq məqsədilə panton körpülərin salınması, şərti düşmənin dərinliyinə desant endirilməsi üzrə müxtəlif tapşırıqlar icra olunur. Birgə təlimdə əsas diqqət qoşunların qarşılıqlı əlaqədə fəaliyyətlərinə, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılmasına yönəldilir.

Təsdiq olunmuş plana əsasən bu il iyun ayında Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə ölkəmizdə "Qafqaz Qartalı - 2024" birgə təlimi keçirilib. Təlimin planına uyğun olaraq, hərbçilər müxtəlif döyüş tapşırıqlarını icra ediblər. Belə ki, ərazinin qorunma xüsusiyyətləri və maskalanma vasitələrindən istifadə etməklə xüsusi təyinatlılar şərti düşmənin yerləşmə məntəqəsinə qəfil basqın icra ediblər. Düşmənin komanda-idarəetmə məntəqələri, rabitə mərkəzləri sıradan çıxarılıb, eləcə də canlı qüvvəsi zərərsizləşdirilib. Təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib. "Qafqaz Qartalı-2024" beynəlxalq təlimində Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi təyinatlıları qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməyi bacarıb, təlim dostluq, yoldaşlıq və qardaşlıq şəraitində keçirilib.

Sentyabrın 10-da isə Qazaxıstanın Türküstan vilayətində yerləşən Orda poliqonunda "Sonsuz qardaşlıq - III" çoxmillətli birgə xüsusi təyinatlı qüvvələr təliminin təntənəli açılış mərasimi keçirilib. Azərbaycan, Qazaxıstan, Türkiyə, Pakistan, Qətər və Özbəkistan xüsusi təyinatlılarının iştirakı ilə keçirilən təlimə İordaniya və Qırğızıstan müşahidəçi qismində dəvət olunub. Təlimlərin keçirilməsində məqsəd idarəetmə orqanlarının və bölmələrin fəaliyyətində operativ uzlaşmanın təmin olunması, şəxsi heyətin praktiki vərdişlərinin artırılması, qarşılıqlı təcrübə mübadiləsi və peşə vərdişlərinin təkmilləşdirilməsidir. Plana uyğun olaraq xüsusi təyinatlı bölmələrlə taktika, atəş, dağ-paraşüt, snayper hazırlığı üzrə məşqlər keçiriləcək. Təlimin yekununda xüsusi təyinatlı bölmələr yaşayış məntəqəsində qeyri-qanuni silahlı dəstənin aşkar edilməsi və zərərsizləşdirilməsi üzrə təlim-döyüş əməliyyatı tapşırıqlarını yerinə yetirəcəklər.

Zirehli texnika, ordu aviasiyası və PUA-ların cəlb edildiyi "Sonsuz qardaşlıq- III" çoxmillətli birgə təlimində 6 ölkənin 300-dək xüsusi təyinatlı hərbi qulluqçusu iştirak edir. Təlimlər sentyabrın 19-dək davam edəcək.

Göründüyü kimi, ordunun güclənməsində xüsusi diqqət yetirilən məsələlərdən biri də müxtəlif miqyaslı hərbi təlimlərin müntəzəm keçirilməsidir. Diqqət cəlb edən məqam ondan ibarətdir ki, ehtiyatda olan hərbi mükəlləfiyyətlilər də təlimlərə cəlb edilir və onların hərbi ixtisaslarına uyğun təkmilləşdirilməsi həyata keçirilir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın müdafiə naziri Türkiyənin yeni hərbi attaşesi ilə görüşüb

Türkiyə Respublikasının ölkəmizdə yeni təyin edilən hərbi attaşesi general-mayor Gaffar Gören müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim olunub.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müdafiə naziri türkiyəli qonağı ölkəmizdə fəaliyyətə başlaması münasibətilə təbrik edib.

General-polkovnik Z.Həsənov iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlığa da müstəsna təsirini xüsusi vurğulayıb. Azərbaycan-Türkiyə əlaqələrinin dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslandığını bildirib. O, türkiyəli hərbi attaşeyə Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

General-mayor G.Gören isə öz növbəsində Azərbaycanda hərbi attaşe kimi fəaliyyətə başlamasından məmnunluğunu ifadə edib. Ölkələrimiz arasında hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi naminə səylərini əsirgəməyəcəyini bildirib. Ölkəmizdə hərbi attaşelik fəaliyyətini başa vuran general-mayor Soner Oruçoğlunun da iştirak etdiyi görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın yeni perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

# "Sonsuz qardaşlıq - III"

## Xüsusi təyinatlılar praktiki məşqləri yerinə yetirirlər

Qazaxıstanın Türküstan vilayətində yerləşən Orda poliqonunda keçirilən "Sonsuz qardaşlıq - III" çoxmillətli təlimi davam edir. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən "Azərbaycan"a bildirilib ki, Azərbaycan, Qazaxıstan, Türkiyə, Pakistan, Qətər və Özbəkistan xüsusi təyinatlıları poliqonda yaradılmış təlim nöqtələrində taktika, atəş, snayper, dağ və paraşüt hazırlığı üzrə praktiki məşqləri yerinə yetirirlər.







Çoxmillətli qruplar halında keçirilən döyüş hazırlığı məşğələləri iştirakçı ölkələrin hərbi qulluqçularının təcrübəsindən bəhrələnməyə və onların tətbiq etdiyi forma və metodları mənimsəməyə imkan yaradır.

Təlimin növbəti mərhələsində iştirakçı bölmələrin qarşısında yaşayış məntəqəsindəki qeyri-qanuni silahlı dəstənin aşkar edilməsi və zərərsizləşdirilməsi üzrə təlim-döyüş tapşırığı qoyulub.

Real döyüş şəraitinə uyğunlaşdırılmış təlimdə xüsusi təyinatlılar tapşırıqların icrası zamanı yüksək peşəkarlıq nümayiş etdiriblər.

Bu cür təlimlər bölgələrdə sülhün və təhlükəsizliyin təmin olunması məqsədilə səylərin birləşdirilməsinə xidmət edir və şəxsi heyətin qarşılıqlı əlaqədə qarşıya qoyulmuş tapşırıqların uğurlu icrasına böyük töhfə verir.

*"Azərbaycan"*

# Hərbi Prokurorluğun və Müdafiə Nazirliyinin birgə keçirdiyi maarifləndirmə tədbirləri davam edir



Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçuları N saylı hərbi hissənin şəxsi heyətinin hüquqi maarifləndirilməsi istiqamətində birgə tədbir keçirib.

Hərbi Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri birdəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Azərbaycan Respublikası hərbi prokurorunun böyük köməkçiləri, baş ədliyyə müşaviri Firad Əliyev, ədliyyə müşaviri İsmayıl Əliyev, Tərtər hərbi prokuroru, ədliyyə polkovniki Emin Vəliyev, eləcə də digər şəxslər hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar ediblər. Ardınca şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Öz gözündə tiri görməyən Avropa İttifaqı

### Azərbaycan bundan sonra da Qərbin bəlli dairələrinin niyyətlərini ürəklərində qoyacaq

**Avropa İttifaqı (Aİ) Avropa Şurası Nazirlər Komitəsinin 11 sentyabr tarixli iclası zamanı İşgəncənin və Qeyri-insani yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Komitənin 3 iyul tarixli ictimai bəyanatına istinad edərək Azərbaycanla bağlı qərəzli çıxış edib. Aİ-nın bu addımı COP29 ərəfəsində olan respublikamıza qarşı Qərbin qarayaxma kampaniyasının tərkib hissəsidir.**



#### Ölkəmizin uğurları Qərbin yuxusunu qaçırıb

Əslində, Azərbaycanın uğurları Qərbin yuxusunu çoxdan qaçırıb. Belə ki, nailiyyətlərimiz, inkişafımız həmişə Qərb dövlətlərinin və siyasi dairələrinin qısqanclığına səbəb olub. Hələ Vətən müharibəsinə qədər Qərbdə mənzillənmiş təşkilatların, o cümlədən qeyri-hökumət qurumlarının ölkəmizə qarşı məkrli fəaliyyətlərini izləmişik. Erməni lobbisinin, dünya erməniliyinin maraqlarına xidmət edən həmin təşkilatların işi-gücü ölkəmizə qarşı qarayaxma kampaniyasının aparılmasından ibarət olub. Onlar bu məqsədlə Azərbaycan üçün adi kağız parçası qədər dəyəri olmayan sənədlər qəbul etməkdən tutmuş qərəzli hesabatların hazırlanmasına, mətbuatda yazıların dərcinə qədər məkrli fəaliyyət həyata keçiriblər. Azərbaycana qarşı bu riyakarlıq xüsusən beynəlxalq tədbirlər ərəfəsində daha çox özünü göstərib.

Vətən müharibəsində ölkəmizin qələbəsini və torpaqlarımızın işğaldan azad olunmasını, o cümlədən ərazilərimizdə erməni separatizminə son qoyulmasını həzm edə bilməyən antiazərbaycançı şəbəkə öz məkrli fəaliyyətini hazırda yeni fazaya yüksəldib. Yenə də ölkəmizə qarşı çirkin kampaniyalar aparır, "qara piar"la məşğul olur, Azərbaycanın demokratik imicinə zərbə vurmaq niyyəti ilə obyektivlikdən uzaq fikirlər səsləndirir, qərəzli çıxışlar edirlər. Aİ-nın Azərbaycanla bağlı qərəzli çıxışı da bu qəbildəndir.

#### Aİ Fransada baş verənlərə hələ də münasibət bildirməyib

Azərbaycan Xarici İşlər Nazirliyindən məsələ ilə bağlı medianın sualına cavab olaraq bildirilib ki, Avropa İttifaqının bu ictimai bəyanata istinadən qərəzli açıqlamalar verməsi qəbuledilməzdir və bu qarayaxma kampaniyasını qətiyyətlə rədd edirik. "Ölkəmizə qarşı bu kimi əsassız bəyanatlarla çıxış etmək əvəzinə qarşı tərəfin Aİ üzv dövlətlərində insan hüquqlarının pozulması hallarına diqqət yetirməsini tövsiyə edirik. Aİ tərəfi Fransada "sarı gödəkçələr" aksiyasında etirazçıların öldürülməsi, Fransanın neokolonial siyasəti nəticəsində dənizaşırı ərazilərdə yerli əhaliyə qarşı işgəncələr, Aİ strukturlarında rüşvətxorluq və korrupsiya hallarının yayılması, islamofobiya və müsəlmanlara qarşı hücum faktlarını hələ də araşdırmayıb və bu problemlərə adekvat münasibət bildirməyib", - deyə cavabda qeyd olunub.

Aİ ölkələrində insan hüquqlarının pozulmasına dair kifayət qədər problemlərin olduğu, dinc nümayişçilərin polisin qəddar zorakılığı ilə üzləşməsi, insanların üzərinə itlərin saldırılması, onların həbsə atılması bütün dünyaya məlumdur. Məsələnin digər diqqətçəkən tərəfi isə odur ki, Aİ ölkələrində baş verən bu cür hadisələrlə bağlı nə hüquq müdafiəçiləri danışır, nə də hakimiyyət dairələri. Guya demokratiya yolunda olduqlarını iddia edən Aİ ölkələrində islamofobiyanın, antisemitizmin qarşısının alınması üçün də praktik olaraq heç bir addım atılmır. Avropada insan hüquqlarına hörmətin hansı səviyyədə olduğunu bu qitədə dərinləşən islamofobiyadan, ayrı-seçkilikdən, miqrantların başlarına açılan oyunlardan da görmək olar. Miqrantların hüquqlarının pozulması öz gözündə tiri görməyən Avropa İttifaqının reallıqlarıdır.

#### İkili standartların bariz nümunəsi

Avropada insan hüquqlarının pozulması ilə bağlı Aİ tərəfindən heç vaxt narahatlıq ifadə olunmayıb. Fransa isə yalnız öz ərazilərində deyil, müstəmləkə altında saxladığı ərazilərdə də insan hüquqlarını kobud şəkildə pozmaqdadır. Yeni Kaledoniyada, Maohi Nuidə (Fransız Polineziyası) Melaneziya, Korsikada xalqların müstəqil yaşamaq və digər bu qəbildən olan hüquqları tapdalanmaqdadır.

O cümlədən bu yaxınlarda başa çatmış Olimpiya Oyunları Fransanın insan hüquqlarını çox kobud şəkildə pozması ilə yadda qaldı və Avropa təşkilatları bu barədə bir kəlmə belə söyləmədilər.

Fransanın bacısı Ermənistanda da baş verən insan hüquqları pozuntuları ilə bağlı Avropa təşkilatları həmişə susublar. Azərbaycan XİN-in məlumatında deyildiyi kimi Aİ-nin himayədarlıq etdiyi Ermənistanda insanların fundamental hüquq və azadlıqlarının pozulmasına, siyasi təqiblər nəticəsində həbs edilmiş şəxslərin həbsxanalarda həyatlarını itirməsi hallarına, habelə siyasətçilər və onların ailə üzvlərinə qarşı təqiblərə Aİ-nin biganə qalması da ikili standartların bariz nümunəsidir.

#### Riyakarlıq nümunəsinə çevrilən Şvabe

Antiazərbaycançı şəbəkənin önündə gələn, ölkəmizə qarşı qərəzli münasibəti ilə tanınan Almaniya Parlamentinin üzvü Frank Şvabenin də son zamanlarda "fəallaşması" Azərbaycanın öz uğurlarının sayını artırması və COP29 kimi mötəbər tədbir ərəfəsində olması ilə bağlıdır. Qeyd edək ki, o son çıxışlarının birində Azərbaycanda "siyasi məhbusların" azad olunmasını istəmişdir.

Birincisi, Azərbaycanda siyasi məhbuslar yoxdur və bu, F.Şvabenin özünə də yaxşı məlumdur. F.Şvabenin Azərbaycanı bu məsələ ilə bağlı ittiham etməsi onun sadəcə erməni təəssübkeşliyindən irəli gəlir. Qeyd edək ki, erməni lobbisinin təsiri altında olan, yalnız Qarabağ ermənilərinin hüquqlarından dəm vuran F.Şvabe bir dəfə də olsun Ermənistanın işğalı nəticəsində yüz minlərlə azərbaycanlının məcburi köçkün vəziyyətinə düşməsindən, Qarabağda qondarma rejim və işğalçı Ermənistan tərəfindən törədilmiş dağıntılardan, Azərbaycanın mədəni irsinin dağıdılmasından, azərbaycanlıların qayıdış hüquqlarının 30 il ərzində tapdalanmasından bir dəfə də olsun bəhs etməmişdir. Bu fakt özlüyündə onun nə dərəcədə qərəzli və erməni lobbisinin maraqlarına xidmət edən şəxs olduğunu göstərir. Və bu həmin Şvabedir ki, Almaniyanın ictimai kanalı ARD-də Azərbaycan əleyhinə bədii filmin ("Am Abgrund") hazırlanmasında yaxından iştirak edib.

Azərbaycan ictimaiyyəti Şvabe, Okampo və digər onlar kimi erməni maraqlarına xidmət edənlərin ölkəmizə qarşı hücumlarına çox şahidlik edib. COP29 ərəfəsində yenidən fəallaşan bu qaragüruhun niyyəti beynəlxalq ictimaiyyətin qarşısında Azərbaycanı qaralamaqdır. Lakin bu cür riyakarlıqlar heç vaxt Azərbaycana təsir göstərə bilməz və respublikamız bundan sonra da öz uğurları ilə Qərbin bəlli dairələrinin və siyasi dəllallarının məkrli niyyətlərini gözlərində qoyacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Paşinyan sülh danışıqları üzərində imitasiyalarla məşğuldur

### Ermənistan Qərbdən verilən təlimatlar əsasında davranır



"Paşinyanın çıxışlarında yalana istinad etdiyini, öz mövqeyində sərt tranformasiyalara yol verdiyini hər zaman müşahidə etmişik. Bütün bunlar təkrar sübut edir ki, o, sadəcə olaraq, zaman qazanmaq uğrunda çalışır".

Bu fikirləri "Azərbaycan" qəzetinə Sosial Tədqiqatlar Mərkəzinin sədr müavini, politoloq Elşad Mirbəşiroğlu deyib. O bildirib ki, Paşinyan yenə sülh məsələsi üzərində imitasiyalarla məşğuldur. 2020-ci il 10 noyabr birgə Bəyanatının müddəalarının Paşinyan tərəfindən hər zaman aşkar təhrif edilməsi aydın təsəvvür formalaşdırır ki, onun utopik olaraq səsləndirdiyi kimi, sülh müqaviləsi imzalanacaqsa, gələcəkdə o sənədin heç bir əhəmiyyəti olmayacaq. Çünki biz daim görmüşük ki, Ermənistan öz mövqeyinə, imzasına hörmətlə yanaşmır. Şübhəsiz ki, belə sənəd gələcəkdə Ermənistanın üzərinə hər hansı öhdəlik qoymayacaq. Paşinyan da bunu bildiyi üçün tez bir zamanda sülh sazişinin imzalanmasını istəyir. "Məsələnin şübhəli tərəfi həm də ondan ibarətdir ki, Paşinyanın havadarları da intensiv şəkildə sülh sazişindən danışırlar. Onlar da düşünürlər ki, Ermənistan natamam sülh sazişini imzalamaqla zaman qazanmaq istəyir. Bu sənədi Ermənistanın xilası kimi görürlər. Paşinyan Ermənistanın sülh sazişi imzalamağa hazır olduğunu tez-tez bildirməklə, həm də dünya ictimaiyyətinin gözündə sülhün tərəfdarı olduğunu göstərməyə çalışır. Ermənistanın məkrli gedişləri bütün çılpaqlığı ilə göz önündədir. Bu həm də onu göstərir ki, Ermənistan Qərbdən ona verilmiş təlimatlar əsasında davranır", - deyə o əlavə edib.

Paşinyanın sülh sazişinin 80 faizinin razılaşdırılması ilə bağlı fikrinə münasibət bildirən E.Mirbəşiroğlu qeyd edib ki, Azərbaycanın iradəsi ilə sülh müqaviləsinin bəlli hissəsi razılaşdırılıb. Amma Azərbaycan sülh sazişinin imzalanması üçün prinsipial şərtlər irəli sürüb, bunlar olduqca ədalətlidir, Cənubi Qafqazda dayanıqlı sülhün, təhlükəsizliyin etibarlı təmin olunmasını şərtləndirəcək. Azərbaycan istəyir ki, açıq məsələlər qalmasın, çünki Ermənistanın və Paşinyanın xislətinə bələddir. Azərbaycan məsələnin birdəfəlik ədalətli, beynəlxalq hüquq çərçivəsində həllinə çalışır. Biz regional təhlükəsizlik sisteminin qurulmasını istəyirik və bu missiyanı üzərimizə götürməyə hazır olduğumuzu nümayiş etdiririk. Ermənistan isə regionda indi və ya gələcəkdə gərginlik elementlərinin yaradılması üçün imkanların saxlanılmasına çalışır. Qərb Cənubi Qafqazda münaqişəsiz vəziyyətin yaradılmasını qəbul etmək istəmir. Dəfələrlə qeyd etdiyimiz kimi, münaqişə amili Qərbə Cənubi Qafqazda öz təhlükəli maraqlarını təmin etmək üçün lazımdır. Bu da regionda səmərəli əməkdaşlığın qurulması, təhlükəsizliyin təmin edilməsi üçün maneədir.

Ekspert bildirib ki, Qərb eyni zamanda Ermənistandan Rusiyaya qarşı silah kimi istifadə edir: "Birgə Bəyanatın 9-cu maddəsində Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında kommunikasiyanın qurulması şərtləri aydın ifadəsini tapıb, həmçinin dəhliz üzərində Rusiya Sərhəd Xidmətinin nəzarət həyata keçirəcəyi bəllidir. Paşinyan da bu sənədə imza atıb. Deməli, Paşinyan o vaxt acınacaqlı vəziyyətdə olduğundan xilas olmaq, hakimiyyətini qorumaq üçün sənədə imza atmaq məcburiyyətində qalıb. Bu gün Ermənistan baş naziri oxşar şəkildə davranmaq istəyir. Natamam sənədə imza ataraq zaman qazanmağa çalışır".

Azərbaycanın aydın şərtlərinə əməl olunmadan sülh müqaviləsinin imzalanmasının mümkünsüz olduğunu deyən eskpert vurğulayıb ki, biz əmin olmalıyıq ki, Ermənistan bütün hüquqi sənədlərində ölkəmizə qarşı ərazi iddialarından əl çəkir. Paşinyan qeyd edir ki, bu gun bir sənəd imzalanarsa, Konstitusiya məhkəməsi tərəfindən ratifikasiya olunarsa, onda bu, hüquqi sənəd olacaq. Amma o, unudur ki, Ermənistan Konsitusiyasının 116-cı maddəsinin 3-cü bəndində Konstitusiya ilə ziddiyyət təşkil edən istənilən sənəd hüquqi qüvvəyə malik olmur. Paşinyan imzalanacaq natamam sənədlə hakimiyyətini qorumağa çalışaraq, həm də Ermənistan cəmiyyətinə hər hansı diplomatik gediş etdiyini, zaman qazandığını və gələcəkdə Azərbaycana revanş imkanlarını saxladığını sırımaq istəyir. "Təbii ki, Azərbaycan hər zaman olduğu kimi müdrikliklə bunları görür və preventiv addımlarla qarşısını alır. Azərbaycan çox aydın ifadə etdi ki heç bir natamam sənəd imzalanmayacaq. Rusiya rəsmiləri də Paşinyanın 2020-ci il birgə Bəyanatını aşkar təhrif etdiyini vurğulayırlar. Paşinyan üçtərəfli Bəyanatın 9-cu maddəsini oxuyur və qeyd edir ki, orada Ermənistan ərazisindən Azərbaycanla Naxçıvan arsında kommunikasiyanın yaradılmasına imkan verilir. Maddədə Rusiyanın nəzarəti göstərilsə də, bu hissəni oxumur və belə halın olduğunu inkar edir. Ortada hamının gördüyü, bildiyi sənədin olduğu halda Paşinyan onu təhrif edirsə, kim təminat verə bilər ki, natamam sülh sazişi imzalanarsa, o, şərtlərə əməl edəcək? Qətiyyətlə deyə bilərik ki, Paşinyan imzalayacağı sənədin heç bir bəndinə əməl etməyəcək", - deyə o bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## İrəvan sülh prosesini pozmaq üçün riyakarlıq edir

**Son günlər mütəmadi olaraq Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən ordumuzun mövqelərinin atəşə tutulması, paralel olaraq baş nazir Nikol Paşinyanın "sülh sazişi" layihəsi, eyni zamanda 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatla bağlı riyakar açıqlamalar verməsi də sübut edir ki, İrəvanın niyyəti barış deyil.**



Ötən müddətdə Nikol Paşinyan üçtərəfli görüşlər zamanı "Qarabağ Azərbaycandır" həqiqətini etiraf etməsinə baxmayaraq, Fransadan aldığı siyasi, hərbi dəstəkdən ürəklənərək sülh prosesinə zərbə vurmağa çalışıb. Elə sentyabrın 10-da "Yerevan Dialoqu" adlı forumda çıxışı zamanı Azərbaycana qarşı reallıqların açıq-aşkar təhrif olunduğu iddialar səsləndirməsi də erməni baş nazirin çirkin məqsədlərini ortaya qoyur.

#### Ermənistan ərazi iddialarına son qoymalıdır

N.Paşinyanın "sülh sazişi" layihəsinin razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanması ilə bağlı çağırışı İrəvanın məkrli planının tərkib hissəsidir. İlk növbədə Ermənistan öz Konstitusiyasına dəyişiklik etməlidir. Çünki Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var. Bununla bağlı rəsmi Bakı qətiyyətlə bildirib ki, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddiaları aradan qaldırılmalıdır. Lakin İrəvan müxtəlif bəhanələr gətirərək Konstitusiyasında dəyişiklik etməkdən yayınır və bu riyakarlıqla gələcəkdə yenidən Azərbaycana qarşı ərazi iddiasına başlamaq üçün ehtiyat variant saxlamaq niyyətini güdür.

Sözügedən məsələyə Azərbaycan Xarici İşlər Nazirliyinin verdiyi şərhdə də xatırladılır ki, Ermənistan tərəfinin "sülh sazişi" layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır.

O da qeyd olunub ki, Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan "heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz" müddəasını qeyd edərək, bu ölkənin Konstitusiyasında mövcud olan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi tamamilə əsassızdır.

#### Azərbaycan sülhdə qərarlıdır

Azərbaycan tərəfinin sülhlə bağlı qərarlı mövqeyi bu istiqamətdə müəyyən irəliləyişlərin əldə olunmasına birbaşa imkan yaradır. Onu da qeyd edək ki, iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyası işinə start verilməsi, eyni zamanda bu ilin ilk aylarından etibarən bir neçə dəfə Ermənistan və Azərbaycan rəsmilərinin ikitərəfli danışıqlar aparması tezliklə sülh müqaviləsinin bağlanacağı ilə bağlı fikir formalaşdırmışdı. Amma Cənubi Qafqazda hadisələrin barış məcrasında inkişafı nə bölgədə gözləri olan qərəzli Qərb təsisatlarını, nə də Azərbaycana qarşı ərazi iddiası güdən Ermənistanı qane edir. Buna görə də əllərindən gələn hər cür çirkinliyi, riyakarlığı edirlər ki, sülhə mane olsunlar.

Regionda davamlı sülhə bu qədər yaxınlaşıldığı bir məqamda Ermənistan rəsmilərinin ortaya atdığı və heç bir hüquqi əsası olmayan absurd iddialarından biri də guya Azərbaycanın Konstitusiya aktında Ermənistana qarşı ərazi iddialarının olması ilə bağlıdır. Lakin Azərbaycan Konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiasının mövcud olmaması gün kimi ortadadır. Sözügedən forumda Paşinyanın Almatı Bəyannaməsi çərçivəsində Azərbaycan və Ermənistanın bir-birinin ərazi bütövlüyünü tanıdığı barədə fikirlərində təmsil etdiyi ölkənin məhz bu öhdəliyi kobud şəkildə pozaraq Azərbaycan ərazilərini 30 il müddətində işğal altında saxladığı faktını dilə gətirməməsi isə əsl erməni xislətinin göstəricisidir.

1980-ci illərin sonlarından etibarən bir milyondan çox azərbaycanlı Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalıb, yurdundan didərgin salınıb. Bu faktları görməzdən gələn Ermənistan baş nazirinin Qarabağı könüllü şəkildə tərk edən ermənilərin guya etnik təmizləməyə məruz qalması barədə böhtan xarakterli fikirlər səsləndirməsi isə həyasızlıqdan başqa bir şey deyil.

Gətirdiyimiz bu nümunələr bir daha göstərir ki, Ermənistan sülh müqaviləsini imzalamaqda maraqlı deyil. O cümlədən hazırda İrəvanın çalışdığı odur ki, sülh sazişinə imza atsa belə gələcəkdə Azərbaycana qarşı ərazi iddiası sürmək üçün özünə əl-yeri qoysun. Amma Ermənistan unudur ki, havadarlarına güvənərək sülhdən yayınması, müharibəyə hazırlaşması, necə deyərlər, odla oynaması ona baha başa gələ bilər. Buna görə nə qədər ki, gec deyil, riyakarlığı bir kənara qoyaraq tarixə, beynəlxalq hüquqa dayanan gerçəkləri qəbul etməli və sülh müqaviləsinin tezliklə imzalanmasına can atmalıdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## G7, ABŞ və Aİ-də gedən proseslər fonunda Azərbaycan rəhbərliyinin müdrik addımları Qərbdə son dərəcə ağrılı qarşılanır

"G7 ölkələrinin iqtisadiyyatında baş verən tənəzzül, ABŞ-də siyasi böhran və Avropa İttifaqının tam şəkildə deqradasiyası fonunda Qərb Azərbaycan rəhbərliyinin müdrik addımlarını son dərəcə ağrılı qarşılayır".

Bu fikri AZƏRTAC-la rusiyalı politoloq, "PolitRus" ekspert-analitika şəbəkəsinin rəhbəri Vitali Arkov Azərbaycanın Avropa Şurası Parlament Assambleyasında (AŞPA) iştirakı ilə bağlı məsələni şərh edərkən bildirib.

Prezident İlham Əliyev ötən həftə İtaliyaya səfəri zamanı AŞPA ilə Azərbaycan arasında gərgin münasibətlərdən danışıb. O xatırladıb ki, assambleyanın bəzi üzvlərinin Azərbaycana səfərinə qoyulan qadağa ölkənin təşkilata qayıtmasından sonra ləğv ediləcək: "Onlar tərəfindən qərarın dəyişdiriləcəyi və bizim hüquqlarımızı bərpa etdikləri təqdirdə, gələn ilin yanvar ayında belə bir fürsət olacaqdır, bizim tətbiq etdiyimiz qadağa aradan qaldırılacaq".

Vitali Arkov bununla bağlı deyib: "Dünyada hazırkı vəziyyət elədir ki, kollektiv Qərb adlanan ölkələrdə mənzil qərargahlara yiyələnən Avropa və beynəlxalq təşkilatlar özlərinin bəyan etdikləri kimi müstəqil və qərəzsiz deyillər. Onlar bu və ya başqa dərəcədə Avropa İttifaqı ölkələrindəki hakim elitaların bürokratiyasının, daha çox isə maraqlarının ifadəçisi olduqları ABŞ-nin nəzarəti altındadırlar və bir çox halda dünya icmasının həqiqi müstəqil xarici siyasət yürüdən "inadkar" üzvlərinin "cəzalandırılması" alətidirlər".

Rusiyalı politoloqun sözlərinə görə, bərabər səviyyədə olan, hörmətə və mövqelərin aydınlaşdırılmasına layiq opponentlərlə diskussiya aparmaq olar və bu, lazımdır. AŞPA və Avropa Şurası isə hazırda düşdükləri vəziyyətlə bağlı buna layiq deyillər.

Strasburqdakı anti-Azərbaycan ritorikasından danışan ekspert bu fenomenin bir neçə səbəbini qeyd edib. "Birincisi, bu, Azərbaycanın öz ərazi bütövlüyünü və tarixi həqiqəti bərpa etməsi ilə başa çatan İkinci Qarabağ müharibəsinin nəticələrini qəti şəkildə qəbul etməyən erməni radikallarının maraqlarının davamlı lobbiçiliyidir. İkincisi, Bakı ilə Paris arasında münasibətlərin gərginləşməsi amilidir. Sonuncu Cənubi Qafqazda öz məqsədlərinə çatmaq üçün erməni amilindən istifadə edir. Emmanuel Makronu əlində bərk saxlayan Beşinci Respublikanın oliqarxiyası Azərbaycanın yanacaq-energetika kompleksinə nəzarəti La-Manş boğazı boyunca qonşularından qoparmaq, habelə Hindistan və Çindən yeni nəqliyyat dəhlizlərini yönləndirmək arzusunu gizlətmir. Bu gün "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri Aralıq dənizi limanlarında Mərkəzi və Qərbi Avropa üçün inhisar qovşağına çevrilirlər".

Politoloq sözlərinə davam edərək vurğulayıb ki, üçüncü səbəb Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və BRICS ilə bu təşkilatlara üzvlüyünü də nəzərdə tutan səviyyədə yaxınlaşmasıdır. "Hazırda bu təşkilatların hər ikisi dünya əhalisinin əksəriyyətinin yaşadığı və beynəlxalq arenada nüfuzu sürətlə artan, güclü iqtisadiyyata malik ölkələri birləşdirir. G7 ölkələrinin iqtisadiyyatındakı tənəzzül, ABŞ-dəki siyasi böhran və Avropa İttifaqının tam deqradasiyası fonunda Azərbaycan rəhbərliyinin müdrik addımları Qərbdə son dərəcə ağrılı qarşılanır.

Dördüncüsü, təbii ki, bu yolla onlar Bakını milli maraqlara əməl etdiyinə və müttəfiqlik öhdəliklərini yerinə yetirdiyinə görə "cəzalandırmağa" çalışırlar ki, bu da özünü təkcə anti-Rusiya sanksiyalarına qoşulmaqdan nümayişkaranə şəkildə imtinada deyil, həm də Brüssel və Moskvada hesab etdikləri kimi, Qərbin tətbiq etdiyi məhdudiyyətlərdən yan keçməkdə Kremlə kömək edilməsində göstərir", - deyə Arkov sözlərinə yekun vurub.




# Kiçik və orta biznesin böyük məsuliyyəti

## Bu gün iqtisadiyyatın "yaşıl"laşması daha çox KOB-dan asılıdır

**"Yaşıl iqtisadiyyat" təbii mühitin bir hissəsidir və həm də ondan asılı olan bir təsərrüfatdır. İnsan rifahını və sosial ədaləti təmin edən "yaşıl iqtisadiyyat" həm də ətraf mühit risklərini kəskin azaldır. Onun əsas komponentlərindən olan "yaşıl biznes müəssisələri" də qlobal və yerli səviyyədə ətraf mühitə, cəmiyyətə, icmalara və iqtisadiyyata zərər vurmur, əksinə, iqtisadi inkişafı, sosial tərəqqini və ətraf mühitin mühafizəsini təmin edir.**



Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar, iqlim dəyişmələri və artan tələbat bu gün "yaşıl iqtisadiyyat"ın inkişafının vacibliyini gündəmə gətirib. Çünki "yaşıl iqtisadiyyat"ın genişləndirilməsi, onun müasir tələblər səviyyəsində inkişafı istiqamətlərində həyata keçirilən tədbirlər böyük əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. "Yaşıl artım"a nail olmaq üçün Azərbaycanda ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Bu, o deməkdir ki, Azərbaycanın "yaşıl artım" ölkəsinə çevrilməsi yalnız arzu deyil, tezliklə həyata keçəcək reallıqdır.

Bu günlər İqtisadiyyat və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin dəstəyi ilə "Yaşıl iqtisadiyyatda kiçik və orta biznesin rolu" mövzusunda keçirilmiş konfransda da səsləndiyi kimi, kiçik və orta biznes (KOB) karbon emissiyalarının 50 faizini əhatə edir. Təbii ki, bu, kifayət qədər böyük rəqəmdir. Ona görə də KOB özü bu emissiyanın azaldılması istiqamətində gördüyü işlərlə "yaşıl dünya" qurmağa kömək etmiş olur. Bu gün kiçik və orta biznes məşğulluğun 70 faizini təşkil edir. Deməli, karbon emissiyasının artmasına yönəlik fəaliyyət genişləndirilməsə, həmin məşğul əhali iş yerini itirmə təhlükəsi ilə üz-üzə gələr ki, bu da ümumi daxili məhsula (ÜDM) təsirsiz ötüşməyəcək. Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinin rəhbəri, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov konfransda çıxış edərkən məhz bu məsələyə diqqət çəkərək deyib: "Dünya Bankı hesab edir ki, iqlim dəyişmələri 2050-ci ilə qədər ÜDM-ni 1,5-3 faiz arasında azalda bilər. ÜDM-nin azalması dünyada iqtisadi aktivliyin azalmasına səbəb olur. Bu da özünü məşğulluqda, yoxsulluq riskinin artması faktorunda göstərəcək".

"Mərkəzi Bank tərəfindən "yaşıl maliyyə"nin inkişafı üçün "yaşıl taksonomiya" üzərində iş aparılır" deyən ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev bildirib ki, həmin taksonomiya vasitəsi ilə iqtisadi fəaliyyətlər "yaşıl standart"lar əsasında təsnifləndiriləcək, müəssisələr dayanıqlı və ekoloji cəhətdən təmiz investisiyalara daha çox dəstək olacaqlar: "Bu çərçivədə həm dövlət, həm də özəl sektorda ekoloji layihələrin sayının artırılması zəruridir. Kiçik və orta biznes subyektləri dayanıqlı infrastruktur yaratmağa və "yaşıl texologiya"lardan istifadəyə təşviq edilməlidir. Bu, həm iqtisadi artıma, həm də ekoloji səmərəliliyə töhfə verəcək. KOB-ların bu keçiddə qarşılaşdıqları maliyyə çətinliklərini aradan qaldırmaq üçün onların güzəştli maliyyə resurslarına çıxışını genişləndirmək vacibdir. BMT-nin qiymətləndirməsinə görə, dünya üzrə aşağı karbonlu iqtisadiyyata keçid üçün hər il trilyonlarla dollar tələb olunur. Beynəlxalq praktikada olduğu kimi, kommersiya bankları öz fəaliyyətləri və kreditlərin verilməsi zamanı iqtisadi amillərlə yanaşı, ekoloji və iqlim amillərini nəzərə almalıdırlar".

Məlumdur ki, COP29-un ən əsas mövzusu iqlimin maliyyələşdirilməsidir. Bu məsələdə özəl sektorun rolu danılmazdır və illər keçdikcə də həmin rol böyüyür. KOB sektorunda "yaşıl siyasət və strategiya"ların geniş tətbiqi üçün kifayət qədər potensialın olduğunu hər kəs bilir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov tədbirdə çıxış edərkən deyib: "KOB-ların "yaşıl transformasiya" sahəsində qarşılaşdığı problemlər universal xarakter daşıyır. Bu baxımdan, hazırkı tədbirin yaratdığı imkandan faydalanaraq qlobal təşəbbüs irəli sürmək istərdik. Bu təşəbbüs KOB-ların "yaşıl iqlim" keçidi üçün Bakı Koalisiya Bəyannaməsində əks olunub".

Beləliklə, aydın olur ki, "yaşıl iqtisadiyyat"a keçid bir çox çağırışlarla müşayiət olunur. COP29 komandası da özəl sektorun qlobal iqlim fəaliyyətinə cəlb edilməsinə xüsusi önəm verdiyi üçün bu keçid böyük biznes imkanlarının yaranmasına səbəb olacaq. Ona görə də COP29-a hazırlıqlar çərçivəsində həm böyük şirkətlərlə, həm də kiçik və orta biznes nümayəndələri ilə "yaşıl iqtisadiyyat"ın yaratdığı imkan və çağırışlara uyğunlaşma məsələsi daim müzakirə mövzusudur.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Haaqada COP29-a həsr edilmiş konfrans keçirilib



Azərbaycanın Niderlanddakı səfirliyinin və bu ölkənin iqlim elçisi Xayme de Börbon de Parmenin birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr edilmiş konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, səfir Rəhman Mustafayev konfransda Bakının evsahibliyi edəcəyi COP29-un prioritetləri, Azərbaycanın təşəbbüsləri və iqlim strategiyası, eləcə də Azərbaycan-Niderland ticarət və investisiya əlaqələrinin genişlənməsi imkanları haqqında geniş təqdimat edib. Tədbirdə Niderlandın özəl sektorundan 100-ə yaxın nümayəndə, Xarici İşlər, İqlim Siyasəti və Yaşıl İnkişaf, İnfrastruktur və Su İdarəçiliyi nazirliklərinin, Niderland İnkişaf Bankının (FMO) təmsilçiləri, Niderlandın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasında (UNFCCC) nümayəndə heyətinin rəhbəri, Niderland-Britaniya Ticarət Palatasının üzvləri iştirak ediblər. Konfransda Niderlandın özəl sektorunun COP29-da iştirak imkanları və prioritetləri müzakirə olunub. Konfrans fikir mübadiləsi ilə davam edib.

# Qlobal güclər, o cümlədən ABŞ COP29 çərçivəsində Azərbaycana tam dəstək nümayiş etdirir

Azərbaycan qlobal siyasət aləmində daha böyük nüfuz qazandıqca, ölkəmizdə keçirilən tədbirlərin də əhəmiyyəti bir o qədər artır. Məsələn, ölkəmizin 2015-ci ildə evsahibliyi etdiyi Birinci Avropa Oyunlarında 8 minədək qonaq iştirak edirdi.



COP29-a isə dünyanın 190-dan çox ölkəsindən 80 mindən artıq qonağın gələcəyi gözlənilir. Yəni bu, miqyasına görə ən mötəbər tədbir olmaqla yanaşı, siyasi baxımdan da böyük əhəmiyyət kəsb edəcək. Bu, həm də beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana verilən dəyərin, eyni zamanda dövlətimizə olan inamın artmasının göstəricisidir. COP29 qlobal təşəbbüslərin geniş beynəlxalq platforma çərçivəsində səsləndirilməsi, Azərbaycanın öz reallıqlarını dünyaya çatdırması, iqlim və ekologiya məsələlərinə qlobal diqqətin artırılması, sülh prosesinin daha da irəli aparılması üçün də bir fürsətdir. Beləliklə, burada ekologiya və iqtisadiyyata "yaşıl baxış"dan tutmuş sülh quruculuğuna, qlobal geosiyasi proseslərə qədər ən mühüm məsələlər müzakirəyə çıxarılacaq.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) baş məsləhətçisi Şəhla Cəlilzadə söyləyib. O, COP29-un ölkəmizdə keçirilməsini həm də Azərbaycanın Qarabağ münaqişəsini həll etməsinin, sülh danışıqlarında uğurlu irəliləyişlərə nail olmasının nəticəsi kimi xarakterizə edib. Baş məsləhətçinin sözlərinə görə, həm Prezident İlham Əliyev, həm də Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda açıqlamalarında bildirdilər ki, tərəflər arasında sülh müqaviləsinin ilkin mətni 80 faiz hazırdır. Yəni sülh müqaviləsinin 13 maddəsi, preambula hissəsi tamamilə razılaşdırılıb və 3 maddə qalıb. Bütün bunlar Azərbaycanın qarşıya qoyduğu strateji məqsədlər üzrə nailiyyətlər qazanmasının və siyasi gündəlikdəki həyati vacib məsələləri uğurla həyata keçirməsinin göstəricisi olmaqla yanaşı, COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı bütün işlərə məsuliyyətlə yanaşdığını nümayiş etdirir.

"COP29 fürsətlərlə yanaşı, həm də qlobal öhdəliklər deməkdir. Bu tədbiri keçirən ölkənin əsas öhdəliyi iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün dövlətlərin qərarlaşdırmalı olduğu məsələlərə dair konsensus yaratmaqdır. Bu isə daha sadə dillə desək, qlobal maraqların toqquşması deməkdir. Qlobal enerji və nəqliyyat dəhlizləri uğrunda mübarizənin getdiyi, iqlim mövzusunda həssaslığın qorunmasının vacib olduğu bir zamanda razılaşdırma və uzlaşdırma heç də asan proses deyil. Lakin Azərbaycan Ulu Öndər Heydər Əliyevin dövründən indiyədək qlobal maraqların ən usta uzlaşdırıcısına çevrilməyi bacarıb. Xatırladım ki, hələ SSRİ dağılmazdan əvvəl Azərbaycanın enerji qaynaqları uğrunda xarici dövlətlər və transmilli şirkətlər arasında mübarizə başlamışdı. Transmilli şirkət "Remco"nun rəhbər şəxslərindən biri Stiv Remp 1989-cu ildə artıq enerji danışıqları üçün Bakıda idi. Təlatümlərlə dolu 1991-1993-cü illərin siyasi xaosunun və enerji danışıqlarındakı fiaskoların ardından məhz Ümummilli Lider Heydər Əliyevin dahiyanə uzlaşdırıcı siyasəti nəticəsində "Əsrin müqaviləsi" imzalanmışdı. Bu müqavilə və onun 2017-ci ildə 2050-ci ilə qədər uzadılması regional enerji status-kvosunu yaratdı. Azərbaycanın müəllifi olduğu "Cənub qaz dəhlizi" isə Avropanın ən etibarlı enerji tərəfdaşına, Şərqlə Qərb arasında bağlayıcı amilə çevrildi", - deyə STM-in baş məsləhətçisi vurğulayıb.

Ş.Cəlilzadə bu gün Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçid istiqamətində müvafiq addımlar atdığını bildirərək deyib: "Ölkəmizin neft-qazdan asılılığını bəhanə gətirən, bunun BMT-nin iqlim dəyişikliklərinə dair hədəflərinə uyğun gəlmədiyini iddia edən bir sıra beynəlxalq təşkilatların və dövlətlərin, o cümlədən "Transparency International", "Amnesty International", "Human Rights Watch", Fransanın müvafiq siyasi dairələrinin və başqalarının COP29 çərçivəsində Azərbaycana qarşı qlobal təbliğat kampaniyası həyata keçirdiklərini söyləyə bilərik. Onlara xatırlatma edilə bilər ki, COP26-nın keçirildiyi Böyük Britaniya da neft-qaz istehsalçısıdır və bu, onların "yaşıl iqtisadiyyat" mövzusunda həssaslığına xələl gətirmirdi. Bu cür mənfi məqamların fonunda görünən ən ali həqiqət odur ki, qlobal güclər, o cümlədən ABŞ COP29 çərçivəsində Azərbaycana tam dəstək nümayiş etdirir. ABŞ Prezidenti Cozef Baydenin Müstəqillik Günü münasibətilə, qısa müddət sonra Bakı Enerji Həftəsi ilə əlaqədar Prezident İlham Əliyevə iki məktub ünvanlamasını, Azərbaycana COP29 çərçivəsində iqlimlə bağlı ümumi məqsədlərin irəlilədilməsi üçün dəstək verməyə hazır olmasını buna misal kimi göstərə bilərik".

Baş məsləhətçi vurğulayıb ki, COP29 ərəfəsində ölkəmiz üçün ən əhəmiyyətli tarixi hadisələrdən biri 2022-ci il dekabrın 17-də imzalanan "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" əsasən Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında birgə müəssisənin təsis edilməsidir. Azərbaycanı 2020-ci ildə Qələbəyə aparan 1994-cü ildəki "Əsrin müqaviləsi" idisə, bizim üçün Zəfərimizin təminatçısı yeni iqtisadi və qlobal imkanlar yaradacaq "Yaşıl enerji dəhlizi" hesab oluna bilər.

# Tullantılar haqqında qanunun icra vəziyyətinə dair ictimai müzakirə aparılıb

Sentyabrın 12-də Qeyri-Hökumət Təşkilatlarına (QHT) Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə 1998-ci ildə qəbul edilmiş "Tullantılar haqqında Azərbaycan Respublikasının Qanunu"nun icra vəziyyətinə dair ictimai müzakirələr aparılıb.



AZƏRTAC xəbər verir ki, tədbirdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, "Təmiz Şəhər" ASC, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmiləri, ölkədə fəaliyyət göstərən 40-dək QHT rəhbəri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva vurğulayıb ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən biri də ekoloji problemlərin həll edilməsi məsələsidir. Bu istiqamətdə təbiətimizin tullantılardan azad olunması xüsusi önəm kəsb edir. İcraçı direktor bildirib ki, uzun illər Qarabağda, Şərqi Zəngəzurda Ermənistanın işğalı nəticəsində törədilən ekosid narahatlıq doğurur. Son zamanlar vətəndaşlar tərəfindən həmin bölgələrdə təbiətin çirkləndirilməsi, tullantıların yerə atılması ilə bağlı sosial şəbəkələrdə məlumatlar yayılır.

İctimai qınağın vacibliyinə diqqət çəkən A.Əliyeva bu işdə QHT-lərin fəal olmasının önəminə toxunub. İcraçı direktor tullantıların idarə edilməsi ilə bağlı videoçarxların televiziya kanallarında nümayiş etdirilməsi məsələsində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi göstərməyə hazır olduğunu qeyd edərək vurğulayıb ki, bu videoçarxların səviyyəsi standartlara cavab verməlidir.

Ekologiya və təbii sərvətlər nazirinin Ekoloji siyasət şöbəsinin sektor müdiri Mehman Nəbiyev tullantıların idarə edilməsi ilə bağlı strateji sənəd hazırlandığını diqqətə çatdırıb. Onun sözlərinə görə, sənədin icrası əvvəlcə Abşeronda, sonra isə mərhələli şəkildə digər yerlərdə həyata keçiriləcək.

Sektor müdiri işğaldan azad edilmiş ərazilərlə bağlı sosial şəbəkələrdə yayılmış məlumatlara münasibət bildirərək qeyd edib ki, ölkə ərazisində tullantıların idarə edilməsi ilə bağlı müəyyən tapşırıqlar verilib. Onun sözlərinə görə, həmin ərazilərdə bərpa və quruculuq işləri aparılır və bu da təbii olaraq tullantılarla bağlı müəyyən problemlər yaradır. Ekologiyaya və təbiətə ziyan vurulmaması məqsədilə Qarabağ və Şərqi Zəngəzurda tullantıların idarə edilməsi prosesi "Təmiz Şəhər" ASC-yə həvalə edilib.

Tibbi tullantıların idarə olunması məsələsinin də gündəmdə olduğunu bildirən M.Nəbiyev bu sahənin lisenziya əsasında fəaliyyət göstərdiyini qeyd edərək hazırda tibb müəssisələrində tibbi tullantıların çeşidlənməsi məsələsi ilə bağlı işlərin aparıldığını da diqqətə çatdırıb.

"Qarşıdan COP29 kimi mötəbər beynəlxalq tədbir gəlir. Ölkə ərazisində tullantıların idarə edilməsi məsələsində daha ciddi addımlar atmalıyıq", - deyən Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsinin İdarə Heyətinin sədri Səadət Bənənyarlı qeyd edib ki, yaşayış binalarında məişət tullantılarının və bərk tullantıların ərazilərdən daşınması məsələsində bələdiyyələrdən çox şey asılıdır və onlar öz üzərilərinə düşən vəzifələri yerinə yetirməlidirlər.

Konstitusiya Araşdırmalar Fondunun rəhbəri, hüquq müdafiəçisi Əlimməmməd Nuriyev tullantıların idarə edilməsi məsələsində qanunvericilikdə yeni müddəalara ehtiyac duyulduğunu dilə gətirib. O qeyd edib ki, bu məsələdə ilk olaraq tullantıların azaldılması və yenidən emalının təşkili üçün daha səmərəli mexanizmlər yaradılmalıdır. Onlara vergi güzəşti və digər güzəştlər tətbiq edilə bilər.

"Plastik tullantılara aid məhdudiyyətlərin qoyulması da qanunla tənzimlənməlidir. Bir sıra məhdudiyyətlər qoyulsa da, onların təcrübədə tətbiqində çatışmazlıqlar var. Elektron tullantıların idarə edilməsi isə ən vacib istiqamətdir. Buna da diqqəti artırmaq lazımdır", - deyə Ə.Nuriyev qeyd edib.

D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyətinin sədri Novella Cəfərovanın fikrincə, tullantıların idarə edilməsi ciddi məsələdir. Qeyri-hökumət təşkilatları bu məsələdə bələdiyyələrlə birgə işləməlidirlər.

Qonşu ölkələrdən Azərbaycana gələn çayların sularının çirkli vəziyyətdə olduğunu vurğulayan QHT sədri əlavə edib: "Biz bu məsələni də Gürcüstanın qeyri-hökumət təşkilatları ilə birgə işləyə bilərik. Prezident İlham Əliyev Filizçay yatağında geoloji axtarış və kəşfiyyat işlərinin aparılması ilə bağlı sərəncam imzalayıb. Bu işlər çox həssas aparılmalıdır. Orada geoloji axtarış və kəşfiyyat işləri aparanda meşələrin qırılmasına imkan vermək olmaz".

Tədbirdə Tullantılar haqqında qanuna zəruri əlavə və dəyişikliklərin edilməsi, İşçi qrupunun yaradılması, təkliflərin hazırlanması ilə bağlı geniş müzakirələr aparılıb, QHT-lərin təklifləri dinlənilib.

Çıxışlardan sonra rəsmi qurum nümayəndələri müvafiq qeydlərini götürüblər, QHT nümayəndələrini maraqlandıran sualları cavablandırıblar.

# İŞİMİZ, GÜZƏRANIMIZ

● "Əsrin müqaviləsi" - 30



**"Azəri-Çıraq-Günəşli" layihəsi başlandığı vaxtdan indiyədək, yəni 30 il ərzində əməliyyatçı olan BP və tərəfdaşları Azərbaycanda sosial layihələrə təqribən 111 milyon dollar vəsait xərcləyiblər. Onlar bu sosial dəstək proqramlarını neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrdəki əməliyyatlarının ayrılmaz hissəsi adlandırırlar.**

# Meqalayihələr, üstəgəl 111 milyon dollarlıq sosial dəstək

Geniş sosial sərmayə proqramları insanlara əhəmiyyətli faydalar gətirir, onların həyatının daha da yaxşılaşdırılmasına dəstək verir. Sosial sərmayələr yerli potensialın yaradılması, təhsil və idmanın inkişafı, sahibkarlıq, ətraf mühit, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldilib.

Cari ilin birinci yarısında BP və əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları belə sosial investisiya proqramlarına Azərbaycanda təqribən 0,5 milyon dollar vəsait sərf ediblər. Söhbət hazırda davam edən 16 təhsil proqramı, yerli bacarıqların yaradılmasını və sahibkarlığın inkişafını dəstəkləyən üç layihə və ətraf mühit üzrə bir təşəbbüsdən gedir. Bundan əlavə, BP ayrıca bir şirkət kimi öz adından ölkəmizdə sponsorluq etdiyi sosial layihələrə ilin birinci yarısında 0,9 milyon dollardan artıq vəsait xərcləyib. 2023-cü ildə BP və tərəfdaşları birgə belə sosial investisiya layihələrinə Azərbaycanda 2 milyon dollardan artıq vəsait yönəldiblər.

Vurğulayaq ki, sosial layihələr illərdir davam edir və geniş coğrafi ərazidə həyata keçirilir. Belə ki, onlar dəniz qurğularının inşa olunduğu paytaxt müəssisələrinin, Səngəçal terminalının ətrafından başlayaraq Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri boyu yerləşən çoxsaylı yaşayış məntəqələrini əhatə edir. Bu layihələrdən demək olar ki, əhalinin bütün təbəqələri bəhrələnir. Məsələn, uğurla tamamlanan "Sahibkarlığın İnkişafı Proqramı"nı (SİP) xatırlayaq. Milyonlarla dollar dəyərində olan bu layihə yerli sahibkarlığı dəstəkləmək məqsədi daşıyırdı. SİP Azərbaycandakı müqavilələrdə yerli resursların iştirakını artırmaq və yerli iqtisadiyyatın sağlam və şəffaf inkişafına dəstək vermək səylərinin bir hissəsi idi.

BP və tərəfdaşlarını Azərbaycan gəncləri ilə də möhkəm dostluq telləri bağlayır. Gənclərlə bağlı son dövrdə həyata keçirilən layihələrdən bir neçəsini göstərmək kifayətdir. Sumqayıt Dövlət Universitetində bu il başlanan layihə ali təhsillə sənaye arasında yeni tərəfdaşlıq imkanı yaratmağa xidmət edir.

Kimya mühəndisliyi üzrə yeni magistr proqramı iri bir təhsil layihəsidir. Bu, ölkəmizin yüksəkixtisaslı kimya mühəndislərinə tələbatının təmin edilməsinə bir töhfə olacaq. Layihə əsasən Sumqayıt şəhərinin əmək bazarının, sənaye potensialının və xidmət sahələrinin ehtiyaclarını nəzərə alaraq düşünülüb. Sənayenin tələblərinə uyğunlaşdırılmış yeni tədris proqramına kimyəvi proseslər, istehsal prosesləri və ekoloji dayanıqlılıq kimi sahələr daxildir. Proqramın təlim materialları xüsusi olaraq Sumqayıt şəhərinin sənaye və texnoloji müəssisə və şirkətlərinin ehtiyacları üçün hazırlanıb.

Bakı Mühəndislik Universitetində isə BP şirkəti ölkə üçün informasiya-kommunikasiya texnologiyaları (İKT) və kibertəhlükəsizlik sahəsində yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına dəstək məqsədilə yeni laboratoriya açıb. Laboratoriya şirkət tərəfindən xüsusi olaraq alınıb və 30 müasir və innovativ İKT avadanlığı və proqram təminatı ilə təchiz olunub. Gözlənilir ki, hər il 1000-ə yaxın müəllim və tələbə laboratoriyadan istifadə edərək İKT sahəsində öz bilik və bacarıqlarını təkmilləşdirəcək, innovativ İKT-dən istifadə etməyi, təhlükəsiz və səmərəli informasiya sistemləri yaratmağı və saxlamağı öyrənəcək, ümumilikdə isə rəqəmsal transformasiyanı mənimsəyəcək. Buraya əsasən kompüter mühəndisliyi, İKT, kompüter elmləri və kibertəhlükəsizlik-informasiya təhlükəsizliyi sahələrində ixtisaslaşan tələbələr daxildir.

BP-nin öz tərəfdaşları adından həyata keçirdiyi növbəti sosial layihə orta məktəblər üçün nəzərdə tutulub. Əməliyyatçı şirkət bu təhsil layihəsinin artıq uğurla tamamlandığını elan edib. Layihənin məqsədi şagirdlərə sahibkarlıq və biznes liderliyinin əsaslarını aşılamaqda məktəblərə dəstək verməkdir. Layihəyə səkkizinci və doqquzuncu sinif şagirdləri üçün biznes və sahibkarlığın əsas prinsipləri haqqında təhsil materiallarının hazırlanması daxil idi. Bundan əlavə, proqram çərçivəsində kurs təlimatçılarına, eləcə də məktəb müəllimlərinə təlim keçmək məqsədilə kitabça da tərtib olunmuşdu.

Layihə çərçivəsində Azərbaycanın müxtəlif yerlərindən təxminən 34 müəllim təlimçi kimi hazırlanıb. Hazırlanmış təlimçilər də öz növbəsində ölkə üzrə təxminən 600 STEAM müəlliminə təlim keçərək, onları məktəblilərə sahibkarlığın əsaslarını öyrətmək üçün lazımi biliklər və effektiv pedaqoji vasitələrlə təmin ediliblər. Təlim proqramlarında sahibkarlıq düşüncə tərzi və bacarıqlarının inkişaf etdirilməsi, biznes modellərinin inkişafı, biznes ideyalarının hazırlanması, sosial sahibkarlığın tədqiqi, maliyyə savadlılığı, yaradıcı düşüncə və problemlərin həlli kimi mövzular əhatə olunub.

Daha sonra təlim keçmiş müəllimlər əldə etdikləri bilgiləri ölkənin 51 rayonunda 150 STEAM məktəbində ümumilikdə təxminən 8 min şagirdə ötürüblər. İnteraktiv sessiyalar vasitəsilə şagirdlər biznes-planların hazırlanması, bazarların təhlili və biznes imkanlarının müəyyənləşdirilməsi üzrə xüsusi təlim keçiblər.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (ADSEA) ilə BP-nin reallaşdırdığı növbəti layihələr isə həm də "Yaşıl həyat naminə həmrəylik ili" və COP29-a hazırlıq çərçivəsində həyata keçirilən mühüm tədbirlərə dəstək xarakteri daşıyır. Belə ki, bu il ADSEA ilə BP arasında icmalarda su təchizatı ilə əlaqədar vəziyyəti yaxşılaşdırmağa kömək edəcək potensial su layihələrinin müəyyən edilməsi, seçilməsi və həyata keçirilməsi istiqamətində birgə işləmək üçün əməkdaşlıq müqaviləsi imzalanıb.

Əməkdaşlığın ilkin olaraq üç potensial layihəni əhatə edəcəyi gözlənilir. Birinci layihədə məqsəd Göyçay rayonunda yeni su təchizatı sisteminin yaradılmasıdır. Bu sistem sel sularının toplanması, çökdürülməsi və təmizlənməsini təmin edəcək. Təmizlənmiş sudan torpaqların suvarılması üçün istifadə olunacaq. Sistemin ildə 500 min kubmetrdən çox suyu təmizləmək gücündə olacağı nəzərdə tutulur ki, bu da 100 hektara qədər ərazini suvarmağa imkan verəcək.

İkinci layihə Tovuz rayonunda iki yeraltı su təchizatı mənbəyinin - kəhrizin bərpa edilməsi məqsədi daşıyır. Bərpa edildikdən sonra bu iki kəhriz hər il 2,5 milyon kubmetrə qədər şirin suyu təchiz edə biləcək. Bu isə 15 min nəfərə yaxın icma üzvünün məişət istehlakı və torpaqların suvarılması ilə əlaqədar ehtiyaclarını təmin etmək deməkdir.

Üçüncü layihə Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy və Samux rayonlarında içməli su, suvarma və sanitariya təyinatlı 25 su sisteminin yaradılmasına yönəldilib. Layihə ümumi əhalisi təqribən 25 min nəfər olan 20-yə yaxın kənd yaşayış məntəqəsini əhatə edəcək.

Xatırladaq ki, BP-nin "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları TPAO, SOCAR, SGC, LUKOİL, NİCO, MOL, "Equinor", İNPEX, "ExxonMobil", İTOCHU, "Eni", "TotalEnergies", "ONGCVidesh" şirkətləridir. Onlar Azərbaycanda ən çox töhfə verə biləcəklərinə inandıqları sahələrə yönəlməklə, dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürüblər. Həyata keçirilən geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səylər insanlara əhəmiyyətli faydalar gətirir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

**Dövlət Statistika Komitəsi xəbər verir**

## ÜDM istehsalı 4,3 faiz artıb

**8 ayda ölkə üzrə 80 milyard 960,3 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,2, qeyri neft-qaz sektorunda isə 7,0 faiz artmışdır.

ÜDM istehsalının 37,9 faizi sənaye, 9,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,1 faizi tikinti, 6,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 18,9 isə faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,1 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 7941,3 manata bərabər olmuşdur.

## Əsas kapitala 11,2 milyard manatdan çox vəsait yönəldilib

**Cari ilin yanvar-avqust aylarında əsas kapitala 11 milyard 216,9 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çox investisiya yönəldilmişdir.**

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 2,4 faiz azalmış, qeyri-neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 3,9 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 5 milyard 587,0 milyon manatı və ya 49,8 faizi məhsul istehsalı, 4 milyard 287,3 milyon manatı (38,2 faizi) xidmət sahələrinə, 1 milyard 342,6 milyon manatı (12,0 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş investisiyaların 9 milyard 315,8 milyon manatını və ya 83,1 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 8 milyard 90,5 milyon manatı və ya 72,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

## İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 1000 manatı keçdi

**Avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1759,0 min nəfər olmuşdur, onlardan 881,7 min nəfəri iqtisadiyyatın dövlət, 877,3 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.**

Muzdla işləyənlərin 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,3 faizi təhsil, 12,8 faizi sənaye, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 14,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2024-cü ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,3 faiz artaraq 1002,4 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Qeyri-neft-qaz sektoru üzrə sənaye məhsulları istehsalında 7,8 faiz artım qeydə alınıb

**2024-cü ilin yanvar-avqust aylarında ölkə üzrə 42,4 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı eyni səviyyədə qalmış, qeyri-neft-qaz sektorunda isə 7,8 faiz artmışdır.**

Sənaye məhsullarının 64,4 faizi mədənçıxarma, 29,9 faizi emal, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,4 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 4,1 faiz artmışdır.

Emal sektorunda kompüter, elektron və optik məhsulların istehsalı 72,2, əczaçılıq məhsullarının istehsalı 69,4, elektrik avadanlıqlarının istehsalı 39,9, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 36,7, mebel istehsalı 31,9, metallurgiya sənayesi məhsullarının istehsalı 27,7, rezin və plastik kütlə məmulatlarının istehsalı 23,8, hazır metal məmulatlarının istehsalı 23,3, tikinti materiallarının istehsalı 23,0, içkilərin istehsalı 16,5, tütün məmulatlarının istehsalı 11,2, kimya sənayesi məhsullarının istehsalı 8,7, kağız və karton istehsalı 7,2, qida məhsullarının istehsalı 7,1, neft məhsullarının istehsalı 3,1, ağacın emalı və ağacdan məmulatların istehsalı 1,0 faiz artmış, geyim istehsalı 0,4, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 8,0, sair sənaye məhsullarının istehsalı 8,3, toxuculuq sənayesi məhsullarının istehsalı 10,3, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 14,4, poliqrafiya məhsullarının istehsalı 19,9, maşın və avadanlıqların istehsalı 29,6, sair nəqliyyat vasitələrinin istehsalı isə 52,6 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,1, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 8,8 faiz artmışdır.

## Əmək müqavilələrinin sayı 1,8 milyonu üstələyib

**Bu ilin yanvar-avqust ayları ərzində ölkəmizdə əmək müqavilələrinin sayı 29 min və ya 1,6 faiz artaraq 1 mln. 838 min 257-yə çatıb.**




Əməkhaqqı islahatları, əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunda da davamlı artımla nəticələnir. Son 8 ayda əməkhaqqı fondunda daha 5,5 faiz artım qeydə alınıb.

# Azərbaycanın DOST-u nümunə göstərir

## Özü də beynəlxalq arenada

**Bəzən adama elə gəlir ki, beynəlxalq müsabiqələr yalnız orta məktəb şagirdləri və universitet tələbələri, yaxud incəsənət nümayəndələri üçündür. Amma zaman o zamandır ki, nəinki təhsil, incəsənət, eləcə də iqtisadiyyat və sosial sahədə də beynəlxalq arenaya çıxmaq lazımdır.**




Bu gün istənilən sahədə əldə olunan uğurlar dünyanın istənilən ölkəsində sərgilənir və dəyərini alır. Götürək Azərbaycan brendi olan DOST-u. Xəbər verildiyi kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi "İnsan Kapitalının İdarə Edilməsi üzrə Mükəmməllik Mükafatı 2024" (Human Capital Management Excellence Awards 2024) beynəlxalq müsabiqəsinin qalibi olub. Cəmi 6 yaşı olan DOST-un bu uğuru birinci və sözsüz ki, sonuncu deyil, baxmayaraq ki, agentliyin əməkdaşlarını özlərinə dost bilənlərin çoxu həssas qrupa aid olan insanlardır, yəni onlarla dostluq etmək üçün böyük ürəyə sahib olmaq lazımdır.

1983-cü ildən Sosial İşçilərin Beynəlxalq Federasiyası tərəfindən hər il mart ayının üçüncü çərşənbə axşamı Dünya Sosial İş Günü elan olunub. Sonralar bir sıra beynəlxalq təşkilatlar da bu təşəbbüsə qoşulublar. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmətlər sistemində çalışanlar da həssas kateqoriyalardan olan insanların (tənha ahıl və əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud olan, yaxud sosial təhlükəli vəziyyətdə olan uşaqların, məişət zorakılığından zərər çəkənlərin və b.) sosial xidmətlərə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi, həmin şəxslərə xidmətlərin təşkili istiqamətində fəaliyyət göstərirlər. Deməli, bu sahənin əməkdaşları üçün yalnız bir gün yox, hər gün Sosial İş Günüdür.

Bu cür həssaslığın, diqqətin, məsuliyyətin nəticəsidir ki, DOST Agentliyinin Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) "Avropa üzrə Yaxşı Təcrübə Mükafatı - 2022" müsabiqəsinə təqdim etdiyi üç layihənin hər biri yüksək dəyərləndirilib. Belə ki, 2022-ci ildə agentliyin "Vətəndaş məmnunluğu monitorinq sistemi", "DOST Agentliyi ləyaqət və bərabər hüquqlar naminə" və "DOST: 65 yaşdan yuxarı şəxslərin sosial müdafiəsi" adlı layihələri müsabiqənin Müstəqil Beynəlxalq Münsiflər Heyətinin qərarı ilə fəxri diplomlara və attestata layiq görülüb. 2023-cü ildə isə DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi (RİM) Böyük Britaniyada keçirilən "Fin Tech Awards 2023" mqsabiqəsinin qalibi seçilib. DOST RİM müsabiqədə "Proaktiv ödənişlər mexanizminin mahiyyəti, sxemi və cəmiyyət üçün əhəmiyyətini əhatə edən məlumatlar" kateqoriyasında iştirak edib və "Dövlət sektoru üzrə proaktiv texnologiyanın aparıcı təminatçısı - 2023" mükafatını alıb. Müsabiqədə Azərbaycanın sosial sahə üzrə elektron uğurları, habelə ölkədə pensiya, müavinət və təqaüdlərin e-sistem üzərindən proaktiv təyinat mexanizmlərinin qurulduğu diqqətə çatdırılıb. Müsabiqənin tədqiqat komandası ölkəmizin təcrübəsini yüksək qiymətləndirib və mükafata layiq görüb. Qeyd edək ki, "Wealth & Finance International" maliyyə və ödənişlər sahəsində yenilikləri araşdıran və 2014-cü ildən eyniadlı jurnalda sosial sahədə yeni uğurlu təcrübələri paylaşan bir təşkilatdır.

DOST bir neçə gün əvvəl verilən beynəlxalq mükafata isə "Ən yaxşı sosial təsir" kateqoriyasında insan kapitalının idarə edilməsinə görə layiq görülüb. "Brandon Hall Group" tərəfindən təşkil olunan müsabiqəyə "Könüllü DOST" proqramının sosial müdafiə, məşğulluq, əlillik, əmək münasibətləri istiqamətlərində DOST xidmətlərinin idarəolunmasına, innovativ təşəbbüslərin reallaşdırılmasına və vətəndaş məmnunluğunun artırılmasına, eləcə də bərabərliyin və inklüzivliyin təmin olunmasına yönləndirmə təcrübəsi təqdim edilmişdi.

Mükafatın təqdimetmə mərasimi 2025-ci il yanvarın 28-30-da ABŞ-nin Florida ştatının Uest Palm Biç şəhərində baş tutacaq. "HCM Mükəmməllik Konfransı 2025"in (HCM Excellence Conference 2025) qala tədbirində ekspert və idarəçilər, media nümayəndələri, eləcə də müxtəlif təşkilatların rəhbər şəxsləri iştirak edəcəklər.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Gəncədə bu il birinci sinfə gedəcək şəhid övladları ilə görüş keçirilib

**Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının inzibati binasında birinci sinfə gedəcək şəhid övladları ilə görüş keçirilmişdir.**

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun, YAP şəhər təşkilatının sədri Bayram Aslanovun, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin məsul əməkdaşlarının, eləcə də şəhid ailələrinin iştirak etdikləri görüşdə ŞİH-in başçısı çıxış edərək Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə, müharibə iştirakçılarına və veteranlarına göstərdikləri diqqət və qayğıdan söz açmış, şəhidlərin məktəbli övladlarını yeni tədris ilinin başlanması münasibəti ilə təbrik edərək onlara uğurlar arzulamışdır.

Şəhid ailələri onlara göstərilən diqqətə görə minnətdarlıqlarını bildirmişlər. Sonda şəhid övladlarına məktəbli formaları təqdim edilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*



# Qərbi azərbaycanlılar əzəli yurd yerlərinə qayıtmalıdırlar

**Qərbi Azərbaycan İcması bəyanatlarında dəfələrlə bildirmişdi ki, Ermənistan törətdiyi soyqırımına görə məsuliyyətini etiraf etməli və sülh naminə zəruri addımlar atmalıdır.**

Ermənistan oradan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına şərait yaratmalı və dağıtdığı mədəni irsimizi bərpa etməlidir. Həmçinin Ermənistan azərbaycanlılara qarşı nifrət və ayrı-seçkiliyi aşılayan siyasətini dayandırmalı, müharibə cinayətləri və insanlıq əleyhinə cinayət törətmiş şəxsləri ədalət məhkəməsinə təslim etməli, azərbaycanlılara qarşı cinayətlərdə iştirak etmiş hərbi və siyasi xadimlərə, terrorçulara qoyulmuş abidələri sökməli və yer adları dəyişikliklərini ləğv etməlidir.

Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımlarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatdırılmışdır. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə müstəsna olaraq ermənilər yaşayırlar.

Qərbi Azərbaycan İcması 1988-1991-ci illərdə indiki Ermənistandan qovulmuş 50 mindən çox ailənin yarıdan çoxuna dəymiş ziyanı hesablamış, hazırda bu işlər dəqiqliyi ilə davam etdirilir. İcma yerlərdə ictimaiyyət nümayəndələri ilə keçirilən görüşlərdə Ermənistandan zorla qovulmuş soydaşlarımızın hər bir ailə üzvü və sənədləri ilə maraqlanır, Qayıdış Konsepsiyasının qayda və tövsiyələri ilə onları tanış edirlər. İndiyədək həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130-dan çox kəndin siyahısı hazırlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması üzərində ciddi iş aparır. Dədə-baba yurdlarından didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək məsələsini qarşıya qoyan Qərbi Azərbaycan İcması o yerlərdəki tarixi mədəni abidələrin, məhəllələrin taleyi ilə maraqlanır, həm də vaxtilə elindən-obasından zorla köçürülmüş, deportasiyaya məruz qalmış ailələrin nümayəndələri ilə görüşür, tarixin gizli və qaranlıq səhifələrinə aydınlıq gətirir. Araşdırmalardan məlum olur ki, yüz minlərlə azərbaycanlının öldürüldüyü soyqırımı aktları nəticəsində İrəvan quberniyasında vaxtilə əhalinin 80 faizindən çoxunu təşkil etmiş azərbaycanlılar artıq 1921-ci ildə həmin ərazidə etnik azlıq təşkil etməyə başlamışdır. 1948-1952, 1987-1991-ci illərdə aparılmış etnik təmizləmə nəticəsində azərbaycanlılar tamamilə oradan qovulmuşlar. Hazırda bir nəfər də olsun azərbaycanlı indi Ermənistan adlanan o ərazidə qalmayıb.

Ermənistandan olan çoxlu sayda azərbaycanlı etnik təmizləmə zamanı və eləcə



də torpaqlarımızın işğalı zamanı itkin düşmüşdür. Ermənistan tərəfindən törədilmiş məcburi itkindüşmələr insan hüquqlarının kobud şəkildə pozulmasıdır.

Ermənistan bu şəxslərin taleyi və harada olduğu barədə aydınlıq gətirməkdən, qətlə yetirdiyi azərbaycanlıların kütləvi məzarlıqlarının və digər dəfn yerlərinin dəqiq yerini açıqlamaqdan imtina edir və bununla onların ailələrinin yaşadığı ağrı və qeyri-müəyyənlik iztirabını daha da dözülməz edir.

Bu məcburi itkindüşmələr məsələsinə baxılması insan hüquqlarının müdafiəsi, ədalətin təmin edilməsi və sülh üçün zəruridir.

Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən məcburi itkindüşməyə məruz qoyduğu azərbaycanlıların taleyinə aydınlıq gətirməyi, bu məsələ üzrə Azərbaycanla tam əməkdaşlıq etməyi və məcburi itkindüşməni törətmiş şəxsləri ədalət məhkəməsinə təslim etməyi tələb edir.

Bütün tarixi sənədləri, arxiv materiallarını, habelə beynəlxalq hüququn norma və prinsiplərini görməzliyə vuran Ermənistandakı revanşist qüvvələr qərbi azərbaycanlıların qayıdış hüququnu pozmağa çalışırlar. Bu barədə qəzetimizə açıqlama verən Qərbi Azərbaycan İcması Ağsaqqallar şurasının sədr müavini, əməkdar elm xadimi, professor Vaqif Şadlinski deyir:

- Ermənistanda revanşist qüvvələrin, qondarma rejimin tör-töküntülərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü təhdid edən təxribatçı açıqlamalarını, o cümlədən Qərbdəki havadarlarına arxalanaraq yenə "beynəlxalq təminat altında Qarabağa qayıdış"dan dəm vuranların qərbi azərbaycanlıların qayıdış hüququnu danmasını kəskin şəkildə pisləyirik.

Qərbi Azərbaycan İcması son vaxtlar bir neçə dəfə Ermənistan hökumətindən öz ərazisində Azərbaycanın suverenliyinə qarşı çıxan qüvvələrin fəaliyyətinə son qoyulması ilə bağlı çağırış etmişdir. Görünən odur ki, Ermənistan hökuməti nəinki bu addımı atmır, əksinə, üzdə sülhdən danışaraq kənarda anti-Azərbaycan addımlarına rəvac verir.

Qərbi Azərbaycan İcmasının Ermənistanın suverenliyini və ərazi bütövlüyünü təhdid etmədiyi halda özünü "mühacirətdə olan hökumət" kimi qələmə verən qondarma rejimin tör-töküntülərinin, Ermənistanın sabiq xarici işlər nazirinin rəhbərlik etdiyi "repatriasiya komissiyası"nın Ermənistanda belə rahat fəaliyyət göstərməsi qəbuledilməzdir.

Yeri gəlmişkən, bir məsələni də qeyd edim: Qarabağda keçirilən antiterror tədbirlərindən sonra ləğv olunan qondarma rejimin qalıqlarının yenidən aktivlik nümayiş etdirməsinə görə Qərbi Azərbaycan İcması etiraz bəyanatı yayıb. Qurum bu bəyanatla separatçı rejimin təxribatçı addımlarına qarşı rəsmi Bakının qəti mövqe sərgiləyəcəyi mesajını verib. Amma görünən odur ki, qondarma respublikanın tör-töküntüləri bu xəbərdarlıqdan dərs çıxarmaq əvəzinə daha avantürist gedişlər edirlər. Belə ki, bir müddət əvvəl ləğv olunmuş revanşist rejimin sonuncu prezidenti Samvel Şahramanyan rəhbərlik etdiyi qurumun buraxılması haqqında imzaladığı sənədin Konstitusiyaya zidd olduğunu bildirib. Üstəlik, tələb edib ki, Qarabağdan öz istəyi ilə gedən əhali beynəlxalq zəmanətlərlə geri qayıtmalıdır. Bundan əlavə, din xadimləri də mütəmadi olaraq erməni xalqını "ədalət"i bərpa etməyə səsləyir. Sual olunur, bəs bu "ədalət carçıları" Qərbi Azərbaycan torpaqlarından, min illərlə yaşadıqları dədə-baba yurdlarından qovulanların öz doğma yurduna qayıdışı haqqında niyə ədalətli danışmırlar? Bəzən də "bu məsələyə sonradan baxarıq" deyə riyakarcasına yalan danışmaq, prosesi əngəlləmək mövqeyndən əl çəkmirlər.

Bu günlərdə Ermənistan parlamentində Qarabağla bağlı yeni qalmaqal yarandı. "Ermənistan" fraksiyasının üzvü Artsvik Minasyan iclasda Azərbaycana qarşı separatçı təklif irəli sürüb. O, "Ermənistan-artsax parlamentlərarası komissiyası"nın iclasının çağırılmasını məsləhət gördü. Parlamentin spikeri Alen Simonyan isə Minasyana xatırladıb ki, qondarma respublika özünü ləğv edib və hazırkı münasibətlər sistemi buna uyğun qurulur. Amma müxalif deputat onunla razılaşmayıb. İddia edib ki, heç kim belə bir qərar verə bilməz. Bundan sonra tərəflər arasında mübahisə yaranıb. Parlamentdə yaranan bu xaos son dövrlər separatçıların aktivləşdiyinin bariz sübutudur.

Bütün bunlar faktiki olaraq yeni müharibənin başlaması istiqamətində atılan təhrikedici addımlar hesab oluna bilər. Ermənistanda Azərbaycanla sülh müqaviləsinin imzalanmasını istəməyən daha çox xarici qüvvələrdir. Onlar hər vəchlə çalışırlar ki, Cənubi Qafqazda sülh və sabitlik olmasın. Bu xüsusda "qoca qitə" sistemli şəkildə Qarabağdan könüllü gedən ermənilərin geri qayıdışı ilə bağlı qərəzli və həqiqəti əks etdirməyən bəyanatlar yayır. Gündə min sifətə girən Nikol Paşinyanın isə gah gizlin, gah aşkar Qarabağdakı separatçılara dəstəyi beynəlxalq hüququn normalarına tamamilə ziddir. Çünki separatizm bütün dünyada qəbul olunmur. Paşinyanın bu addımı isə onun sülhə maraqlı olmadığını təsdiqləyir.

Ermənistan Qərbi Azərbaycandan olan qaçqınların geri qayıdışını müvəqqəti əngəlləməyə çalışsa da, bunun da bir sonu olacaq. Paşinyan da, İrəvanda yaşayan uşaqdan-böyüyə hamı bilməlidir ki, hər şeyin zamana ehtiyacı var, gec-tez yurd sahibləri öz elinə-obasına qayıdacaqlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

**Yeni tədris ili qarşısında**

# Qarabağ Universitetinin tərtərli ilkinləri

## Onlar bu ali təhsil ocağının tələbələri olmaları ilə fəxr edirlər

**Bugünkü gənclər Qarabağı böyüklərin sözündən-söhbətindən tanıyıb seviblər, sonra da Vətən müharibəsində qanlarıyla, canlarıyla bu sevgini sübut ediblər. Şəhid olublar, yaralanıblar, ancaq bu sevgidən dönməyiblər, Qarabağda, Şərqi Zəngəzurda Azərbaycan bayrağını dalğalandırıblar. Şəhidlərimizin, igid oğulların qanı tökülən o torpaqlar bu gün hər birimiz üçün müqəddəsdir.**

**Artıq Böyük qayıdış başlayıb. Kimi Qarabağa ziyarətə gedir, kimi qurub-abadlaşdırmağa, kimi də ali təhsil almağa... Qarabağ Universitetini seçən 7 nəfər tərtərli gənc kimi.**



**Aynurə Mirzəlizadə** Əskipara kənd tam orta məktəbini qırmızı attestatla bitirib. II qrup üzrə imtahan verərək ümumilikdə 445 bal toplayıb. Qarabağ Universitetinin İqtisadiyyat fakültəsində təhsil alacaq.

Aynurə deyir:

- Qarabağ Universitetinin rektoru Şahin Bayramov rayonumuzda orta məktəbi bitirmiş gənclərlə görüş keçirəndə mən də həmin tədbirdə iştirak edirdim. Elə o görüşdə də Xankəndidə oxuyacağıma qərar verdim.

Aynurə bildirdi ki, artıq bir dəfə Xankəndi şəhərini ziyarət edib. İşğaldan azad olmuş o müqəddəs yerləri öz gözləri ilə görmək onu həm həyəcanlandırıb, həm də qürurlandırıb: "Xankəndi gözəl şəhərdir. Əminəm ki, təhsil illərimiz çox maraqlı və səmərəli keçəcək. Biz elmin sirlərinə yiyələnərək, Azərbaycan gəncliyinin nəyə qadir olduğunu göstərəcəyik".

**Emil Əhmədli** 44 günlük Vətən müharibəsi veteranı Elşən Əhmədovun övladıdır. Bir oğul kimi atasının və hər bir Azərbaycan əsgərinin, zabitinin keçdiyi şərəfli döyüş yolu ilə fəxr etdiyini söyləyir. Deyir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi



ilə Azərbaycan Ordusu Qarabağ torpaqlarını düşməndən tamamilə azad edib milyonların arzusunu həqiqətə çevirib: "O torpaqları abadlaşdırmaq, ermənilərin xaraba qoyduqları şəhər və kəndləri cənnətə döndərmək isə biz gənclərin vəzifəsidir. Bundan ötrü oxumaq, savadlı kadr kimi yetişmək lazımdır".

Tərtər şəhər 6 saylı tam orta məktəbin məzunu olan Emil buraxılış imtahanlarından ümumilikdə 595,9 bal toplayaraq Qarabağ Universiteti İqtisadiyyat fakültəsinin maliyyə ixtisasını seçib. Orta məktəbi qırmızı attestatla bitirən Emil arzu edir ki, universitetdə təhsil aldığı birinci ildə ingilis dilini yaxşı öyrənsin və təhsilini bu dildə davam etdirsin: "Xarici dili öyrənməyimiz bizə dünyaya çıxışı təmin edəcək. İndiki dövrdə bu, çox vacibdir. Vətənimizə daha çox xeyir vermək üçün biz dünya təcrübəsini öyrənməliyik".

Atası Elşənin də fikirlərini öyrəndik. Dedi ki, ailədə üç övlad böyüyür: "Aysel Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsidir. Emil bu il bizi çox sevindirdi. Qarabağ Universitetinin ilk tələbələrindən oldu. Kiçiyimiz isə hələ məktəblidir. Övladlarımızı vətənpərvər böyütməyə çalışırıq. Mənə elə gəlir ki, biz buna layiq olmuşuq. Birazdan hamılıqla azad olmuş ərazilərə gedəcəyik. Döyüşdüyüm yerləri övladlarıma göstərəcəyəm, döyüş yoldaşlarımdan danışacağam. Şəhidlərimizə Allah rəhmət eləsin. Məhz onların qəhrəmanlığı sayəsində biz bu xoşbəxt günləri yaşaya bilirik. Allah Prezident İlham Əliyevə cansağlığı versin. Məhz onun "dəmir yumruğ"u, xalqın onun ətrafında birləşməsi sayəsində indi ölkəmizdə əmin-amanlıqdır".

Emil isə onun üzərində zəhməti olan hər kəsə təşəkkürünü bildirdi. Dedi ki, müəllimlərini çox sevir, xüsusilə ibtidai sinifdə ona dərs deyən Sevda müəllimi heç zaman unutmayacaq. Yiyələndiyi bütün biliklər onun qurduğu möhkəm bünövrə üzərində dayanır: "Valideynlərimə də çox minnətdaram. Onlar mənə hər zaman inanıblar, uğur qazanmaq üçün mənəvi dəstək veriblər".

620 balla Qarabağ Universitetinin Hüquqşünaslıq fakültəsinə daxil olan **Leyla Məmmədova** Cəmilli kəndindəki məktəbdə təhsil alıb.



Deyir ki, torpaqlarımızın azad edilməsi və Azərbaycanımızın bütövləşməsi gənclərin də həyatını dəyişdirdi. "Axı qalib xalqın övladı olmaq qürurvericidir. Bu hadisədən sonra özümüzə də, qarşımıza qoyduğumuz hədəflərə də yeni gözlə baxmağa başladıq" deyən Leyla onu da bildirdi ki, uşaqlıqdan xarici dillərə böyük marağı olub: "Düşünürdüm ki, Azərbaycan Dillər Universitetində təhsil alacağam. Ancaq eşidəndə ki, Xankəndidə Qarabağ Universiteti açılıb, fikrimi dəyişdim. Axı gözümüzü açandan valideynlərimizin Qarabağ həsrəti ilə yaşadığını görmüşdük. İndi Qarabağ torpağında oxumaq, yaşamaq imkanı varsa, bu, arzularımızın, yuxularımızın gerçəkləşməsidir. İngilis dilini yaxşı bilsəm də, daha da mükəmməl öyrənməyə çalışacağam. Hüquq elmlərini mənimsəyəcəyəm. Bunların hamısı ölkəmiz üçün gərəklidir".

Leyla dediklərinə bunu da əlavə etdi ki, bu gün Azərbaycan dünyada günəş kimi parlayır: "Ancaq bizi istəməyənlər, ağı qara kimi göstərmək istəyənlər var. Onlara öz savadımızla, vətənpərvərliyimizlə cavab verməliyik".

Şəhər 5 saylı orta məktəbi uğurla bitirib Qarabağ Universitetinə daxil olan gənclərdən biri də **Nərmin Səfərlidir**.



- Qarabağ işğaldan azad ediləndən babamı tanıya bilmirəm. Elə xoşbəxt, elə sevinclidir ki! Hələ eşidəndə ki, Xankəndidə Qarabağ Universiteti açılır, ilk sözləri bu oldu: "Nərmin, yaxşı hazırlaş, yüksək bal topla və həmin universitetin tələbəsi ol". Bunun ardınca Qarabağ Universitetinin rektoru Şahin Bayramov Tərtərdə, bizim məktəbdə məzunlarla görüş keçirdi. Həmin görüşə mən babamla getdim. Şahin müəllim universitetdə tələbələrə yaradılacaq şəraitdən danışdıqca babamın sevinci artırdı. Sonra bizə söz verdilər. Mən rayon rəhbərinin, universitet müəllimlərimin, öz müəllimlərimin və yoldaşlarımın qarşısında söz verdim ki, imtahanlardan yüksək bal toplayıb Qarabağ Universitetini seçəcəyəm. Belə də oldu. 513 balla Qarabağ Universitetinin Azərbaycan dili və ədəbiyyatı müəllimliyi fakültəsinə daxil oldum. Mənim bu uğurumda əziyyəti olan bütün müəllimlərə ürəkdən təşəkkür edir və qürur duyuram ki, onların da, valideynlərimin də etimadını doğrultdum", - deyə Nərmin həvəslə ürək sözlərini söylədi. Sonra da əlavə etdi ki, bu gün Qarabağa təhsil dalınca gedir: "Gələcəkdə isə savadlı mütəxəssis kimi burada yaşayan, böyüyən gənc nəslin təlim-tərbiyəsinə öz töhfəmi vermək fikrindəyəm. 30 il düşmən tapdağı altında inləyən torpaqlar yolumuzu gözləyir. Buranın səmasında şəhid ruhları var. Biz onlara layiq olmalıyıq. İnanıram ki, öhdəmizə düşən vəzifəni layiqincə yerinə yetirəcəyik. Bilirəm ki, universitetdə bizim üçün hər cür şərait yaradılır. Buna görə dövlət başçısına, sevimli Mehriban xanıma, Qarabağ Universitetinin bütün kollektivinə ailəmiz adından təşəkkür edirəm".

**Rəna Qarazadə** 463 balla Qarabağ Universitetinin İbtidai sinif müəllimliyi fakültəsinə daxil olub. Qardaşı Murad isə ötən il 610 balla İqti-



sad Universitetini seçib. Murad məktəb illərində həm respublika olimpiadasının, həm də bir sıra beynəlxalq olimpiadaların qalibi kimi böyük uğurlar qazanıb.

Rənanın təhsil aldığı Mamırlı kənd tam orta məktəbinin direktoru Əli Əzimov deyir ki, Murad da, Rəna da məktəbimizin fəxridirlər: "Biləndə ki, Rəna Qarabağ Universitetinə daxil olub, qürur duyduq. Ona görə ki, məktəbimizin məzunu bu təhsil ocağının həm ilk tələbələrindən, həm də ilk məzunlarından olacaq. Bu yolda ona uğurlar arzulayırıq".

**Nahidə Əbilova**nın atası Qərbi Azərbaycanın Vedi rayonunda dünyaya gəlib. Uşaqkən ailəsi zorla yurdlarından qovulub.



Ata Əjdər Əbilov deyir ki ailələri deportasiyaya məruz qalanda 1-ci sinifdə oxuyurmuş: "Dolu ev-eşiyimizi qoyub Tərtər rayonunun Bəyimsarov kəndinə köçdük. İllər keçsə də, öz kəndimizi, evimizi unuda bilmirəm. Qarabağın işğaldan azad edilməsi ilə qəlbimizdə yaşayan ümidlər artıb. Əminəm ki, gün gələcək, biz də öz dədə-baba torpaqlarımıza qayıdacağıq.

Bəyimsarov kənd orta məktəbinin məzunu, Qarabağ Universitetinin tələbəsi Nahidə:

- Düşmən tapdağından azad edilmiş Qarabağda təhsil almaq həm böyük şərəf, həm də məsuliyyətdir. İbtidai sinif müəllimliyi üzrə təhsil alacağam. Seçimimə mənə yazıb-oxumağı öyrədən, əlimdən tutub elmin yollarına çıxaran Rübabə müəllimin də təsiri olub. Eyni zamanda bütün məktəb müəllimlərimə, valideynlərimə təşəkkürümü bildirirəm.

Nahidə onu da söylədi ki, Böyük qayıdış proqramının həyata keçirilməsi ilə bağlı Qarabağda və Şərqi Zəngəzurda savadlı gənc kadrlara ehtiyac var. İllər quş qanadlı olur. Gün gələcək, o da universiteti bitirib bu müqəddəs torpaqlarda uşaqların təlim-tərbiyəsi ilə məşğul olacaq.

**Fəridə Şükürova**nın nənəsi erməni işğalına qədər Ağdam rayonunda yaşayıb: "Mən



Qarabağ haqqında nənəmin şirin və eyni zamanda kədərli söhbətləri ilə böyümüşəm. Özümü xoşbəxt hesab edirəm ki, indi Qarabağ Universitetinin Turizm işinin təşkili fakültəsində təhsil alacağam. O yerlərə ayaq basacağım günü səbirsizliklə gözləyirəm. Bilirəm ki, universitetdə təhsil almağımız və rahat yaşamağımız üçün hər cür şərait yaradılıb. Buna görə Prezident İlham Əliyevə, gənclərə böyük qayğı və həssaslıqla yanaşan Mehriban xanım Əliyevaya ailəmiz adından təşəkkürümü bildirirəm. İxtisasım ürəyimcədir. Qarşıma məqsəd qoymuşam ki, ilk növbədə ingilis dilini öyrənim. Müasir dövrdə bunsuz perspektiv yoxdur".

***Lazım QULİYEV,***
***"Azərbaycan"***




# 8-ci dəfə





**Paytaxtımız Bakı sayca 8-ci dəfə möhtəşəm bir tədbirə - "Formula-1" Azərbaycan Qran-prisinə evsahibliyi edir. Sürətsevərlər planetin ən güclü 10 komandası və 21 pilotunun əzmkar mübarizəsinin şahidi olacaqlar. Yarışın keçiriləcəyi Bakı Şəhər Halqası bəzi xüsusiyyətlərinə görə digər "Formula-1" treklərindən seçilir. Şəhərin müasirliyi ilə tarixiliyini özündə birləşdirən Bakı Şəhər Halqası şəhər trekidir və digərləri ilə müqayisədə burada maksimal sürətin qeydə alınacağı gözlənilir.**

## Pilotlar yarışa, bolidlər isə trekə hazırdırlar





Pilotların yarışacağı avtomobillər - bolidlər də tam hazır vəziyyətdədir. Pilotların yarışacaqları trekdən qalib ayrılmaq üçün bütün güclərini səfərbər edəcəkləri şübhəsizdir.

Digər Qran-prilərdə olduğu kimi, paytaxtımızda yarışacaq komandalar da reqlamentə əsasən bu gün hər biri 1,5 saat davam edəcək iki sərbəst yürüşdə trasla tanış olacaq, maşınları yarışa hazır vəziyyətə gətirəcəklər. Şənbə günü səhər sürücülər bir saatlıq məşq keçəcəklər. Adətən nahardan sonra sıralanma turu və ya təsnifat mərhələsi təşkil olunur. Bu turun yekun nəticəsinə görə, sürücülərin bazar günü keçiriləcək yarışda start düzümü formalaşır.

Bakı küçələri 2016-cı ildən bəri 306 yarış dövrəsi boyu çoxlu hadisələrə şahid olub. Dramatik vəziyyət, trekdə qəzalar, partlayan təkərlər, bəzən aqressiya ilə müşahidə olunan qalibiyyət və məğlubiyyətlər yarışın xarakterik xüsusiyyətləridir. Son altı yarışda qalib gəlmiş altı fərqli pilot eyni zamanda yarışın ən sürətli dövrəsinə imza atıb. İndiyədək Bakıda azarkeşlər bir çox hadisəyə - trek insidentlərinə, çoxsaylı qırmızı bayraqlara və təhlükəsizlik maşınlarına şahid olublar. Bundan əlavə, yarışlardan yalnız birində hər dövrəyə liderlik edən bir lider pilot olub. Orta hesabla hər il keçirilən Azərbaycan Qran-prisində yarış boyu ilk üç pilot liderlik üzrə mübarizəyə qoşulub. Daha gərgin liderlik mübarizəsi ilə yadda qalan 2021-ci il yarışında isə bu rəqəm beşə yüksəlib.

Artıq dünyadakı "Formula-1" həvəskarları bu yarışı Bakısız təsəvvür etmirlər. Xüsusi olaraq inşa olunmuş Bakı Şəhər Halqası bu yarışlarda özünəməxsusluğu ilə seçilir. Trekin uzunluğu 6 kilometrdən bir qədər artıqdır. Bu, uzunluğuna görə dünyada ikincidir.

Unikal xüsusiyyətlərə sahib olan Bakı Şəhər Halqası ətrafındakı tribunaların sayı doqquzdur. Bunlar "Abşeron", "Azneft, "Muğam", "Sahil", "İçərişəhər", "Qız qalası", "Bulvar", "Xəzər" və "Filarmoniya" tribunalarıdır. Həmçinin ayaqüstü zonalar üçün də bilet satışı həyata keçirilir. Ümumi tamaşaçı tutumu (ayaqüstü zonalar daxil olmaqla) 30 minə yaxındır. Trekin ən geniş yeri 13 metrdir, ən dar hissəsi isə İçərişəhər ətrafında olan bölmələrində yerləşir. Ən ensiz hissəsi 7,6 metrdir (Qoşa qala divarlarının yanı). Start xətti Azadlıq meydanında başlayıb, finiş xətti isə Abşeron tribunasının qarşısında tamamlanır. Təyin olunan trekboyu döngələrin sayı 20-dir.

"Formula-1" yarışlarının yaranma tarixi XX əsrin 20-ci illərinə təsadüf edir. 1920-30-cu illər təşkil olunan Avropa Qran-pri turnirləri qısa müddət ərzində böyük marağa səbəb olur. Lakin İkinci Dünya müharibəsinin başlaması ilə bu yarışlara da fasilə verilir. Yalnız müharibədən sonra yenidən aktiv fəaliyyətə başlayan FİA, "Formula" yarışlarına yeni qaydalarla start verilir.

Bu növ üzrə ilk rəsmi dünya çempionatı isə 1950-ci il mayın 13-də İngiltərənin Silverstoun trekində təşkil olunub. Britaniya kral ailəsinin də maraqla izlədiyi turnirdə 21 bolid qələbə uğrunda mübarizə aparıb. Həm təsnifat, həm də əsas mərhələdə finiş xəttinə birinci gələn "Alfa Romeo"nun italiyalı pilotu Cüzeppe Nino Farina "F1" yarışının ilk qalibi kimi tarixə düşüb. Birincilik uğrunda mübarizədə onun əsas rəqibi komanda yoldaşı, argentinalı Xuan Manuel Fanxio olub. Lakin sonralar X.M.Fanxio bu məğlubiyyətin əvəzini yetərincə çıxıb. Belə ki, o, karyerası ərzində 5 dəfə (1951-ci, 1954-cü, 1955-ci, 1956-cı və 1957-ci illərdə) dünya çempionu adını qazanmaqla rəqiblərinə aman verməyib.

Hər il "Formula-1" üzrə dünya çempionatı çərçivəsində Qran-pri adlanan bir neçə mərhələ yarışı keçirilir. Bu mərhələlər müxtəlif ölkələrdə, o cümlədən Avstraliya, Monako, Bəhreyn, İspaniya və digər ölkələrdə təşkil edilir.

Dünyada geniş tamaşaçı auditoriyasına malik olan bu turnirlər izlənmə sayına görə yalnız Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarının maraq dairəsində olan "Formula-1" Qran-priləri bir zamanlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanın dörd bir tərəfində təşkil edilir. "Formula-1"də qələbə uğrunda komandalar və heyətində pilotlar mübarizə aparır. Hər komandada iki pilot və buna müvafiq olaraq iki bolid olmalıdır. Mövsümboyu keçirilən "Formula-1" Qran-pri yarışlarında ən çox xal toplayan pilot dünya çempionu olur.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## Xarici jurnalistlər üçün mediatur təşkil edilib









"Formula-1" Azərbaycan Qran-prisinə gələn xarici media üçün tur təşkil edilib. Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən (BŞH) AZƏRTAC-a verilən məlumata görə, hər il böyük maraqla qarşılanan tur jurnalistlərə yarış həyəcanı ilə yanaşı, Azərbaycanın zəngin tarixi və təbiəti ilə tanış olmaq fürsəti yaradıb.



Mediatur UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş Qobustan Milli Tarix-Bədii Qoruğundan başlayıb. Qoruq ərazisində yerləşən muzeylə tanış olan xarici jurnalistlərə Azərbaycanın tarixi və qədim qayaüstü təsvirləri haqqında ətraflı məlumat verilib.

Palçıq Vulkanları Turizm Kompleksində davam edən turda xarici media nümayəndələri palçıq vulkanlarının xüsusiyyətləri və maketi ilə tanış olublar. Sərgi zalı və emalatxananı ziyarət edən jurnalistlərə mərkəzdə Azərbaycanın müxtəlif bölgələrindən toplanmış 80-ə yaxın nadir mineral haqqında məlumat verilib.

Mediatur İçərişəhərdə yekunlaşıb. Burada xarici media nümayəndələri İçərişəhərin qədim küçələri və tarixi ilə tanış olublar.

Qeyd edək ki, "Formula-1" Azərbaycan Qran-prisi-2024-ü 300-ə yaxın yerli və xarici media nümayəndəsi işıqlandıracaq.

## Azarkeşləri sürprizlər gözləyir



Bu gün "Formula-1" Azərbaycan Qran-prisi başlayır. AZƏRTAC xəbər verir ki, Bakı Şəhər Halqası (BŞH) rekord sayda azarkeşi qarşılamağa hazırdır.

Əvvəlki illərdən fərqli olaraq, azarkeşlər bu il "Formula-1"in məşhur bütün əyləncəli aktivasiyalarını Bulvar ərazisində görə biləcəklər. Ən populyar aktivasiyalardan biri "Pit Stop Challenge"dir. Burada azarkeşlər "F1" bolidinin təkərlərini mümkün olan ən qısa zamanda dəyişməyə çalışırlar. Günün ən sürətli komandası mükafatlar, o cümlədən imzalı əşyalar və paddok turu qazanmaq şansı əldə edəcək.

Hər il olduğu kimi, Dənizkənarı bulvar ərazisində yerləşən azarkeş zonasında Fan-Forum keçiriləcək. Burada səhnənin qarşısında təşkil olunan sessiyada dünyaşöhrətli "F1" pilotları avtoidman həvəskarları ilə görüşəcək. Komandalar üçün ayrılmış vaxt ərzində azarkeşlər "F1" ulduzlarına öz suallarını verib, onlardan avtoqraf almaq və şəkil çəkdirmək imkanı əldə edəcəklər.

Fərqli texnoloji təcrübələri sevənlər üçün isə "Giant Helmet" çox maraqlı olacaq. Fanatlar nəhəng "F1" dəbilqəsinin köməyi ilə virtual reallıqda öz sürücü dəbilqələrini dizayn edəcək və bu unikal təcrübəni sosial mediada paylaşa biləcəklər.

"Ninja əngəl zolağı" fiziki aktivlik axtaranlar üçün idealdır. Hər yaş üçün uyğun olan bu zolaqda fanatlar müxtəlif maneələri dəf edərək əylənəcəklər.

"Formula-1" yarışlarının həyəcanı ilə sirkin möcüzəsi bir araya gəlir. Yarış həftəsində akrobatlardan illüziya ustalarına qədər valehedici çıxışlarla dolu möhtəşəm sirk abu-havasını yaşanacaq.

Əyləncənin ekstremal tərəfi isə motosikletçilərin sürət və cazibə qanunlarını pozaraq nəhəng qlobusda 70 kilometr-saat sürətlə yarışmasıdır. Onların təhlükəli döngələri adrenalin dolu anlar yaşadacaq.

Bu il yarış həftəsonu "Bakı Kristal Zalı"nda təşkil olunacaq dünya ulduzlarının konsertləri ilə davam edəcək.

## Azərbaycan Qran-prisinin qalibi: "Bakıdakı yarışı səbirsizliklə gözləyirəm"



"Bakıdakı yarışı səbirsizliklə gözləyirəm". AZƏRTAC xəbər verir ki, bu sözləri "Alpha Tauri" komandasının pilotu Daniel Rikkardo sabah start götürəcək "Formula-1" Azərbaycan Qran-prisi barədə danışarkən deyib.

Avstraliyalı sürücü yarışın komandası üçün vacib olduğunu bildirib: "Bu, əsl trekdir. Yarış zamanı cəld və doğru qərar verməlisiniz. Komandamız Faentsa şəhərində əlindən gələni etdi. İndi bəzi yenilikləri sınamaq üçün səbirsizlənirəm. Ciddi sınaq olacaq, amma əminəm ki, bir neçə xal toplayacağıq".

Qeyd edək ki, Daniel Rikkardo 2017-ci ildə "Red Bull" komandasının heyətində Azərbaycan Qran-prisinin qalibi olub. "Formula-1" Azərbaycan Qran-prisi-2024 sentyabrın 13-15-də keçiriləcək.

## *"Formula-1" eksperti:*
## "Azərbaycan Qran-prisi ölkəmizin turizm potensialını artırır"

"Formula-1" Azərbaycan Qran-prisini digər ölkələrdə keçirilən yarışlardan fərqləndirən cəhət trekin şəhərdə olmasıdır".



Bu sözləri AZƏRTAC-a açıqlamasında "Formula-1" eksperti və şərhçi Siyavuş Əliyev Bakının 8-ci dəfə evsahibliyi edəcəyi "Formula-1" Azərbaycan Qran-prisi barədə danışarkən deyib.

O, paytaxtımızda keçirilən yarışın spesifik xüsusiyyətlərə malik olduğunu bildirib: "Şəhər trası olduğu üçün kiçik səhv pilotun yarışdan kənarda qalmasına şərait yaradacaq. Amma digər ərazilərdə səhv etdiyin halda nəyəsə ümid etmək olar. Adətən trasla yeni tanış olan pilotlar çətinliklərlə üzləşə bilirlər. Lakin zaman keçdikcə hər şey qaydasına düşür. Digər çətin məsələ uzun düzlüklərin və 90 dərəcəli dar döngələrin olmasıdır. Bu da mühəndis və mexaniklərə müəyyən problem yaradır. Çünki sazlanmada balansı qorumaq çətin olur".

Siyavuş Əliyevin fikrincə, "Formula-1" Azərbaycan Qran-prisi ölkənin turizm potensialının artmasına səbəb olur: "Bildiyiniz kimi, bu yarışın milyard yarımdan çox televiziya izləyicisi var. Bu da Azərbaycana böyük öhdəliklər verir. "Formula-1" və bəzi velosiped yarışları sanki turizmin inkişafına hesablanmış idman növləridir. Xüsusilə də "Formula-1"i qeyd etmək olar. Məsələn, Meksikadan Serxio Peres, Avstraliyadan Daniel Rikkardo və İngiltərədən Lüis Hemiltonun Azərbaycan Qran-prisinin qalibi olmaları həmin ölkələrin Bakıya marağını daha da artırıb".

Qeyd edək ki, "Formula-1" Azərbaycan Qran-prisi sentyabrın 13-15-də keçiriləcək.




TARİXİN İZİ İLƏ

**Qədim ağa Bədirbəyli bölgənin tanınmış mülkədarlarından olub. O, 1855-ci ildə Yelizavetpol (Gəncə) quberniyası Şəmkir dairəsinin Morul kəndində doğulub. 1882-ci ildə, 27 yaşındaykən adlı-sanlı nəsildən olan Güllü xanımla ailə qurub. Bu izdivacdan cütlüyün 11 övladı - beş oğlu (Xəlil ağa, Zeynal ağa, Hadı bəy, Həni bəy, İslam bəy), 6 qızı (Əsli, Xanım, Yəmən, Səlfinaz, Nisə, Həmayə) olmuşdur.**



# İşgəncələrlə öldürülən dəstə başçısı

Hündürboy, dolubədən, pəhləvan cüssəli Qədim ağanın 80 desyatindən (87,2 hektar) çox torpağı, əkin-biçin və örüş yeri, mal-qarası, at ilxısı, qoyun sürüləri var idi. Qoçaq, təəssübkeş və haqq yolunda olan adam kimi tanınan Qədim ağa 1900-1919-cu illərdə ətrafına xeyli adam toplayıb dəfələrlə Göyçə mahalına və Qarabağa - yerli əhaliyə hücum edən daşnak-erməni silahlılarına qarşı vuruşmuşdu. Çünki çar Rusiyası tərəfindən məqsədli şəkildə Cənubi Qafqazın münbit, suyu bol, havası təmiz dağlıq və dağətəyi ərazilərinə, o sıradan Qarabağa, Gəncəbasara və Göyçə mahalına köçürülən ermənilər həmin yerlərin həqiqi sahiblərini hər cür vasitələrlə sıxışdırır, yerli müsəlman əhalini terrora məruz qoyur, öz evlərindən didərgin salır, qəfil hücumlar edərək uşaqdan-böyüyə hamını vəhşicəsinə qətlə yetirərək əlavə torpaqlar ələ keçirirdilər.

Qədim ağa Gəncədə yaradılan "Müdafiə" və "Qeyrət" özünümüdafiə təşkilatlarının, habelə Ələkbər bəy Rəfibəylinin və Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında fəaliyyət göstərən "Difai"nin vuran əli idi. Əmisi oğlu Hüseyn bəyin təşkilatçılığı ilə "Müsavat"ın Şəmkirdə özəyi yaradılanda müsavata üzv yazılmışdı.

...İmperiya qüvvələri tərəfindən Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldıqdan və qəddarlıqla qarşısı alınan Gəncə üsyanından sonra bolşevik Əliheydər Qarayev və İbrahim Əliyev yerli əhalinin onlara asanlıqla tabe olmayacağını bilib rus ordusunun Gürcüstanın Rustavi yaşayış massivi ətrafında yerləşən hərbi bazasından böyük bir hissəni bölgəyə gətirmək, dörd il bundan əvvəl Qədim ağanın, Səməndər ağanın və Süleyman ağanın gücünə Şəmkirdən qovulan çar ordusunun saxlandığı ərazidə yerləşdirmək istəyirdilər.

Rus əsgərlərinin Qazaxı keçib, Tovuz tərəfdən Şəmkirə doğru irəlilədiyini eşidən əhali daha da vahimələnmişdi. Gəncə üsyanından salamat və yaralı dönən bəzi şəmkirlilər, ilk növbədə "Müsavat"ın yerli özəyinin başçısı Hüseyn bəy, böyük nüfuz sahibi Səməndər ağa, Qədim ağa, Süleyman ağa və başqaları qabağa düşüb camaatı səfərbər edərək rus ordusunu Şəmkirə buraxmamağa söz vermişdilər. Silahı olanlar silahlanmış, olmayanlar da əlinə bel, yaba götürüb qiyamçılara qoşulub son nəfəsədək vuruşacaqlarını bildirmişdilər. Xəbərdən xəbəri olanlar - Zəyəmətrafı kəndlərdən, Qaranüydən, Dəllərdən, Keçilidən, Qaracəmirlidən, Qapanlıdan, Koltəhnəlidən, Təzəkənddən və digər yerlərdən buraya gəlmişdilər. Onların bir hissəsinə Süleyman ağanın oğlu İsfəndiyar ağa Bədirbəyli rəhbərlik etmişdi.

... Zəyəmdən çıxan hərbçilər atlı-arabalı magistral yolda xeyli irəlilədilər, elə ki, kolonun sonu göründü, yolun sağında və solunda pusquda duran əhali dörd bir yandan hücuma keçdi. Güllə səsindən, at kişnərtisindən qulaq batırdı, barıt iyindən nəfəs almaq olmurdu. Atışmanın şiddətli vaxtı günortaya yaxın Şiştəpə yolunun üstündə Daşdəmirli mülkünə düşən mərmi tikilini xarabazarlığa çevirdi. Əhalinin sıx yaşadığı ərazilərə atılan top mərmiləri böyük dağıntıya və yanğına səbəb oldu. Ot və saman tayalarının alovu göylərə dirənirdi. Şəhərə böyük ziyan dəydi, xeyli insan yaralandı və öldü. Təəssüflər olsun ki, rus ordusuna qarşı çıxan silahlı camaata rəhbərlik edən Qədim ağa, İsfəndiyar ağa və çoxsaylı tərəfdaşları bolşevik ordusunun qabağında duruş gətirə bilmədilər, şər qarışanda geri çəkilməyə məcbur oldular. Ordu rəhbərləri qarşıdurmanın gecə yenidən baş qaldıracağından ehtiyat edərək Şəmkirə dönməyib, birbaşa Gəncəyə getdilər.

Qiyamdan sonra qəzəbi birə-iki artan bolşeviklər əvvəlcə satqınlar vasitəsilə qiyamın təşkilatçılarını və qiyamda iştirak edən tanınmışların kimliyini öyrəndilər, yerli əhaliyə qarşı cəza tədbirlərini gücləndirdilər.

Qara siyahıya salınmış Qədim ağanın ailəsinin başı üzərində qara buludlar dolaşırdı. Odur ki, ailə üzvləri gözə görünməmək üçün eldən-obadan uzaq gəzir, tez-tez yerlərini dəyişir, dost-tanış yanında gizlənirdilər.

1920-ci ilin payızında Qədim ağa və oğlanları Şura hökuməti tərəfindən həbs edilərək, Morul qəbiristanlığının yaxınlığında kənd Şurası yerləşən binanın zirzəmisinə salınırlar. Bu zaman Qədim ağanın uşaqlıq dostu, Şura sədri işləyən Piri oğlu Əli gecə idarədə yerli bolşeviklərdən heç kim olmayanda əsgərlərə Qədim ağanı göstərərək "Bunu səhv gətiriblər, bu muzdurdur " deyir, çiynindən itələyə-itələyə oğlanları ilə birlikdə çölə çıxarır və işarə edir ki, qaçın, canınızı qurtarın.

Qədim ağa gizlin sığınacaq üçün hansı qapıya gedirsə alınmır, nəinki dost-tanış, heç qohumlar belə qorxudan ona yaxın durmurlar. Əli hər yerdən üzülən Qədim ağa məcbur olub qışın qarlı-şaxtalı gecəsində Moruldan xeyli aralıda yerləşən Dağ İrmaşlı kəndinə, uzaq tanışı, məşhur qaçaq, sonradan yeni quruluşun tərəfdarına çevrilən Kor Atakişinin üstünə gedir. Onun köməyi ilə ailəsini hamıdan gizlin kənddən-kəsəkdən aralı almanlardan qalma mal tövləsində yerləşdirir. Bundan iki gün sonra Kor Atakişinin himayədarlığı sayəsində Moruldan adlı-sanlı mülkədar Məşədi Zalın beşnəfərlik ailəsi də burada gizlənməli olur.

Qədim ağa hərdən gecələr Morula gedib rəncbər və çobanlarla gizlin görüşür, haqq-hesab edirdi, onlara dükan-bazardan müəyyən ərzaq aldırırdı. Bu minvalla Məşədi Zalın ailəsi dörd il, Qədim ağanın ailəsi isə beş il Dağ İrmaşlıda gizlin qaçaq həyatı yaşadı. Bu illər ərzində elə bir gün olmadı ki, NKVD Qədim ağa və onun ailəsinin axtarışında olmasın.

Nəhayət, NKVD-çilər illərlə axtardıqlarını tapdılar. Qədim ağanın oğlu Xəlil ağa 1927-ci ildə sürgünə göndəriləndən bir ay sonra Qədim ağanı da həbs etdilər. Onu bu tutqudan yenə də uşaqlıq dostu - kənd Şurası sədrliyindən Şamxor Rayon İcraiyyə Komitəsinin sədri vəzifəsinə irəli çəkilən Piri oğlu Əlı qurtardı.

Banditləri, qolçomaqları, yeni quruluşun şübhəli bilinən qatı düşmənlərini şər qarışandan sonra yığıb milis idarəsinə gətirəndə Piri oğlu Əli dostu Qədim ağanı onların arasında görür, tez üzünü ordu əsgərlərinə tutub uca səslə: "Bu köpək oğlunu cütlə yer əkməyə göndərmişəm" deyib, acıqlı-acıqlı çönür Qədim ağaya sarı: "A kişi, ökuzlər itəcək, rədd ol, get işinə!" deyib sinəsindən geri itələyə-itələyə gətirilən dəstənin içərisindən çölə çıxarır. Onu gətirən əsgərlərə Qədim ağanın kolxozçu olduğunu bildirir.

1937-ci ilin yayında - Siyasi İdarənin əməkdaşları ermənilərin vasitəsilə Qədim ağanı Morul yolunun üstündə yeznəsi Şöhlə oğlu Süleymanla bir yerdə tutub həbs edirlər. Onları günlərlə ac saxlayır, möhkəm döyüb və işgəncə verirdilər. Bunu bilən oğlu Hadı bəy, eləcə də ailəyə yaxın bir neçə adam bir az da yemək götürüb gəlirlər Şəmkir NKVD-si kimi tanınan binanın yaxınlığına, böyürdə-başda hərlənirlər ki, kiməsə xahiş-minnət edib Qədim ağanı görə bilənlərlə heç olmasa yemək ötürə bilsinlər. Bundan xəbər tutan erməniəsilli NKVD rəisi Vasili Yakofidi hər iki dustağı - Qədim ağa ilə Süleymanı camaatın gözü qarşısında qol-qola bağlatdırır, günortanın cırhacırında başıaçıq, ayaqyalın, ac-susuz əsgərlərin qabağına qatıb atdöşü, payı-piyada Şəmkirdən birbaşa Zəyəmə göndərir. Əsgərlər yarımcan olan hər iki "cinayətkarı" günün qızmarında dayanmadan ac-susuz Zəyəmə aparır, heç hara, heç yerə dəymədən geri qaytarır.

82 yaşlı Qədim ağa Şəmkirə çatanda gah zorla yeriyir, gah yıxılırdı, yıxılanda isə atın belindəki əsgər əlindəki qamçı ilə onu ayağa qalxmağa məcbur edirdi. Bunu görən Hadı bəy gecəynən banditizmə qarşı dəstə rəisi Nəcəfovun üstünə minnətə gedir, məsələni açıb ona danışır.

Nəcəfov bu məsələdə kimin düz, kimin səhv olduğunun fərqinə varmadan deyir:

- Bu, mənlikdir, sən arxayın get, amma bu barədə heç kim, heç nə bilməsin.

Doğrudan da, dəstə rəisinin köməyi ilə bir neçə gündən sonra Qədim ağa ilə Şöhlə oğlu Süleymanı Şəmkir NKVD-sinin zirzəmisindən gecə ikən buraxırlar.

Həbsdə olduqları günlərdə onları elə döymüşdülər, ki, nə Qədim ağa, nə də qızı Xanımın həyat yoldaşı Süleyman kişi nəfəs ala bilmirdi, ciyərləri sözlərinə baxmırdı. Evə gələndən iki həftə sonra, 1937-ci ilin avqustunda 82 yaşlı Qədim ağa dünyasını dəyişir.

Şöhlə oğlu Süleyman isə qorxusundan Morulda qalmayıb, birbaşa dağa - Gədəbəyin Çətindərə yaylağındakı alaçığına gedir, Qədim ağanın üçü verilən günü o da həyatla vidalaşmalı olur.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

QIRMIZI TERROR

# İnqilabın "dəmir əsgəri"

**O, öz dövrünün, mühitinin, aid olduğu quruluşun kifayət qədər soyuqbaşlı, yüksək dərrakəli adamlarından biri kimi tanınırdı. Sovetlər zamanında bizlərə "dəmir Feliks" epiteti ilə təqdim olunurdu. Sakit və təkəbbürlü, iradəli, qətiyyətli, güclü, qüvvətli ruha, hissiyyata malik insan kimi... Amma zaman hər şeyi yerbəyer edir, deyirlər. Milyonlarla insanın həyatına son qoyan, sərt repressiya maşınını qurub-yaratmış bu adam sonralar ona ən çox yaraşan ləqəbinə qayıdır. Görkəmli tarixçilər, tədqiqatçılar bu məşhur insanı "qanlı Feliks" kimi təqdim edirlər.**

Rus filosofu Nikolay Berdyayev F.E.Dzerjinski haqqında yazırdı ki, o, bir fanatik idi. İlk baxışdan maraqsız adam təəssüratı yaradırdı. Bu insanda vahimə yaradan nə isə var idi. Keçmişdə katolik-rahib olmaq istəyirdi, amma çox təəssüf ki, özünün fanatik inancını kommunizmə tətbiq etdi. Çıxışlarında insanlara olan şübhəli, inamsız münasibətini açıq şəkildə ifadə edirdi. Deyirdi: "Biz indi terrorla bağlı bütün tədbirləri görməliyik, ona bütün gücümüzü səfərbər etməliyik. Elə düşünməyin ki, mən inqilabi ədalət formalarını axtarıram, mən inqilabi zorakılığın təşkilini tələb edirəm". Bu idi onun qarşıya qoyduğu məqsəd.

Kommunizmin hökm sürdüyü əksər bölgələrdə Dzerjinski bir etalona çevrilmişdi. Kəşfiyyatçının, xidməti əməkdaşın ümumi təyinatı "çekist" idi. Bu termin rəsmi olaraq istifadə edilir və bunu peşəkarlar şərəf bilirdilər. Əksər insanların otaqlarında Dzerjinskinin portretləri asılır, hamı onun kimi ağıllı, tədbirli, çevik olmağa çalışırdı. Etiraf edək ki, F.Dzerjinski çoxları tərəfindən rəğbətlə qarşılanan özünün böyük məktəbini yarada bilmişdi.

## "Feliks" xoşbəxt deməkdir

Yuriy Korolkovun onun haqqında yazdığı avtobioqrafik roman elə bu cür də adlanır. Dünyaya gələndə valideynləri Feliks adını ona belə bir arzu ilə qoymuşdular. Xoşbəxt olmasını istəmişdilər.

O, 1877-ci ildə Vilno vilayətində (Belarusun Minsk bölgəsi) Dzerjinovo malikanəsində polyak mənşəli gimnaziya müəllimi Edmund-Rufin İosifoviçin ailəsində doğulmuşdu. Atası müəyyən müddət Taqanroqdakı gimnaziyada işləmişdi. Feliksin anası Helena Dzerjinskaya isə professor İqnati Yanuşevskinin qızı idi.

Ailələrində Felikslə birgə 9 uşaq böyüyürdü. Ataları gözlənilmədən vərəmdən vəfat edir və ailənin yükü anaları ilə böyük övladların üzərinə düşür. Anası yeddi yaşında Feliksi Vilnüs şəhərindəki İmperator gimnaziyasına qoyur. O, pis oxuyan, intizamsız şagirdlərdən sayılırdı. Müəllimləri ilə tez-tez mübahisələr edərdi. Rus dilini bilmədiyinə görə birinci sinifdə iki il ardıcıl oxumalı olmuşdu. Amma dini dərslərə marağı böyük idi. Ən yaxşı qiyməti bu dərslərdən alardı. Gələcək arzusu kilsə xadimi olmaq idi. Amma həyat taleyini tamam başqa səmtə istiqamətləndirdi. Uşaqkən din xadimi olub insanların mənəvi dünyasına xidmət etmək istəyən biri bolşevik ideologiyası ilə sərt bir insana çevrildi.



## Gizli iş

1894-cü ildə gimnaziyada oxuyarkən sosial-demokratların müstəqil inkişaf dərnəyinə qoşulur. 1895-ci ildə Litva sosial-demokratiyasının inqilabi qanadına daxil olur. Marksizm təlimini dərindən mənimsəyir. 1896-cı ildə gimnaziyadan yarımçıq çıxır və peşəkar inqilabçı kimi fəaliyyətə başlayır.

1906-cı ildə Feliksi sosial-demokratların Stokholmda keçirilən birləşdirici qurultayına nümayəndə göndərirlər. Burada ilk dəfə V.İ.Leninlə görüşür. Polşa və Litva sosial-demokratiyasının nümayəndəsi sifətilə RSDFP MK-nın tərkibinə daxil olur. Avqust-oktyabr aylarında Peterburqda işləyir. İlin sonunda Varşavada həbs olunur. F.Dzerjinskinin tərcümeyi-halı həbslər, sürgünlər və qaçışlarla doludur. O, şəxsi işində Oktyabr inqilabından əvvəl fəaliyyətinə görə repressiyaya məruz qalıb-qalmaması sualını belə cavablandırmışdı: "1897, 1900, 1905-ci illərdə həbs olunmuşam; 1906, 1908 və 1912-ci il, cəmi 11 ilimi həbsxanada keçirmişəm, o cümlədən ağır iş (8 üstəgəl 3), üç dəfə sürgün olunmuşam və həmişə də qaçmışam".

## FK-nın rəhbəri

1917-ci ilin fevral inqilabı Dzerjinskinin karyerasında sıçrayışa səbəb olur. O, MK-nın tərkibinə seçilir. Oktyabr inqilabında Hərbi-İnqilab Komitəsinin üzvü kimi iştirak edir və bu inqilabın əsas təşkilatçılarından olur. Hərbi-İnqilab Komitəsi buraxıldıqdan sonra isə 1919-cu ilin dekabrında yaradılan, əks-inqilabla mübarizə orqanı olan Ümumittifaq Fovqəladə Komissiyasını (FK) təşkil etməyi ona tapşırırlar. Feliks Dzerjinskini həmin orqanın sədri təyin edirlər.

Beləliklə, F.Dzerjinski "proletariatın diktaturası" adlandırılan ÇK-nı qurur və qeyri-məhdud səlahiyyətlərə malik olur. Dzerjinski çıxışlarında deyirdi: "ÇK-nın edam hüququ son dərəcə vacibdir... ÇK məhkəmə deyil, ÇK inqilabı müdafiə etməli və qılıncı təsadüfən günahsızların başına düşsə belə düşməni məhv etməlidir". Təşkilatın tərkibinə 23 çekist daxil idi. Bu qurum tezliklə böyük bir coğrafiyada insanların qorxulu yuxusuna çevrilir. Əks-inqilaba qarşı mübarizə adı altında milyonlarla adamı məhv edir.

"Dəmir Feliks"in inqilabi fəaliyyətini müasir cəmiyyət birmənalı qiymətləndirmir - bəziləri onu qəhrəman və "burjuaziyanın tufanı" hesab edir, digərləri isə onu bəşəriyyətə nifrət edən amansız cəllad kimi xatırlayır.

Bir faktı da qeyd edək ki, "cəza aparatı"nın başında duran Dzerjinski nəinki "ağ terror"a qarşı döyüşçü, həm də sovetlər respublikasının dağıntılardan "xilaskarı" olur. Onun ÇK-nın başındakı fəaliyyəti sayəsində 2 mindən çox körpü, təxminən 2,5 min parovoz və 10 min kilometr dəmir yolu bərpa edilir. 1922-ci ildən etibarən F.Dzerjinski ÇK-ya rəhbərlik etməklə yanaşı, NKVD yanında Siyasi İdarənin də başçısı olur. Sonralar tarixə NEP kimi düşəcək yeni iqtisadi siyasətin hazırlanmasında, icrasında fəallıq göstərir. Dzerjinskinin təşəbbüsü ilə ölkəyə investisiya cəlbi üçün səhmdar cəmiyyətləri və sahibkarlıq müəssisələri yaradılır.

1924-cü ildən isə ölkənin xalq təsərrüfatı ona tapşırılır. Müəyyən dövrdən sonra ölkə rəhbərliyinin inqilabın əsas məqsədlərini rədd edərək diktatura qurmağa başlaması F.Dzerjinskini narahat etməyə başlayır. İçində böyük bir narahatlıq yaranır. Əzab çəkirdi. Amma daha geriyə yol görünmürdü. Stalin diktaturası repressiya maşınından güc alırdı. Cəmi bir neçə ildən sonra 30-cu illərdə bu repressiya maşını daha dəhşətli şəkildə işləməyə başladı. Xalqın ən dəyərli insanlarının, ziyalılarının, cəmiyyətin nüfuzlu simalarının ömrünə nöqtələr qoyuldu. İnqilabın "dəmir əsgəri" içində təlatümlər olsa da, Leninin və daha sonra Stalinin iradəsinin ən enerjili bir icraçısına çevrilir.

F.Dzerjinski 1926-cı ilin 20 iyul günü MK-nın plenumu zamanı ürəktutmasından dünyasını dəyişir. Onun ölümündə həmin iclasda SSRİ-nin iqtisadi vəziyyətinə dair etdiyi ikisaatlıq məruzənin də müəyyən rolu vardı. Mərkəzi Komitənin iqtisadi məsələlər üzrə plenar iclasında Dzerjinski bəyan edir: "Əgər bizim bütün aparatımıza, bütün idarəetmə sistemimizə, eşidilməmiş bürokratiyamıza, hər cür təsdiqlə misli görünməmiş tələşımıza baxsanız, mən bütün bunlardan inanılmaz dərəcədə dəhşətə gəlirəm...İstefamı qəbul edin... belə işləmək olmaz!" Bu emosional, duyğusal çıxışı onun ürəyinin dayanmasına gətirib çıxarır və Dzerjinski həmin gün də vəfat edir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

YADDAŞ

# Qanlı illərdən soraq verən məkan

## Siyasi Repressiya Qurbanları Muzeyi gənclərin daim maraq dairəsindədir







**Muzeydə hər şey 87-94 il öncəni - ötən əsrin məşum otuzuncu illərini xatırladır. Kandarına qədəm qoyduğun dəhlizlər də, sanki üzərinə qan, nalə, fəryad hopmuş qalın divarlar da, içərisindən günahsız insanların ümidlə "boylandığı" dəmirqapılı "məhbəslər" də... "İstintaq" kameraları, "cəza" mexanizmləri, "edam" otaqları da eləcə qalır. Bir yanda Cavid əfəndi "sorğu-suala tutulur", digər məkanda Tağı Şahbaziyə "işgəncə verilir", başqa tərəfdə Müşfiq "güllələnir..."**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) inzibati binasında Siyasi Repressiya Qurbanları Muzeyinin ekskursiya zalları və eksponatları o qədər təbii işlənib ki, bura üz tutan hər kəs nəinki ziyarət müddətində, binanı tərk etdikdən sonra da həmin dəhşətli zamanın təəssüratlarından, mühitin ağrı-acılarının təsirindən uzun müddət çıxa bilmir. Adıçəkilən muzeyin 2019-cu ildə Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi münasibətilə DSX-nin inzibati binasında yaradılması da təsadüfi deyil. 1925-ci ildən sonra burada ovaxtkı hökumətin əsas repressiv orqanları fəaliyyət göstərib, zirzəmidə məhbusların saxlanma kameraları, istintaq otaqları, ölüm hökmü çıxarılanların güllənmə yeri olub. 1920-1950-ci illərdə aparılan amansız repressiya siyasəti nəticəsində on minlərlə ictimai və dövlət xadimi, elm, mədəniyyət, ədəbiyyat, incəsənət nümayəndələri, sıravi vətəndaşlar bu məkanda ən ağır cəzalara məhkum ediliblər.

Müzeyin əsas zalında - "Danışan sənədlər" guşəsində repressiya aparatı ilə bağlı 1920-1930-cu illərdə qəbul edilmiş sənədlərin surətləri verilib. Azərbaycanda bu iyrənc ssenarini "qanunlaşdıran" ilk sənədlərdən biri kimi Bakı şəhər komendantının 26 may 1920-ci il əmrində əks olunmuş "Hansı evdən güllə atılsa, həmin ev top atəşinə tutulacaq, 16 yaşından 50 yaşına qədər olan hər kəs mühakiməsiz güllələnəcək" müddəası xalqımıza qarşı qəddarlığın açıq-aydın nümunəsidir. İlk qurbanlar isə Azərbaycan Xalq Cümhuriyyətinin tanınmış simaları - parlament və hökumət üzvləri olmuşlar.

Növbəti lövhə təhsil almaq üçün Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Avropaya göndərilən gənclərin vətənə qayıdandan sonra məruz qaldıqları repressiyalara həsr edilib. Belə ki, xalqa xidmət üçün geri dönmüş 56 ali təhsilli mütəxəssisin 38-i güllələnib və ya sürgün olunub.

Siyasi repressiya qurbanı olan qadınlara həsr edilmiş lövhədə güllələnmiş beş ziyalı xanım - Xədicə Qayıbova, Mədinə Qiyasbəyli, Nemət Məlikova, Panfiliya Tanailidi və Ayna Sultanova, həmçinin "xalq düşmənlərinin" islah-əmək düşərgələrində cəza çəkən həyat yoldaşları haqqında məlumatlar verilib.

1950-ci illərin ikinci yarısında siyasi rerpessiya qurbanlarına bəraət verilməsinə baxmayaraq, bolşevizmin hökmranlığı illərində belə məlumatların yayılmasının yasaqlanması üzündən yalnız müstəqillik illərində - 15 mart 1996-cı ildə Ulu Öndər Heydər Əliyevin imzaladığı "Siyasi repressiya qurbanlarının reabilitasiyası haqqında" Azərbaycan Respublikası Qanununda bütün bu hadisələrə ilk dəfə hüquqi qiymət verilib.

Muzeyin yaradılmasında əsas məqsədlərdən biri də repressiya qurbanlarının xatirəsinə ehtiramla yanaşı, yaxın keçmişimizin qanlı səhifələri haqqında gənc nəslin düzgün məlumatlandırılmasıdır.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

İNSANLIĞA QƏSD

# "Qadınlar üçün yerdə cəhənnəm"

**Repressiya illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülmüş və bunlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnmişdir.**

Repressiya qurbanı olmuş şəxslərin ailə üzvləri olan qadınların acı taleləri o dövrün dəhşətlərindəndir. Bu qadınların məcburi saxlanıldığı, işgəncə tətbiqinə görə analoqu olmayan Akmola islah əmək düşərgəsini "Qadınlar üçün yerdə cəhənnəm" adlandırıblar. Düşərgədə cəza çəkən qadınlar öz aralarında cəhənnəmi xatırladan bu məkana qeyri-rəsmi "АЛЖИР" (Акмолинский лагерь жен изменников Родины) adını qoyublar.

Akmola siyasi repressiya qurbanları düşərgəsində Azərbaycan Respublikasının Dövlət Himninin müəllifi, istiqlal şairi Əhməd Cavadın həyat yoldaşı Şükriyyə xanım, Fətəli xan Xoyskinin qızı Tamara Xoyskaya, Quba Qızlar Seminariyasının rəhbəri Sənubər Eyyubova, Şəmkirin Təhnəli kəndindən Məhəmməd Qurbanovun həyat yoldaşı Bəyim xanım, habelə həmin rayonun Təzəkənd kənd sakini Hacı Rəhim Bayramovun həyat yoldaşı Mina xanım da daxil olmaqla 44 azərbaycanlı qadın sürgün həyatı yaşayıb.



*"Azərbaycan"*

# Min bir dərdin dərmanı

## Bal yarmarkasına 39 rayondan 120 tona yaxın bal gətirilib

**İstifadə etdiyimiz qida məhsulları içərisində balın özəl yeri var. Bu özəllik balın dad, ətir və şəfası ilə təsdiq olunur. Bal ölkəmizdə həm də regionların biomüxtəlifliyini təmsil edir.**














Amma bütün rayonları gəzərək həmin bölgəyə məxsus tərkibli balı dadmaq heç də asan deyil. Bu fürsəti əldə etməyin ən asan yolu bu günlərdə paytaxtda açılan arıçılıq məhsullarının 24-cü Respublika Sərgi-Satış Yarmarkasına baş çəkməkdir.

39 rayondan gələn 275 arıçının iştirak etdiyi yarmarkada 120 tona yaxın məhsul satışa çıxarılıb. Həmin məhsulun 105 tonunu bal, 12 tona yaxınını şan, 3 tonunu isə digər arıçılıq məhsulları təşkil edir. Yarmarkada iştirak üçün hər bir arıçıya minimum 40 arı ailəsinə malik olması tələbi qoyulur. Arıçı yarmarkaya maksimum 400 kq bal və maksimum 30 ədəd arı şanı satışa çıxara bilir.

### "Artıq 3 ildir Füzulidə, Hadrutda bal istehsal edirik"

Bal yarmarkasındayıq. Yarmarkaya daxil olarkən insanı balın bihuşedici ətri vurur. Piştaxtalara bal və baldan hazırlanmış müxtəlif məhsullar düzülüb. Ətrafda min bir əziyyətlə yetişdirdikləri məhsulları təqdim edən satıcılar, bu qədər balın arasında seçim etməyə çalışan alıcılar var. Bu gözəl mənzərəni nə saysız-hesabsız arılar, nə də olduqca yüksək hava temperaturu pozurdu.

Əslində, hamı bal sərgisindən yalnız xalis bal gözləyir. Lakin baldan əldə olunan məhsulların çeşidliliyi xoş təəccübə səbəb olur. Yarmarkada məhsulların qiyməti çeşidindən asılı olaraq 2-40 manat arasında dəyişir.

İlk olaraq Qəbələ rayonundan gələn arıçı Kəramət Əbdürrəhmanzadənin piştaxtasına yaxınlaşırıq. Babası və dayısı da balçılıqla məşğul olan Kəramət 5 ildir arıçılığa başladığını bildirir. Deyir ki, piştaxtada dağ cökə, may və şabalıd balları, çiçək tozu, bal qaymağı var. Bu balların fərqlənməsini müxtəlif yerlərdə yığılması ilə əlaqələndirir: "Arıları il ərzində 4-5 yerə köçürürük. İyunun 20-sinə qədər may balı üçün qaratikan ərazisinə gedirik, daha sonra kəndimizə - Mıxlıqovağa şabalıd bağlarına, ondan sonra isə dağ cökə balı üçün Qəmərvan kəndinə qalxırıq".

Piştaxtada xüsusi qablaşdırmada olan propolis damcıları da diqqət çəkir. Arıçı bildirir ki, bu təbii antibiotikdir: "Propolis ilk olaraq spirtlə qarışdırılır. Hazırlıq zamanı 95 faizli spirtin faizi 70-ə endirilir, xüsusi maye hazırlanır. İnsan çəkisinin hər 10 kiloqramına 2 damcı hesablanaraq, suya və ya südə qarışdırılaraq gündə iki dəfə qəbul olunur. Bu məhsul dezinfeksiya məqsədilə antiseptik kimi də istifadə edilə bilər. Deyə bilərəm ki, pandemiya dövründə məhz bu məhsul sayəsində ailəmizdən və yaxınlarımızdan heç kim koronavirusa yoluxmadı". Kəramət onu da deyir ki, satışa çıxardığı digər məhsulu - çiçək tozu təbii proteindir. Güləmin tərkibində bal, propolis, arı südü, çiçək tozu olur. Bu məhsulun tərkibi zəngindir. Yumurtadan çıxan 5 günlük arılar bununla qidalanırlar. Ondan ağız və mədə xəstəlikləri zamanı istifadə olunur.

Hadrutdan gələn arıçı Elman Musayevin stendi xüsusilə diqqətimizi cəlb etdi. Uşaqlıqdan arıçılığa həvəs göstərən Elman Musayevin atası da işğaldan əvvəlki dövrdə Füzulidə balçılıqla məşğul olub: "Torpaqlarımızın işğalından sonra məcburi köçkün kimi həyatımıza davam etdik. Sonrakı illərdə Ağsu, Zaqatala və Balakən rayonlarında arıçılıqla məşğul olduq. Şükür olsun ki, artıq 3 ildir Füzulidə, Hadrutda ailə təsərrüfatında bal istehsal edirik. Balın ətri, dadı, rəngi bitkilərdən asılıdır. Bitkilərin müxtəlifliyi isə ərazilərə görə dəyişir. Ona görə də Qarabağ və Şərqi Zəngəzur ərazilərində yetişdirilən balların özünəməxsus dadı, qoxusu, xüsusilə də faydası olur. Baldan savayı, arı südü, propolis, krem və balzamların da satışı ilə məşğul oluruq".

### Balçılıqda ən gözəl məqam tullantının olmamasıdır

Yarmarkada maraqlı stendlərdən biri də arıçı Məhəmməd Vocuyevə məxsusdur. Burada qida məhsulları ilə birlikdə estetik və gözoxşayan qablaşdırmalarda kosmetik vasitələr də diqqət çəkir. Arıçı məhsullarının satışı üçün sosial şəbəkələrdən maksimum dərəcədə faydalandığını bildirir. Onun fikrincə, məhsul əldə etməklə iş bitmir, onun satışını da uğurla həyata keçirmək lazımdır: "Bəziləri deyir ki, yaxşı balın reklama ehtiyacı yoxdur. Amma mən əksini düşünürəm.



Zaqatala rayonunun Uzuntala kəndində yaşayıram. Məni digər regionlarda yaşayan insanlar necə görüb tanımalıdırlar?! Balın əldə olunması mərhələlərini videoçəkilişlərlə təqdim edirəm. Bu da etibarı artırır. Yaxşı balı ayırd etmək olduqca çətindir. Arı üzü görməyən, şəkərlə bişirilən saxta ballar da az deyil. İllərdir nümayiş olunan metodların, əslində, heç biri tam güvənli deyil, yalnız laboratoriya analizləri ilə balın necə olduğunu müəyyən etmək mümkündür. Ona görə də belə yarmarkalardan bal almaq daha məqsədəuyğundur. Daha sonra yarmarkanın olmadığı müddətdə satıcılar elə burada tanıdıqları arıçıların daimi müştərilərinə çevrilirlər".

Qax rayonundan gələn arıçı Kamran Seyidəli deyir ki, 20 ildən çoxdur balçılıqla məşğul olur: "Hər bir bal məhsulu düzgün şərait və temperaturda saxlanılmalıdır. Ata-babalarımızdan gələn bu ailə təsərrüfatında yoldaşım və övladlarım da iştirak edirlər. Hətta özümüzə məxsus markamız da var".

Çoxsaylı bal növlərinin satıldığı bu piştaxtada digərlərindən fərqli olaraq, xüsusi qəliblərdə arı mumundan hazırlanmış müxtəlif forma, rəngli və qoxulu şamlar da uzaqdan diqqəti cəlb edir. Arıçı bildirir ki, balçılıqda ən gözəl məqam sıfır tullantının olmasıdır. Bal mumundan hazırlanan şamlar uzunmüddətli yanması ilə seçilir, üstəlik onlar havanı təravətləndirməklə birlikdə, mikrobları da öldürür. Şamların qiyməti çəkisindən asılı olaraq dəyişir. Həmsöhbətimiz onu da xüsusilə vurğulayır ki, yarmarkada nə onda, nə də digər satıcılarda keyfiyyətsiz və ya saxta balın olması mümkün deyil. Hər şey ciddi nəzarət altındadır.

### Alıcılar razılıq edirlər

Bal yarmarkasına gələn alıcıların sayı az deyil. Onlar maraqla stendləri gəzir, satıcıların təklif etdikləri balı dadır, sonra seçimlərini edirlər. 73 yaşlı Eldar Teymurov sağlam və gumrah olmasına görə hər səhər içdiyi ballı suya borclu olduğunu deyir: "Rayonlarda nə qohumum, nə də tanışım var. Həm də düzü hər yerə güvənib bal da ala bilmirəm. Yarmarkadakı məhsullar ciddi yoxlamadan keçdikləri üçün arxayınlıqla buradan bir neçə kiloqram bal alıram. Bu da mənə gələn yarmarkaya qədər bəs edir".

Bal yarmarkasına gənclər də maraq göstərirlər. Sərgiyə tələbə yoldaşları ilə gələn İlkanə Muradova söyləyir ki, təbii kosmetik vasitələrdən əldə etmək üçün bura gəliblər: "Valideynlərim yarmarkadakı məhsulları o qədər təriflədilər ki, gəlib öz gözümlə görmək istədim. Dedikləri kimi varmış: buradakı krem, balzamlar həm təbii, həm də kimyəvi məhsullarla müqayisədə olduqca ucuzdur".

Zəhmətkeş arıçıların sayəsində ölkəmizdə bal istehsalı hər il artır. Alıcılar isə belə yarmarkaların sayəsində təbii, keyfiyyətli bal və bal məhsullarını asanlıqla almaq imkanı əldə edirlər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Ağdərənin Talış kəndində səyyar tibbi müayinələr təşkil olunub

İşğaldan azad edilən ərazilərdə Böyük qayıdış proqramı çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən davamlı olaraq vətəndaşlar arasında müxtəlif tibbi müayinələr, eyni zamanda sağlamlığın təşviqi istiqamətində maarifləndirici aksiyalar təşkil edilir.



AZƏRTAC xəbər verir ki, azad olunmuş ərazilərə qayıtmış əhali üçün növbəti səyyar müayinələr Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun həkim heyəti tərəfindən Ağdərə rayonunun Talış kəndində keçirilib.

İnstitutun baş həkimi Nurlana Əliyeva bildirib ki, aksiya çərçivəsində artroloq, nevroloq, fizioterapevt-reabilitoloq və tibb bacısından ibarət heyət tərəfindən əhaliyə tibbi baxış keçirilib, EMQ (elektromioqrafiya) və EEQ (elektroencefaloqrafiya) müayinələri aparılıb. Eyni zamanda müayinələr zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub.

Orta yaşlı əhalidə onurğa sinir, oynaqdayaq əzələ, mədə-bağırsaq xəstəliklərinin, ümumi serebrovaskulyar xəstəliklərin aşkar edilməsi, 3-16, 16-65 yaşlı insanlar arasında skolioz və digər vertebrogen problemlərin diaqnostika və bərpası üzrə müayinələr aparılıb və müalicə təyinatı yazılıb. Bundan əlavə, nevroloqlar tərəfindən xəstələrdə elektromioqrafiya müayinələri, yəni sinir əzələ keçiriciliyinin aktivliyi və elektroensefaloqrafiya vasitəsilə başda əsasən epilepsik ocaqların yoxlanması müayinələri aparılıb. Fizioterapevt və reabilitoloqlar tərəfindən isə xəstələrə sağlamlığın erkən əldə olunmasına kömək edən profilaktik tövsiyələr verilib. Aksiya zamanı 70-dən çox vətəndaş müayinələrdən keçirilib.

Aksiya zamanı əhalinin sağlamlığının qorunması üçün maarifləndirici söhbətlər də aparılıb. İşğaldan azad olunan digər ərazilərdə də Səhiyyə Nazirliyi tərəfindən davamlı olaraq maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsi nəzərdə tutulub.

"Bakı Sığorta" ASC-nin mülkiyyətində olan 10A969 nömrəli "ZONTES ZT 150 8A" markalı motosiklə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Cavanşir Paşazadə Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi general-mayor Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Hicran Hüseynova və Rüfət Səfərəliyev Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əhməd Əhmədzadə Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əhməd Əhmədzadə Xanbala Orucova atası

**TUBAİL ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi general-mayor Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Oruc Zalov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi polis general-mayoru Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi general-mayor Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Professor Qəzənfər Paşayev Zeynalovlar ailəsinə əzizləri

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev və xidmətin kollektivi Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi general-mayor Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi general-mayor Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi polis general-mayoru Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Həmid Bağırov Zeynalovlar ailəsinə əzizləri

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **4128**
Sifariş **2063**

**Qiyməti 60 qəpik**